Hər kəs ədalətli olacaq

www.adalet.az

# ƏDALƏT

Qurucusu: Adil Minbaşıyev | İctimai-siyasi, hüquq qəzeti | Qəzet 1990-cı ilin iyulundan çıxır | № 31 (6173) 21 avqust 2026-cı il | Qiyməti 40 qəpik

# Xüsusi əməliyyat




**Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidməti (DTX) tərəfindən davam etdirilən antiterror və əməliyyat-axtarış tədbirləri çərçivəsində 2009-cu ildən beynəlxalq axtarışa verilmiş Ağalarov Namiq Rəşid oğlunun saxlanılaraq Azərbaycana gətirilməsi və istintaqa cəlb olunması təmin edilib.**

**Bu barədə Adalet.aza DTX-dən məlumat verilib. Bildirilib ki, Namiq Ağalarov 2008-2009-cu illərdə Əfqanıstan, Pakistan və digər ölkələrdə qanunsuz silahlı birləşmələrin tərkibində BMT mandatlı Beynəlxalq Təhlükəsizliyə Yardım Qüvvələrinin şəxsi heyətinə silahlı pusquların qurulması, məsafədən partlayıcı qurğuların tətbiqində və beynəlxalq təşkilatların nümayəndələrinə, habelə beynəlxalq missiya yerinə yetirən müxtəlif ölkə vətəndaşlarına, eləcə də logistika şəbəkələrinə qarşı silahlı hücum əməliyyatlarının təşkilində iştirakda ittiham edilir. Ötən illər ərzində məsuliyyətdən yayınmaq üçün müxtəlif adlar altında ayrı-ayrı ölkələrdə gizlənmiş Namiq Ağalarovun eyni zamanda cihad və radikal dini təbliğat fəaliyyəti ilə də məşğul olduğuna dair məlumatlar mövcuddur.**

## Ərdoğan: Böyük Türkiyə gəlir, tarix yenidən yazılır



**Terrorun sonu bu gün kimləri kədərləndirir? Türkiyəyə qarşı planları olanları! Bu qanayan yaradan daha 40 il faydalanmaq istəyən qüvvələri. Bu ölkədə analar artıq ağlamayacaq, uşaqlar yetim, qadınlar dul qalmayacaq. Ölkəmizin enerjisi boşa getməyəcək.**

Adalet.az bildirir ki, bunu Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan rəhbərlik etdiyi hakim Ədalət və İnkişaf Partiyasının (AK Parti) yaradılmasının 25-ci ildönümü münasibətilə keçirilən tədbirdə bildirib.

"Çoxqütblülüyə doğru transformasiya olan beynəlxalq sistemin fəal iştirakçısına çevrilən Ankara milli maraqları müdafiə etməklə yanaşı, diplomatiyaya, dialoqa və humanitar məsuliyyət prinsipinə üstünlük verir. Biz regionda sabitliyi gücləndirməyə və daha ədalətli dünya nizamına töhfə verməyə çalışırıq", - deyə Ərdoğan vurğulayıb.

Prezident Ədalət və İnkişaf Partiyasının seçdiyi yolla qətiyyətlə irəliləməyə davam edəcəyini vurğulayıb:

"AKP Türkiyənin nailiyyətlərinin arxasında duran hərəkətverici qüvvədir. Keçmişin təcrübəsini gələcəyin imkanları ilə birləşdiririk. Hələ görüləsi çox işimiz var. Tarix yenidən yazılır. Böyük Türkiyə Cümhuriyyəti gəlir".

## DİN-dən xəbərdarlıq




**"Son günlər "WhatsApp" tətbiqində və ya sosial şəbəkələrdə vətəndaşların adına oxşar hesablar yaradılaraq onların yaxınları və tanışları ilə əlaqə saxlanılması, müxtəlif bəhanələrlə pul vəsaiti istənilməsi halları müşahidə olunur".**

Adalet.az xəbər verir ki, bu barədə DİN-in vətəndaşlara müraciətində deyilir. Qeyd olunub ki, belə hallarda kiberdələduzlar tanış şəxsin adından, fotoşəkildən və digər məlumatlardan istifadə edərək saxta hesab yaradır, yaxınlarına yazaraq təcili pul göndərilməsini xahiş edirlər:

"Vətəndaşlara müraciət edərək bu cür mesajlara qarşı diqqətli olmağa, tanıdıqları şəxsin adından göndərilən, xüsusilə də pul vəsaiti tələb olunan şübhəli müraciətlərə dərhal inanmamağa çağırırıq.

Sizə tanıdığınız şəxsin adından pul göndərilməsi barədə mesaj daxil olarsa, ilk növbədə həmin şəxslə digər vasitə ilə əlaqə saxlayaraq məlumatın həqiqiliyini dəqiqləşdirin.

Şəxsin profil fotosunun və adının tanış olması hesabın məhz həmin şəxsə məxsus olduğunu təsdiq etmir.

Şübhəli hesab və mesajlarla qarşılaşdıqda pul vəsaiti göndərməyin, şəxsi və bank məlumatlarınızı paylaşmayın, şübhəli keçidlərə daxil olmayın".

Vurğulanıb ki, kiberdələduzluqla qarşılaşdıqda dərhal DİN-in "102" Xidməti-Zəng Mərkəzinə və ya Nazirliyin rəsmi sosial şəbəkə hesablarına müraciət edilməlidir.

## Azərbaycanda nikahların sayı kəskin azalıb



**Azərbaycanda nikaha girən və boşananların sayı azalıb.**

Adalet.az xəbər verir ki, bu barədə Dövlət Statistika Komitəsinə istinadən məlumat verilib.

Bildirilib ki, Ədliyyə Nazirliyinin rayon (şəhər) qeydiyyat şöbələri tərəfindən 2026-cı ilin yanvar-iyun ayları ərzində 19 224 nikaha daxilolma qeydə alınıb, bu da ötən ilin eyni dövrü ilə müqayisədə 5 591 nikah azdır.

Ötən ilin altı ayı ilə müqayisədə boşanma hallarının sayı 10 350-dən 9 776-ya enib.

*Əbülfət MƏDƏTOĞLU*

## Vaxtsız yarpaq tökümünə ağı

Bax:səh-8

## BMT-dən təcili çağırış



**BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarı Folker Türk Yəməndə hərbi əməliyyatların kəskinləşməsi nəticəsində mülki əhali arasında tələfatın artmasından dərin narahatlığını bildirib.**

Adalet.az "Euronews"a istinadən xəbər verir ki, BMT rəsmisi ölkənin genişmiqyaslı müharibəyə sürüşməsinin qarşısını almaq üçün bütün səyləri göstərməyə çağırıb.

Onun sözlərinə görə, Yəmən artıq Yaxın Şərqdə davam edən qarşıdurmaya cəlb olunmuş ölkələrin sırasına qoşulub:

"Bu, İran tərəfindən dəstəklənən husilər hərəkatının Səudiyyə Ərəbistanının dəstəklədiyi hökumətlə 2022-ci ildə bağlanan atəşkəsi faktiki olaraq pozması və hökumətin nəzarətində olan ərazilərə zərbələri intensivləşdirməsindən sonra baş verib. Zorakılığın yeni dalğası Ərəbistan yarımadasında yerləşən kasıb ölkəni yenidən genişmiqyaslı hərbi əməliyyatlara sövq edə bilər". F. Türk tərəflərə müraciət edərək xəbərdarlıq edib: "Yəmən xalqını növbəti əzab-əziyyətlərdən qorumaq üçün bütün tərəfləri gərginliyi azaltmağa çağırıram. İllərlə davam edən münaqişənin dağıdıcı nəticələri, insanların məcburi köçkün düşməsi və humanitar böhran nəzərə alındıqda, Yəmən xalqı zatən həddindən artıq məhrumiyyətlərə məruz qalıb. Bütün tərəfləri Yəməndə genişmiqyaslı münaqişənin bərpasına gətirib çıxara biləcək hər bir hərəkəti dərhal dayandırmağa qətiyyətlə çağırıram".

## ABŞ bu raketlərinin istehsalını 16 dəfədən çox artıracaq

**ABŞ Hərbi Dəniz Qüvvələri "Tomahawk" qanadlı raketlərinin istehsalını əhəmiyyətli dərəcədə artırmaq üçün "Raytheon" şirkəti ilə 22.9 milyard dollar dəyərində yeddiillik müqavilə imzalayıb.**

Adalet.az xəbər verir ki, bu barədə "Reuters" agentliyi məlumat yayıb.

Saziş çərçivəsində "Raytheon" "Tomahawk" raketlərinin illik istehsalını hazırkı təxminən 60 raketdən 1 000-dən çox raket səviyyəsinə qaldırmalıdır.

ABŞ Hərbi Dəniz Qüvvələri nazirinin səlahiyyətlərini icra edən Hunq Kao bildirib ki, ABŞ hakimiyyəti hərbçiləri zəruri dəqiq silah ehtiyatları ilə təmin etmək üçün müdafiə şirkətlərini sursat istehsalını sürətləndirməyə çağırıb.

## GÜNÜN LƏTİFƏSİ



Uzun illər köhnə, əldəndüşmüş "VAZ-06" "Jiquli"ylə xaltura edən bir kişi günlərin bir günü maşınını dəyər-dəyməzinə satıb köhnə, otuz ilin bir "Mersedes"ini alır. Köhnə olmasına baxmayaraq, maşının rahatlığı kişinin o qədər xoşuna gəlir ki, Böyük Vətən Müharibəsi iştirakçısı olmuş atasının qəbrinin üstünə ziyarətə gələrkən:

**- Ay rəhmətlik, adam da heç bu cür rahat maşın düzəldən nemesə güllə atar?**

# Əziz Əliyevin 130 illiyi qeyd ediləcək



**Azərbaycanın görkəmli dövlət və elm xadimi Əziz Əliyevin 130 illiyi qeyd ediləcək.**

Bu barədə Prezident İlham Əliyev Sərəncam imzalayıb.

Sərəncamda qeyd edilib ki, 2027-ci ilin yanvar ayında Azərbaycanın görkəmli dövlət və elm xadimi, səhiyyə təşkilatçısı, tibb elmləri doktoru, professor Əziz Məmmədkərim oğlu Əliyevin anadan olmasının 130 illiyi tamam olur.

"Yüksək amallara və humanist ideallara sadiq əsl vətənpərvər ziyalı kimi Əziz Əliyev şərəfli bir ömür yolu keçmiş və gələcək nəsillər üçün xalqa xidmətin parlaq nümunəsini yaratmış nadir şəxsiyyətlərdəndir. O, ən müxtəlif məsul vəzifələrdə çalışarkən milli təəssübkeşlik hissi ilə daim dövlət quruculuğu və idarəçiliyin təkmilləşdirilməsi istiqamətində olduqca səmərəli fəaliyyət göstərmişdir. Azərbaycanda səhiyyə sisteminin yeni əsaslar üzərində qurulmasında, tibb təhsilinin dövrün standartlarına uyğun formalaşdırılmasında və bu sahədə yetkin milli kadrların hazırlanmasında Əziz Əliyevin müstəsna rolu vardır. Əziz Əliyev İkinci Dünya müharibəsi illərində hərbi-siyasi əhəmiyyəti ilə seçilən bir sıra mühüm işlərə böyük uğurla rəhbərlik etmişdir. O, Azərbaycan tarixinin həlledici məqamlarında xalqın taleyüklü məsələlərinə münasibətdə atdığı qətiyyətli addımlarla dövlət idarəçiliyi məktəbini zənginləşdirmişdir. Azərbaycan və Dağıstan arasında münasibətlərin daha da möhkəmləndirilməsi naminə göstərdiyi fədakarlıqlar və verdiyi töhfələr Əziz Əliyevin adını xalqlarımızın dostluq və qardaşlığının həqiqi rəmzinə çevirmişdir", - deyə Sərəncamda bildirilib.

Sərəncama əsasən, Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi və Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi ilə birlikdə görkəmli dövlət və elm xadimi Əziz Əliyevin 130 illiyinə dair tədbirlər planı hazırlayıb həyata keçirməlidir.

Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etməlidir.

# Azərbaycanda vizasız gediş-gəliş olan ölkələrin sayı artırılacaq

**Azərbaycanda gəlmə turizminin təşviqi məqsədilə vizasız gediş-gəliş rejimi tətbiq olunan hədəf ölkələrin sayının artırılması nəzərdə tutulur.**

Bu, Prezident İlham Əliyevin təsdiqlədiyi "Turizmin inkişafına dair 2026-2030-cu illər üçün Dövlət Proqramı"nda öz əksini tapıb.

Tədbirlər Planına əsasən, ümumvətəndaş pasportları əsasında hədəf turizm ölkələrinin vətəndaşlarına münasibətdə birtərəfli və ya qarşılıqlı qaydada vizasız gediş-gəliş rejiminin tətbiqi üçün zəruri dövlətdaxili prosedurlar həyata keçiriləcək.

Proqramın aralıq nəticəsi kimi 28 hədəf turizm ölkəsinin vətəndaşları üçün vizasız gediş-gəliş rejiminin tətbiqinin təmin edilməsi nəzərdə tutulur. Yekun hədəf isə bu göstəricinin 34 ölkəyə çatdırılmasıdır.

Tədbirin icra müddəti 2026-2030-cu illəri əhatə edir.

Tədbirin əsas icraçısı Nazirlər Kabinetidir. Prosesə Xarici İşlər Nazirliyi, Dövlət Turizm Agentliyi, Dövlət Miqrasiya Xidməti, Dövlət Təhlükəsizliyi Xidməti, Dövlət Sərhəd Xidməti, Daxili İşlər Nazirliyi, İqtisadiyyat Nazirliyi və digər aidiyyəti qurumlar cəlb ediləcək.

Dövlət Proqramında viza siyasətinin yumşaldılması ilə yanaşı, turizm məqsədilə çoxdəfəlik elektron vizaların verilməsi prosedurlarının təkmilləşdirilməsi və elektron viza, o cümlədən sərhəddə viza rejimi tətbiq olunan ölkələrin sayının artırılması da nəzərdə tutulub. Çoxdəfəlik elektron vizaların verilməsi üçün "ASAN Viza" sistemi üzrə prosedurların və texniki imkanların yenilənməsi planlaşdırılır.

Bundan başqa, elektron viza rejiminin tətbiq ediləcəyi yeni ölkələrin siyahısının müəyyənləşdirilməsi, sərhəddə viza rejiminin müddətsiz əsaslarla tətbiqinin nəzərdən keçirilməsi və müəyyən ediləcək yeni ölkələrin vətəndaşlarına elektron viza imkanının yaradılması nəzərdə tutulur. Bu tədbirlərin 2026-2027-ci illərdə həyata keçirilməsi planlaşdırılır.

# Azərbaycan CNN-i məhkəməyə verdi

**Azərbaycan ABŞ-nin federal məhkəməsində CNN-ə qarşı iddia qaldırıb.**

Adalet.az xəbər verir ki, məhkəmə iddiasına səbəb Azərbaycana qarşı əsassız və təxribat xarakterli iddiaların yer aldığı məqalənin dərc edilməsidir.

2026-cı il iyunun 5-də CNN-in dərc etdiyi məqalədə Azərbaycan ərazisinin guya İsrail tərəfindən İrana qarşı hərbi və kəşfiyyat əməliyyatlarının həyata keçirilməsi üçün istifadə edildiyi barədə bir sıra təxribat xarakterli iddialar yer alıb.

Məqalədə iddia olunur ki, guya İsrail xüsusi təyinatlıları Azərbaycanın cənubunda, İran sərhədinə yaxın bir neçə ərazidə fəaliyyət göstərir, həmin məntəqələrdən kəşfiyyat və pilotsuz uçuş aparatları əməliyyatlarını həyata keçirir, guya İsrail Azərbaycanda dinləmə cihazları və digər kəşfiyyat avadanlıqları əvvəlcədən yerləşdirib və bunun İrana qarşı sonrakı əməliyyatlara hazırlıq məqsədi daşıyıb. Qeyd edək ki, CNN materialın dərcindən əvvəl Azərbaycan tərəfinin mövqeyindən xəbərdar olub. Belə ki, CNN-in sorğusuna cavab olaraq, Azərbaycan tərəfi bu iddiaları əvvəlcədən rəsmən təkzib edib və Azərbaycan ərazisinin hər hansı üçüncü dövlət tərəfindən İrana qarşı hərbi və ya kəşfiyyat məqsədləri üçün istifadəsinə icazə verilmədiyini bildirib. Amma belə bir cavaba baxmayaraq, materialda Azərbaycanın təqdim etdiyi mövqenin adekvat şəkildə əks etdirilməyib, əsas iddialar isə anonim mənbələrə istinadla təqdim edilib.



Azərbaycan ərazisinin xarici qüvvələr tərəfindən qonşu və üçüncü ölkələrə qarşı istifadəyə imkan verilmədiyi barədə dəfələrlə verilmiş bəyanatlara baxmayaraq, CNN-də saxta iddialarla dolu məqalənin qəsdən dərc edilməsi Azərbaycanın haqlı narazılığına səbəb olub. Material dərc edildikdən sonra Azərbaycan tərəfi CNN-dən sözügedən iddiaların təkzib edilməsini və materiala düzəliş verilməsini rəsmən tələb edib. Məsələ ilə bağlı Azərbaycan Xarici İşlər Nazirliyinin mətbuat katibi tərəfindən də müvafiq açıqlama verilib. İyunun 6-da, 23-də və iyulun 2-də Azərbaycan tərəfi CNN-ə rəsmi təkrar məktublar göndərərək materialda yer alan iddiaların təkzib edilməsini və düzəlişlərin aparılmasını tələb edib. CNN Azərbaycanın haqlı tələblərini araşdırmağa söz versə də, bu müddət ərzində heç bir əməli tədbir görməyib və irəli sürdüyü saxta iddiaları təkzib etməyib. Belə olan təqdirdə Azərbaycan CNN-ə qarşı ABŞ-nin Delaver ştatı üzrə federal məhkəməsində (media qurumunun rəsmi təsis edildiyi ştatda) iddia qaldırıb və iddia tələbi 17 avqust 2026-cı il tarixində rəsmən məhkəməyə təqdim edilib.

Qeyd edək ki, CNN materialının müəlliflərindən biri olan Tim Listerin əvvəlki materiallarında da Azərbaycanla bağlı birtərəfli yanaşma müşahidə edildiyi məlumdur. O, 2020-ci il Vətən müharibəsi və 2023-cü ildə antiterror tədbirləri zamanı da dərc etdiyi məqalələrdə Azərbaycana qarşı qərəzli iddialar yaymlayıb.

# "Qarabağı xilas etmək əfi ilanın ağzından ləl götürməkdən daha çətin idi"

**"Orta əsrlərin qılınc, qalxan dövründən fərqli olaraq müasir nüvə silahlarının təhdid kölgəsi altında, mürəkkəb geosiyasi coğrafiyada, hələ də səlibçilik nostalgiyasından tam xilas olmamış hegemon supergüclərin diş qıcadığı bir meydanda Qarabağı xilas etmək əfi ilanın ağzından ləl götürməkdən daha çətin idi. Artıq bunu mümkünsüz sayıb ümidini üzənlər vardı. Lakin dahi və müdrik sərkərdə, mahir strateq hərbi-siyasi dühasını nümayiş etdirərək dünyanın 8-ci möcüzəsini yaratdı. Qarabağı xilas və azad etdi".**



Bunu Adalet.az-a açıqlamasında siyasi şərhçi Tural İrfan deyib.

O, bildirib ki, hərb meydanındakı qələbə ilə kifayətlənmədi, diplomatiya, siyasət meydanında da usanmaz mübarizə aparıb qalib gəldi:

"Bununla da kifayətlənmədi, düşməni sülh diləməyə və dilənməyə məcbur vəziyyətə saldı. Yenə kifayətlənmədi, bir daha mənfur işğal planları qura bilməsin deyə düşməni konstitusiyasını (bir növ dövlət ideologiyasını) dəyişməyə vadar etdi. Qələbəni əldə saxlamaq, bir daha itirilməməsini təmin etmək onu qazanmaqdan daha çətindir. Məhz bu çətin prosesi də uğurla başa vuran Prezident İlham Əliyev oldu. Dünənin mübahisəli tarixini qabardıb bu günün mübahisəsiz tarixi-reallığını niyə kölgədə qoyuruq? Bu günün Azərbaycanını ümummilli lider Heydər Əliyev bölücü-separatçılardan xilas edib qorumadımı? Cənab İlham Əliyev əldən getmiş torpaqlarımızı qaytarıb ərazi bütövlümüzü təmin etmədimi? Məhəmməd Əmin Rəsulzadə Cümhuriyyəti dövründən rəsmiləşən dövlətimizi həmin dayaqlar üzərində yenidən bina edib möhkəmlətmədimi? Tarixi heç kəs silə, dəyişə, təhrif edə bilməz. Sadəcə tarixə, tarixi şəxsiyyətlərə baxış, yanaşmalar fərqli rakurslardan ola bilər. Odur ki, keçmiş bizə yalnız örnək, nümunə, dərs çıxarmaq üçün gərəkdir, mübahisə yaratmaq üçün deyil. Amma bu günü qiymətləndirmək, dəyərləndirmək daha vacibdir".

T.İrfan deyib ki, heç bir tarixi qəhrəmanı, şəxsiyyəti bu günümüzün liderləri ilə üz-üzə qoymaq, müqayisələndirmək niyyətim də yoxdur:

"Çünki hər dövrün öz şəraiti, tələbləri var. Bircə onu demək lazımdır ki, müasir dövrdə dövləti qorumaq, işğal edilmiş ərazilərini azad etmək o dövrdən qat-qat mürəkkəb məsələdir. Sağdan, soldan, aşağıdan, yuxarıdan diş qıcayanların, "okeanlar hökmdarları"nın təsir və təzyiqlərini bərtərəf edib, çox çətin və mürəkkəb şəraitdə ordunu son dərəcə gücləndirib ildırım sürəti ilə bütün sədləri sındırıb əjdahaların ağzından cəvahir Qarabağı xilas etmək indiki dövr üçün dünyanın 8-ci möcüzəsidir. Bu möcüzəni də gerçəkləşdirməyi Uca Yaradan cənab İlham Əliyevin liderliyi, sərkərdəliyi dövründə bizə bəxş edib. Sərkərdənin Allah tərəfindən qorunması, şanslı olması da əsas şərtdir. Vaxtilə İran ilə İraq 8 il savaşdı, milyonlarla insan həlak oldu, lakin heç nəyə nail ola bilmədilər. Əfqanıstan - Pakistan arasında, Hindistan - Pakistan və bu kimi bir sıra ölkələr arasında hələ də davam edən torpaq münaqişələri var ki, uzun illərdir problem olaraq qalır. Lakin Azərbaycan Prezidentinə Allahın bəxş etdiyi sərkərdəlik taleyi və liderlik xüsusiyyətləri, onun öz bacarığı, qabiliyyəti, fitri istedadı, cəsarəti ilə birləşərək tarixdə dönüş yaratmağa imkan verdi. Hamı öz anladığı kimi tarix yaza bilər, amma hər kəs tarix yarada yaxud onun məcrasını dəyişə bilməz. Prezident İlham Əliyev hər mənada yeni tarix yaratdı, yazdı və onu şanlı bir salnamə kimi gələcək nəsillərə fəxarət mənbəyi qoydu.Dini mətnlərə görə nemətə şükür etmək və onu öz vaxtında qiymətləndirmək, dəyərləndirmək hər kəsin vicdan borcudur".

**Vasif ƏLİHÜSEYN**

## *Yeni metro stansiyalarının piyada əlçatanlıq xəritəsi necə olacaq?*



**"Piyada gediləcək məsafə" dedikdə adətən 5-15 dəqiqə ərzində qət edilə bilən, təxminən 400-1200 metr məsafə nəzərdə tutulur. Orta hesabla, 10 dəqiqə ərzində 800 metr piyada getmək mümkündürsə, həmin obyekt piyada əlçatan məsafədə hesab olunur.**

**Adalet.az xəbər verir ki, bu yanaşmanı metro stansiyalarına tətbiq etsək, mövcud və dövlət proqramına əsasən tikilməsi nəzərdə tutulan stansiyaların ətrafında 800 metrlik radius müəyyən edə bilərik.**

**Beləliklə, hər bir stansiyanın ətrafında formalaşan piyada əlçatanlıq zonası xəritədəki kimi görünür.**

**Amma burada yalnız məsafə kifayət deyil. Səkilərin vəziyyəti, piyada keçidlərinin təhlükəsizliyi, panduslar, küçə bağlantıları və digər infrastruktur elementləri də nəzərə alınmalıdır.**

**Çünki xəritədə 800 metr kimi görünən məsafə real həyatda piyada üçün həmişə 800 metr olmaya bilər.**

# İxracatı genişləndirmək potensialımız böyükdür

**”Neft-qaz ixracından sonra bu dəfə Azərbaycanın 2026-cı ilin ilk 7 ayının nəticələrində qeyri-neft ixracında baş verənlərə baxaq.Dərin təhlildə narahatedici məqam, ilk baxışda isə yaxşı rəqəmlər var.2025-ci ilin yanvar-iyul aylarında qeyri-neft ixracı 2,09 mlrd. dollar olmuşdusa, 2026-cı ilin eyni dövründə 5,93 mlrd. dollara çatıb. Yəni qeyri-neft ixracı bir il ərzində 184 % artıb”.**

Adalet.az xəbər verir ki, bunu iqtisadçı Eldəniz Əmirov deyib.

İqtisadçı bildirib ki, ümumi ixracda qeyri-neft sektorunun payı da 13,7 %-dən 30,7 %-ə yüksəlib:

”Amma bu rəqəmləri Azərbaycanın qeyri-neft istehsalının və ixrac potensialının 3 dəfəyə yaxın artması kimi qəbul etmək ciddi yanlışlıq olardı. Çünki 5,93 mlrd. dollarlıq qeyri-neft ixracının strukturuna baxanda tamamilə fərqli mənzərə ortaya çıxır. Əsas səbəbkar qızıl effektidir. 2026-cı ilin ilk 7 ayında Azərbaycan 3,71 mlrd. dollar dəyərində qızıl ixrac edib. Təkcə qızıl bütün qeyri-neft ixracının 62,49 %-ni, ölkənin ümumi ixracının isə 19,18 %-ni təşkil edib. Burada daha maraqlı məqam satışın vaxtıdır. 2026-cı ilin ilk 3 ayında Azərbaycanın bütün qeyri-neft ixracı cəmi 862 mln. dollar idi. Aprelin sonunda isə bu göstərici birdən-birə 4,70 mlrd. dollara yüksəlib. Çünki əvvəlki illərdə alınmış qızıl aprel ayında böyük həcmdə satılıb və ilk 4 ayın sonunda qızıl ixracı artıq 3,60 mlrd. dollara çatıb.Yəni ilk 7 ayda satılmış 3,71 mlrd. dollarlıq qızılın təxminən 97 %-i artıq aprelin sonunda satılmışdı”.

Onun sözlərinə görə, dünya bazarında qızılın yüksək qiymətlərindən istifadə edərək belə böyük həcmdə qızıl satılması strateji baxımdan ağıllı və iqtisadi baxımdan doğru addımdır:

”Əlverişli bazar konyunkturasında aktivin realizə edilməsi investisiya idarəçiliyi baxımından rasional qərardır. Eyni zamanda, belə əməliyyatlar ölkənin maliyyə aktivlərinin səmərəli idarə olunması, valyuta daxilolmalarının artırılması və ümumi maliyyə mövqeyinin gücləndirilməsi baxımından da müsbət qiymətləndirilməlidir.Amma bunun qeyri-neft ixracının real vəziyyətinin qiymətləndirilməsində yaratdığı statistik effekti də görmək lazımdır. 5,93 mlrd. dollarlıq qeyri-neft ixracından qızılı çıxanda cəmi 2,23 mlrd. dollar qalır. Yəni qeyri-neft ixracında görünən nəhəng artımın əsas mənbəyi ənənəvi qeyri-neft istehsalının geniŞlənməsi deyil, böyük həcmdə qızıl satışıdır.Bu fərq büdcə və maliyyə siyasəti baxımından da əhəmiyyətlidir. Çünki birdəfəlik və ya dövri xarakter daşıyan yüksək həcmli aktiv satışından yaranan valyuta daxilolması ilə davamlı istehsal və ixrac hesabına



formalaşan gəlirlərin iqtisadi və fiskal dayanıqlılığa təsiri eyni deyil. Amma məsələ bununla da bitmir. Qeyri-neft ixracının qalan hissəsinin də hamısını iqtisadiyyatın real diversifikasiyasının nəticəsi hesab etmək olmaz. Çünki rəsmi olaraq qeyri-neft ixracına daxil edilən məhsulların əhəmiyyətli bir hissəsi yenə təbii resurslara və ilkin emala söykənir. Məsələn, 2026-cı ilin ilk 7 ayında 203 mln. dollarlıq plastmas və ondan hazırlanan məmulatlar, 184 mln. dollarlıq kimya sənayesi məhsulları ixrac edilib. Bunun 55 mln. dolları metanol, 88 mln. dolları azot gübrəsidir. Bunlar neftqaz və neft-kimya bazası ilə birbaşa bağlı məhsullardır. Maraqlıdır ki, bu istiqamətdə artım da müşahidə olunmur. Kimya sənayesi məhsullarının ixracı 2025-ci ilin 194 mln. dollardan 2026-cı ildə 184 mln. dollara, plastmas və ondan hazırlanan məmulatların ixracı isə 222 mln. dollardan 203 mln. dollara düşüb.Digər təbii resurslara əsaslanan ixracda isə fərqli dinamika var. Alüminium ixracı 119 mln. dollardan 165 mln. dollara yüksəlib. Bu məhsulların ixracı və emalı iqtisadiyyat üçün əhəmiyyətlidir və əlavə dəyər yaradır, amma qeyri-neft ixracının strukturunu qiymətləndirərkən onların da təbii resurs bazasına söykəndiyini nəzərə almaq lazımdır.Real sektor baxımından müsbət dinamika göstərən sahələr də var. Tərəvəz və meyvə ixracı 506 mln. dollardan 589 mln. dollara, pambıq lifi 110 mln. dollardan 137 mln. dollara, pambıq iplik isə 17 mln. dollardan 31 mln. dollara yüksəlib.Bu artımların davamlı xarakter alması qeyri-neft sektorundan formalaşan gəlir bazasının genişlənməsi və nəticə etibarilə dövlət maliyyəsinin və büdcə gəlirlərinin uzunmüddətli dayanıqlılığı baxımından da əhəmiyyətlidir”.

E.Əmirovun fikrincə bütün bunlardan çıxan nəticə odur ki, qeyri-neft ixracının 2,09 mlrd. dollardan 5,93 mlrd. dollara yüksəlməsi çox yaxşı statistik göstəricidir:

”Amma bu artımın iqtisadi mahiyyətini qiymətləndirərkən onun strukturunu və artımı formalaşdıran əsas amilləri də ayrıca nəzərə almaq vacibdir. Əvvəlcə qızıl effektini, sonra neft-kimya və digər resurs əsaslı məhsulları ayırmaq, yalnız bundan sonra ölkənin real qeyri-resurs ixracının hansı sürətlə böyüdüyünə baxmaq lazımdır. Azərbaycanın qarşıdakı illərdə qeyri-neft ixracını daha da genişləndirmək, büdcənin gəlir bazasını şaxələndirmək və maliyyə dayanıqlılığını gücləndirmək üçün böyük potensialı var. Bu perspektivdə uğurların daha dayanıqlı olması üçün bugünkü müsbət göstəricilərlə yanaşı, rəqəmlərin arxasında dayanan real iqtisdi proseslərin də düzgün təhlil edilməsi vacibdir. Çünki bu günki düzgün statistik-iqtisadi təhlil növbəti mərhələdə daha sağlam iqtisadi, maliyyə və büdcə qərarlarının qəbul edilməsi üçün əsasdır”.

**Vasif ƏLİHÜSEYN**

# «Əsas hərbi güclər genişmiqyaslı münaqişəyə hazırlaşırlar»

**”NATO-nun Rusiya ilə mümkün hərbi münaqişə üçün hazırladığı ətraflı fəaliyyət planı ”NATO-nun Quru Qoşunları Döyüş Konsepsiyası” adlanır. Onun birinci mərhələsində Rusiyanın hava, raket və pilotsuz uçuş aparatı (PUA) imkanlarının zərərsizləşdirilməsi prioritet təşkil edir və xüsusi diqqət Kalininqrad bölgəsindəki hədəflərə yönəldilir. Bundan əlavə, robot və PUA sistemlərindən istifadə etməklə Rusiya və Belarusla sərhədlər boyunca ”muxtar zona” yaratmaq planlaşdırılır”.**

Adalet.az xəbər verir ki, bunu hərbi ekspert Ədalət Verdiyev deyib.

O, bildirib ki, növbəti mərhələ Rusiya ərazisindəki hərbi logistika infrastrukturuna zərbələr endirilməsini nəzərdə tutur:



”Bu mərhələnin hədəflər siyahısına aerodromlar, hərbi istehsalat obyektləri, körpülər və dəmir yolu stansiyaları daxildir. Rusiyanın NATO planına cavab addımlarını nəzərdə tutan fəaliyyət planı işə daha əvvəldən mövcuddur. Təbii ki, bu plan mövcud reallıqları nəzərə alaraq müəyyən dəyişiklikləri nəzərdə tuta bilər. Kremlin indiki vəziyyətdə birbaşa müdaxilə ilə ikinci cəbhə açması real görünmür. Amma NATO üçün vəziyyət daha əlverişlidir”.

Hərbi ekspert bildirib ki, Rusiya hazırda Ukrayna cəbhəsində böyük resurslar cəlb edib, silah arsenalı kifayət qədər zəifləyib:

”Müharibələrin genişlənməsi Rusiyanın şəxsi heyət çatışmazlığı problemini daha da kəskin vəziyyətə gətirə bilər. Bu isə Kremlin səfərbərlik elan etməsi ilə nəticələnə bilər. Odur ki, Rusiya ilə mümkün hərbi münaqişə üçün hazırlanan ”NATO-nun Quru Qoşunları Döyüş Konsepsiyası” yalnız Ukrayna müharibəsi ilə paralel olaraq tətbiq olunarsa, ilkin mərhələdə gözlənilən nəticəni verə bilər. Rusiyanın strateji məğlubiyyətə məruz qalması isə dünyanın ikinci dəfə, amma daha dəhşətli nüvə silahından qarşılıqlı istifadə ilə qarşı qarşıya qalmasına səbəb ola bilər.İstənilən variantda isə yaxın illərdə dünyada sabitlik gözlənilmir. Əksinə müharibə və münaqişələrin sayı artacaq, miqyası da genişlənəcək”.

**Sübhan**

Rüstəm Hacıyev



# Ermənistan Rusiyadan "boşanır"

*Uzun illərdi Ermənistanın təhlükəsizlik məsələləri Rusiyanın üzərinə düşürdü. Ölkənin sərhədlərinə və Zvartnos hava limanına rus sərhədçiləri nəzarət edirdi. Bundan başqa Gümrüdə Rusiyanın 102- ci hərbi bazası yerləşir və Yerevan kollektiv təhlükəsizlik müqaviləsi təşkilatının aktiv iştirakçısı idi.*

*Ermənistan suveren respublika statusundan daha çox Rusiyanın for-postu statusunu daşıyırdı. Stokolmun dünya problemlərinin araşdırmaları institutunun məlumatlarına görə, ölkənin müdafiə potensialının 94 faizi Rusiyanın çiyninə düşürdü.*

*2020- ci ildə Azərbaycan 30 ilə yaxın bir vaxta Ermənistan-Rusiya hərbi birləşmələri tərəfindən işğal altlnda saxlanılan torpaqlarını 44 gün ərzində işğaldan azad etdikdən sonra, məğlubiyyətin səbəblərini Moskvada axtaran Ermənistan, necə deyərlər Rusiyadan "boşanmaq" qərarına gəlib.*

*Artıq özünə yeni "arxa-dayaq" axtaran Yerevan, Rusiyanın rəhbərlik etdiyi KTMT-də fəaliyyətini dondurub, Türkiyə ilə sərhədlər istisna olunmaqla, Zvartnos hava limanına və İranla sərhədlərinə ermənilər özləri nəzarət edirlər. Bu illər ərzində Rusiyadan alınan silah-sursatın miqdarı 10 faiz azalıb.*

*Beləliklə, özünə yeni "arxa-dayaq" axtaran Ermənistan, bu yaxınlarda Pakistanla başladığı 3-4 günlük müharibədə ağ bayraq qaldıraraq təslim olan Hindistanın üzərində dayandı. Artıq Yerevan "təhlükəsuzliyinin qorunmasını heç özünü qorumağı bacarmayan Hindistana həvalə etmək istəyir."*

*Əsasən, lisenziya ilə Rusiya silahlarının istehsalı ilə məşğul olan Hindistanın müdafiə naziri Radjeş Kumar Sinqx Yerevana rəsmi səfərə gəlib. O, erməni həmkarı Suren Papikyanla görüşüb, daha sonra isə baş qərəgahın rəisi Edvard Aspyanla ilə hərbi sanaye məsələrini müzakirə edib.*

*Verilən məlumatlara görə, Hindistan tərəfi gələcəkdə logistika marşurutlarını da, Ermənistan üzərindən aparmaqla "Şimal-Cənub" dəhlizinin açılmasını istəyir. Bu marşurut guya, Rusiya və İranla, eyni zamanda Cənubi Asiya ilə əlaqələr qurulmasına kömək edəcək. Hindistan hesab edir ki, marşurut xətdində əsas rolu Ermənistan oynayacaq. Lakin, Ermənistanın Rusiya ilə birbaşa sərhədləri olmadan bunu necə edəcəkləri sual doğurur...*

*Rusiyalı hərbi ekspert Anatoli Matviyçuk hesab edir ki, Hindistan Ermənistanda Rusiyanı əvəz edə bilməz. Əvvala Hindistanın lisenziya ilə istehsal etdiyi Rusiya silahlarının keyfiyyəti aşağıdır. İkincisi də, Yeni-Dehlinin bir çox hərbi sistemlərində çatışmamazlıqlar var.*

*"Ermənistan hakimiyyəti hazırda maksimum dərəcədə Rusiyadan aralanmağa cəhd edir. Ona görə də özünə kənarda yeni tərəfdaşlar axtarır. Lakin bunun heç bir mənasl yoxdur. Çünki, Moskva ilə əlaqələri tamamilə kəsmək, Yerevanı çətin vəziyyətə salar"- deyə hərbi ekspert bildirib.*

*Ermənistan isə, yeni "xozeyn" axtarışlarını davam etdirir.*

# “Kredit bazarına təcili olaraq dövlətin müdaxiləsi olmasa...”

**”Ölkədə kredit mühiti bərbaddır və bunu hamımız bilirik.İnsanların sosial rifahı da aşağıdır, bu da öz yerində. Gəlirlər artmır, iqtisadiyyat kiçilir, vətəndaş sosial xərclər altında əzilir. Belə olanda da çıxış yolu kimi insanlar istehlak krediti götürməyə başlayır. İnsanlarımız kütləvi halda borclanır. Rəsmi statistikaya görə, 2026-cı il 1 iyun tarixinə problemli kreditlər 635,4 milyon manat olub və son 1 ildə artım təxminən 25%-ə yüksəlib.Artım davam edir.Vətəndaşlar kredit ala bilmədikdə, adı qara siyahıda olduğuna görə, alternativ kredit əldə etmə üsulları axtarır. Xüsusilə də girov təminatlı kreditlər əldə etmək istəyir”.**

Adalet.az xəbər verir ki, bunu iqtisadçı ekspert Razi Abasbəyli deyib.

İqtisadçı lombard kreditləri sahəsində vəziyyətin daha ağır olduğunu bildirib:

”Lakin son zamanlar kütləvi olaraq yayılan başqa bir girov təminatlı kredit təklifi formalaşıb. Avtomobilini girov qoyaraq kredit əldə etmək. Reklamlar bütün sosial şəbəkələrdə yayılıb. Reklam çarxlarında belə deyilir: ”Nömrə dəyişmir, avtomobil sizdə qalır, 10 dəqiqəyə rəsmiləşdirmə”. Heç bir hüquqi əsası olmayan, heç bir bank və bank olmayan kredit təşkilatı deyil. Sadəcə VÖEN olan bir adam. Kredit təklif edir. Bu gün müraciət etdim. Avtomobilimi təklif etdim. 5000 manat vəsait lazımdır dedim. 18 aylıq qaytara bilərəm dedim. Aldığım cavabdan sadəcə şok oldum. 18 ay aylıq 495 manat geri ödəyəcəm. Yekunda mən 8910 manat həmin şəxsə ödəyirəm. Cəmi 18 aya. 5000 manata 3910 manat əlavə faiz. Bu isə nominal illik təxminən 83%, effektiv illik isə təxminən 124% faiz deməkdir. Lombardlaran sonra belə sistem qurub əlacsız insanların son ümidi olan əmlakını da talayırlar. Kredit bazarına təcili olaraq dövlətin müdaxiləsi olmasa, milyonlarla insan müflis olacaq. Və proses çox sürətlə böhrana doğru gedir”.

**Vasif**

# "Yaxın Şərqdəki mövcud gərginlik..."

**"İsrail, Yunanıstan və Kipr (Yunan) Respublikası aralarındakı ittifaqı gücləndirir, müxtəlif ortaq layihələr reallaşdırmağa çalışırlar. Məlumdur ki, ABŞ-da yəhudi və yunan lobbiləri güclüdür və onlar Konqresə təsir edərək adı çəkilən ölkələr arasındakı ittifaqın dəstəklənməsini təmin etməyə çalışırlar. Hazırda 3 ölkə arasında elektrik şəbəkələrini birləşdirən "Great Sea Interconnector" (GSI) layihəsi mövcuddur".**



Adalet.az xəbər verir ki, bunu politoloq Elxan Şahinoğlu deyib.

O, bildirib ki, ABŞ qanunvericiləri layihəni elektrik bağlantısı kimi görürlər:

"Onlar bunu regional dayanıqlığı gücləndirə və Avropa, Yaxın Şərq və Hindistan arasında daha sıx iqtisadi əlaqələri dəstəkləyə biləcək daha geniş strateji şəbəkənin bir hissəsi kimi təqdim edirlər. Mövcud layihənin dəstəklənməsi təşəbbüsünə İllinoys ştatından konqresmen Bred Şnayder və Florida ştatından olan konqresmen Qas Bilirakis rəhbərlik edib. Onların rəhbərliyi altında bir qrup amerikalı konqresmen Vaşinqtonun həmin layihəni dəstəkləməsini istəyiblər. Konqresmenlərin çağırışı ilk növbədə dövlət katibi Marko Rubioya və ABŞ Beynəlxalq İnkişaf Maliyyə Korporasiyasının İcraçı direktoru Ben Blekə ünvanlanıb. Çağırışı imzalayan konqresmenlər hesab edirlər ki, layihə ABŞ-nin maraqlarına cavab verir. Konqresmenlər Vaşinqtonun bu layihəni dəstəkləməsiylə ABŞ-nin Şərqi Aralıq dənizindəki maraqlarının güclənəcəyini iddia ediblər. Konqresmenlər ayrıca, məktubda Hindistandan başlanan Yaxın Şərqi və Avropanı əhatə edən dəhlizin (IMEC) ABŞ strateji maraqlarına cavab verdiyini vurğulayıblar. Konqresmenlərin məktubunda bu layihə bölgədə sabitliyə və rifaha xidmət edəcəyi bildirilib. Onlar hesab edirlər ki, "Great Sea Interconnector" şəbəkəsi IMEC layihəsinin reallaşmasında əsas rol oynayacaq. Konqresmenlər layihəyə dəstəyin vacibliyini belə əsaslandırıblar ki, elektrik şəbəkəsi Kirp (Yunan) Respbulikasının Avropanın elektrik sisteminə qoşulmasına şərait yaradacaq, İsrailin elektrik təchizatı təhlükəsizliyini gücləndirəcək və Avropa ilə Şərqi Aralıq dənizi arasında etibarlı, təmiz və ikitərəfli elektrik axını üçün platforma yaradacaq. Layihəyə Fransa da dəstək verib. Fransa şirkətləri layihənin reallaşmasına maraq göstərir, yatırım imkanlarını öyrənirlər".

E.Şahinoğlu deyib ki, onqresmenlərin məktubunda maraqlı məqam da var:

"Onlar Tramp administrasiyasından layihənin tamamlanmasına təsir göstərə biləcək geosiyasi çətinliklər barədə məxfi məlumat tələb ediblər. Bu o deməkdir ki, konqresmenlər layihənin reallaşmasına mane olan geosiyasi amillərin varlığını qəbul edirlər. Bölgə ölkələrinin bir qrupu IMEC layihəsinə müsbət yanaşmır. Digər tərəfdən Yaxın Şərqdəki mövcud gərginlik layihənin reallaşması yolunda ən böyük əngəldir".

**Vasif**

# İsrail üçün çətin geosiyasi vəziyyət yarana bilər"

**"İsrailin baş naziri Benyamin Netanyahunun ABŞ-ın Qəzzada münaqişənin nizamlanması ilə bağlı sülh planını rədd etməsi onunla Ağ Ev sahibi Donald Tramp arasında münasibətlərdə gərginlik yaradıb. Netahyahu Vaşinqtonun planını o halda icra etməyə hazırdır ki, HƏMAS tamamilə tərksilah olunsun. Netanyahu bu baş verməyənə qədər İsrail hərbçilərinin anklavdan çıxmayacağını bəyan edib. Netanyahunun bu israrı Vaşonqtonu çətin vəziyyətə salıb. Tramp administrasiyası 15 bənddən ibarət sülh planını hazırlanmasına xeyli vaxt sərf edib və İsrailin sənədi rədd etməsi Vaşinqtonun əziyyətinin üstündən xətt çəkməsi deməkdir. Hazırda İsrail və ABŞ rəsmiləri ilə danışıqlar davam edir".**



Adalet.az xəbər verir ki, bunu politoloq Elxan Şahinoğlu deyib.

Politoloq bildirib ki, Donald Tramp xüsusi nümayəndəsi və kürəkəni Cared Kuşneri İsrailə göndərərək Benyamin Netanyahunu yola gətirməyi planlaşdırır:

"Ancaq Netanyahu Qəzzayla bağlı plana razı olsaydı, bunu elə bir müddət əvvəl Vaşinqtona səfəri və Donald Trampla görüşü zamanı elan edərdi. Netanyahu güzəştə hazır deyil. İsrailin baş naziri nə Qəzza, nə də Fələstinin dövlət olaraq tanınması məsələsində geri addım atacaq. Buna baxmayaraq, Vaşinqtonun irəli sürdüyü planı rədd etməsi Benyamin Netanyahunu çətin vəziyyətə salıb. ABŞ İsrailin əsas strateji müttəfiqidir və Vaşinqtonun narazılığı İsrail üçün çətin geosiyasi vəziyyət yarada bilər".

Onun sözlərinə görə, İsrail Türkiyə-Səudiyyə Ərəbistanı-Pakistan üçlü ittifaqının elanını özü üçün təhdid kimi qəbul edib:

"Həqiqətən, bu üç dövlət İsraili siyasətini qəbul etməyərək Fələstin dövlətinin formalaşdırılmasını dəstəkləyirlər. Vaşinqton üçlü ittifaqın formalaşdırılmasına reaksiya bildirmədi. ABŞ-nin üçlü ittifaqda yer alan hər dövlətlə əməkdaşlığı mövcuddur. Vaşinqtonda hesab edirlər ki, üçlü ittifaq ABŞ-nin bölgədəki əsas düşməni İranı ram etməyə çalışacaq. Ancaq üçlü ittifaq İranla yanaşı İsrailin siyasətini də qəbul etmir. Bu üçlü ittifaq elan edildikdən sonra Pakistan rəsmiləri açıq etiraf ediblər. Pakistanın müdafiə naziri müsəlman ölkələri üçlü ittifaqa daxil olmağa və İsrailə qarşı mübarizəni gücləndirməyə çağırıb. Bu hal Vaşinqtonu narahat etmir.İsrail bu mürəkkəb vəziyyətdə azsaylı tərəfdaşlarla dialoqu genişləndirməyə çalışır. İsrailin baş naziri Benyamin Netanyahunun bir müddət əvvəl Hindistanın baş naziri Narendra Modi ilə telefon danışığı buna sübutdur. Telefon danışığı zamanı Hindistan və İsrail arasında xüsusi strateji tərəfdaşlığın müxtəlif istiqamətlər üzrə inkişafı müzakirə edilib. Modi bildirib ki, telefon danışığı zamanı iki ölkə arasında xüsusi strateji tərəfdaşlığın müxtəlif aspektlərinin inkişafının müzakirəsiylə yanaşı Yaxın Şərqdəki cari vəziyyət barədə də fikir mübadiləsi aparıblar. Tərəflər əlaqələri davam etdirmək barədə razılığa gəliblər. Maraqlıdır ki, Türkiyə-Səudiyyə Ərəbistanı-Pakistan üçlü ittifaqının elanı Netanyahunun Modi ilə telefon danışığı gününə təsadüf edib".

**Sübhan**

# Beyində övlad sevgisini formalaşdıran neyron zənciri aşkarlandı

**Otaqo Universitetinin alimləri siçanlar üzərində aparılan tədqiqatda analarda balalarına qarşı maraq və onlarla təmasdan həzz alma hissini formalaşdıran neyron zəncirini tapıblar.**

Adalet.az xəbər verir ki, tədqiqatın nəticələri "Science Advances" jurnalında dərc olunub. Məlum olub ki, prolaktin hormonu balanın qoxusunu qəbul edərkən beynin həzz sistemində dofamin ifrazını tətikləyir. Süni şəkildə bu mexanizm aktivləşdirildikdə balalamamış siçanlar belə balalara can atıb, siqnal bloklandıqda isə yeni anaların balaları ilə vaxt keçirmək həvəsi kəskin azalıb.



**Alimlər bildirirlər ki, bu kəşf doğuşdan sonrakı emosional pozuntuları anlamağa kömək edəcək və bəzi analarda emosional bağın zəifləməsinin şəxsi səhv deyil, beyindəki neyron zəncirinin düzgün işləməməsindən qaynaqlandığını göstərir.**

## *Tibbi müdaxilənin arzuolunmaz nəticəsi hər zaman həkim səhvi hesab edilirmi?*

**Səhiyyə sahəsində yaranan mübahisələrdə cəmiyyətdə adətən xəstənin səhhətində arzuolunmaz nəticə baş verdikdə bunun avtomatik olaraq həkim səhvi olduğu düşünülür. Halbuki tibbi müdaxilənin arzuolunmaz nəticə ilə yekunlaşması hər zaman həkimin hüquqi məsuliyyəti demək deyil.**

Bu barədə Adalet.az-a Ali Məhkəmədən məlumat verilib.

Bildirilib ki, həkimin məsuliyyəti ilk növbədə tibbi müdaxilənin mövcud tibbi göstərişlərə uyğun aparılıb-aparılmaması, diaqnozun düzgün müəyyən edilməsi, müalicə taktikasının tibbi standartlara cavab verməsi və müdaxilənin peşəkar qaydada icra olunması əsasında qiymətləndirilməlidir:

"Təkcə xəstədə sonradan müəyyən fəsadların meydana çıxması həkimin təqsirini təsdiq etmir.

Yəni tibbi mübahisələrdə məhkəmə yalnız nəticəyə deyil, həmin nəticəyə aparan prosesin düzgün icra olunub-olunmadığına qiymət verir. Əgər həkim diaqnozu mövcud müayinələrə əsasən düzgün müəyyən etmiş, müalicə üsulunu düzgün seçmiş, əməliyyatı tibbi standartlara uyğun icra etmişdirsə, arzuolunmaz nəticənin baş verməsi özü-özlüyündə həkimin hüquqi məsuliyyət daşıdığını göstərmir".

Ali Məhkəmənin Plenumunun "Şəxsiyyət hüquqlarının müdafiəsi haqqında" qərarında qeyd olunubdur ki, bütün prosedurlar tibb elminin ümumi qəbul olunan sübutlu təbabət prinsiplərinə uyğun xüsusi diqqət və lazımi tədbirlər çərçivəsində həyata keçirildiyi halda, vurulmuş zərərə görə məsuliyyət istisna edilir:

"Bu mənada həkimin tibbi standartlar çərçivəsində hərəkət edərək lazımi diqqət və qayğı göstərməsinə baxmayaraq, ortaya çıxan arzuolunmayan nəticədən qanuni olaraq məsuliyyət daşımayacağı qəbul edilir. Nəzərə alınmalıdır ki, tibbi mübahisələrdə ən mühüm sübutlar məhz tibbi sənədlərdir. Tibb müəssisəsi fəaliyyətinin qanuna, göstərdiyi tibbi xidmətlərin klinik protokollara uyğun olmasını sübut etməlidir.

Buna görə xəstənin şikayətləri, aparılan müayinələr, diaqnoz, əməliyyatın səbəbləri, əməliyyat protokolları və pasiyentin məlumatlandırılması və razılığının alınması tam və düzgün sənədləşdirilməlidir. Sənədləşmədə boşluqlar olduqda, hətta tibbi müdaxilə düzgün aparılmış olsa belə, bu vəziyyət sonradan sübutetmə baxımından ciddi çətinliklər yarada bilər".

Ali Məhkəmənin məlumatında qeyd edilib ki, xüsusilə xəstəyə əməliyyat barədə lazımi məlumatın verilməsi və razılığının alınması proseduru formal sənəd imzalatmaqdan ibarət olmamalıdır:

"Pasiyentə planlaşdırılan əməliyyatın məqsədi, mümkün risklər, ağırlaşmalar və gözlənilən nəticələr sadə və anlaşılan şəkildə izah edilməli, bu proses lazımi qaydada sənədləşdirilməlidir. Bu yanaşma həm pasiyentin hüquqlarının qorunmasına, həm də sonradan yarana biləcək mübahisələrin qarşısının alınmasına xidmət edir.

Beləliklə, tibbi xidmət sahəsində hüquqi risklərin azaldılması üçün həm həkimlər, həm də xəstəxanalar fəaliyyətlərini yalnız keyfiyyətli tibbi xidmətlə məhdudlaşdırmamalı, hüquqi baxımdan da düzgün təşkil etməlidirlər".

## *Bəxtiyar Məmmədov: "Bunu bir sınaq dövrü kimi qəbul edirik"*

**Bakı Metropoliteninin xətlərinin ayrılması layihəsi çərçivəsində "28 May" və "Nizami" stansiyaları arasında qatarların hərəkətinin tam məhdudlaşdırılması ilə əlaqədar sərnişinlərin daşınmasının təmin olunması üçün 6 ekspres və 20 müntəzəm avtobus marşrutu müəyyənləşdirilib.**

Adalet.az xəbər verir ki. bu barədə AZƏRTAC-a açıqlamasında "Bakı Metropoliteni" QSC-nin mətbuat xidmətinin rəhbəri Bəxtiyar Məmmədov bildirib.

O qeyd edib ki, bu proses 11 ay davam edəcək və həmin müddətdə sərnişinlərin məlumatlandırılması, avtobus marşrutlarının təşkili və sərnişin tələbatının ödənilməsi istiqamətində tədbirlər davam etdiriləcək.

"Əlavə avtobusların ayrılması ilə intervalların tənzimlənməsi və artacaq sərnişin tələbatının ödənilməsi istiqamətində tədbirlər həyata keçiriləcək. Bu məqamda da Bakı Metropoliteni və Azərbaycan Yerüstü Nəqliyyat Agentliyi monitorinqlərini davamlı olaraq həyata keçirəcək. Yeni tədris mövsümünün başlanmasına gəlincə, bunu bir sınaq dövrü kimi qəbul edirik", - deyə B. Məmmədov qeyd edib.

O bildirib ki, sərnişinlərin yeni hərəkət sxeminə uyğunlaşması üçün Bakı Metropoliteni tərəfindən stansiyaların girişlərində əlavə məlumatlandırma tədbirləri həyata keçirilir.

"Nizami metro stansiyanın girişində Bakı Metropoliteninin könüllüləri sərnişinlərə yaxınlaşaraq onları məlumatlandırırlar, avtobus marşrutları barədə məlumatları təqdim edirlər.

Eyni zamanda, Bakı Metropoliteni işçiləri də müxtəlif stansiyalarda əlavə məlumatlandırma tədbiri kimi işə cəlb olunublar və onlar da sərnişinlərin tam məlumatlı olması, Bakı Metropoliteni stansiyasından və yaxud da ekspres avtobuslardan necə istifadə etməsi barədə məlumatları təqdim edirlər", - deyə QSC-nin rəsmisi diqqətə çatdırıb.

# Şuşa və Xankəndidə yeni arxeoloji abidələr aşkarlanıb

**Şuşa və Xankəndidə Azərbaycan tarixi ilə bağlı yeni arxeoloji abidələr aşkarlanıb.**

Adalet.az xəbər verir ki, bu barədə apa-ya açıqlamasında Azərbaycan Milli Elmlər Akademiyasının Arxeologiya və Antropologiya İnstitutunun Çöl Tədqiqatlarının Monitorinqi və Qiymətləndirilməsi şöbəsinin müdiri, tarix üzrə fəlsəfə doktoru, dosent Təvəkkül Əliyev məlumat verib.



"Ötən ay biz Şuşa və Xankəndidə kəşfiyyat xarakterli araşdırmalar apardıq. Şəhər ərazisi ayrı-ayrı sektorlara bölünərək nəzərdən keçirildi. Çoxsaylı yeni yaşayış binalarının özüllərinin kəsikləri yoxlanıldı. Eyni zamanda, şəhərdəki tarixi qəbiristanlıqların, o cümlədən çox geniş ərazini əhatə edən "Mirzə Həsən" qəbiristanlığının yayılma arealı, dövrü, vəziyyəti ilə bağlı məlumatlar toplandı. Kəşfiyyat zamanı Şuşada 19-cu əsrin əvvəllərinə aid 4 və 8 güşəli 2 türbə aşkar olundu. Bu türbələrin və onların ətrafındakı qəbirlərin 19-cu əsrin 20-30-cu illərinə aid olduğunu müəyyən etdik. Güman edirik ki, həmin türbələrin bərpası tezliklə həyata keçiriləcək və şəhər qonaqlarının, turistlərin istifadəsinə veriləcək", - Təvəkkül Əliyev bildirib.

Onun sözlərinə görə, kəşfiyyat zamanı Şuşada əldə olunan əsas yeniliklərdən biri Şuşanın şimal şərq hissəsində Hacıqluluların malikanəsindən və qoşa bürclərdən aşağıda geniş ərazini əhatə edən orta əsr yaşayış yerinin qeydə alınması olub: "Yaxın vaxtlarda oraya xüsusi ekspedisiyanın göndərilməsi planlaşdırılıb. Şuşanın ətrafında da bir sıra abidələr aşkar olunub. Məsələn, Şuşakənd tərəfdən baxanda Qarqarçayın üzərində bir aşırımlı daş körpü aşkarlanıb. Daşaltı kəndində isə kəndi su ilə təmin edən su kəmərinin bir hissəsi aşkarlanıb. Hazırda Şuşa şəhər Dövlət Qoruğunun ərazisində geniş quruculuq, tikinti işləri aparılır. Buna görə də şəhərdə arxeoloji kəşfiyyat işlərinin davam etdirilməsi təbiidir. Onu da qeyd edim ki, ötən ay aparılan ekspedisiya zamanı Xankəndi şəhəri və onun ətrafında, xüsusilə Kərkicahan kəndi istiqamətində araşdırmalar aparılıb, bir necə qədim kurqanların yeri müəyyən edilib. Hazırda isə biz Ağdamın Şahbulaq kəndində kəşfiyyat işləri aparırıq". Şöbə müdiri qeyd edib ki, arxeoloji qazıntılar yay aylarında aparılır: "Bu yay Şuşa və Xankəndi ilə yanaşı, Füzuli rayonunda Yedditəpə kurqanlarında, Zəngilanda Şərifan orta əsr şəhər yerində, Azıx və Tağlar mağaralarında qazıntı işləri aparılıb".

# Politoloq: «Rusiya məsələni bitirmək niyyətində deyil...»

**"Son günlər beynəlxalq mətbuatda Rusiya-Ukrayna arasında 5 ilə yaxındır davam edən müharibənin dayanacağı ilə bağlı fikirlər daha çox yer alsa da, tərəflərin açıqlamaları və atdıqları addımlar prosesin hələ uzun müddət dayanmayacağına işarə edir. Hər nə qədər müharibə tərəfləri arasında həm canlı qüvvə, həm də silah-sursat və hərbi texnika baxımından ciddi itkilər olsa da, təbii ki, bu müharibədə maraqlı olan tərəflər mövcud status-kvodan məmnunluğunu hiss etdirməkdədir".**

Adalet.az xəbər verir ki, bunu politoloq Samir Hümbətov deyib.

Onun sözlərinə görə, digər tərəfdən əsas iddialardan biri də tərəflərin artıq ciddi itkilər qarşısında geri çəkilmək istəyinin ortaya çıxmasıdır ki, bu da atılan addımlar və verilən bəyanatlarla öz təsdiqini tapa bilmir:

"The Kivy Independent məlumat paylaşıb ki, Ukrayna Prezidenti Volodimir Zelenski



12 avqust 2026-cı ildə Ukrayna Gənclər Forumunda çıxışı zamanı bildirib ki, Ukrayna və tərəfdaşlarının Putini müharibəni dayandırmağa məcbur etmək planı var."Biz nə etməli olduğumuzu bilirik. Bu, tərəfdaşlarımızla birlikdə hazırladığımız və ona necə təzyiq göstərəcəyimizi müəyyən edən plandır". Ukrayna prezidenti Volodimir Zelenskinin çıxışından iki gün sonra, yəni 14 avqust 2026-cı ildə Rusiya XİN başçısı Sergey Lavrov açıqlamasında bildirib ki, "Əgər indi təmas xəttində qəfil dayansaydıq, nasizmi məğlub edən babalarımızın və ulu babalarımızın qəhrəmanlığının silinməsinə icazə verərdik. Mən həmçinin "dirçəldilmiş nasizmə qarşı mübarizədə Şimal-Şərq Hərbi Dairəsinin cəbhələrində canlarını fəda edən atalarımızı, qardaşlarımızı və övladlarımızı" da əlavə edərdim. Bunu nəzərə almaq mümkün deyil. Və bu, kiminsə həyatının nə qədər rahat olması ilə bağlı deyil. Bu, Rusiya dövlətinin min illik tarixi üçün məsuliyyətimizlə bağlıdır". Politoloq bildirib ki, təmas xəttində münaqişə dondurulmayacaq:

"Qərbə Ukraynaya zaman qazandırmaq üçün daha bir nəfəslik verməyəcəyik".Lavrovun Vesti verdiyi açıqlamada sərt ritorika ilə "Atəşkəs olmayacaq. Rusiya zərbələrin sərtliyini daha da artıracaq" ifadəsi Rusiyanın qəti mövqeyini ortaya qoyur. Bu açıqlaması aydın şəkildə göstərir ki, Rusiya məsələni bitirmək niyyətin deyil. Üstəlik tarixi varislik və siyasi ambisiyalar Rusiyanı dayanmağa imkan vermir. Hər iki tərəfin açıqlamasında gəlinən əsas nəticə ondan ibarətdir ki, tərəflər müharibəni dayandırmaq istəmirlər. Bunun isə iki səbəbi ola bilər. Birinci səbəb daxili siyasi, sosial-iqtisadi və digər amillər. İkincisi isə beynəlxalq vəziyyətlə bağlıdır. Yəni, üçüncü tərəflər müxtəlif imkanlardan istifadə etməklə müharibəni davam etdirmək, beləliklə də hər iki tərəfə öz maraqlarını qəbul etdirmək istəyirlər".

**Vasif ƏLİHÜSEYN**

# Epidemiya görünməmiş sürətlə yayılır

**"Açıq deməliyik ki, epidemiya hələ də nəzarət altında deyil. Böyük bir üstünlüklə başladı və biz hələ də onun qarşısını almağa çalışırıq".**

Adalet.az xəbər verir ki, bunu Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) baş direktoru Tedros Adhanom Qebreyesus Ebola virusunun Bundibuqyo variantı ilə bağlı Beynəlxalq Səhiyyə Qaydaları üzrə Fövqəladə Komitənin iclasında çıxışında deyib. O, Konqo Demokratik Respublikasında (KDR) yayılan Ebola epidemiyasının görünməmiş sürətlə genişləndiyini açıqlayıb.

Qebreyesus bildirib ki, epidemiya əvvəlki Ebola epidemiyalarından daha sürətlə yayılır və həm milli, həm də beynəlxalq miqyasda yayılma riski yüksək olaraq qalır.

ÜST rəhbərinin sözlərinə görə, hazırda KDR-nin 6 əyalətində və 55 səhiyyə rayonunda təxminən 5 min nəfər yoluxub, 2300-dən çox insan isə həyatını itirib.

Qebreyesus epidemiyanın yayılmasında təhlükəsizlik problemləri, əhalinin məcburi köçü, yollar, çaylar və mədən marşrutları boyunca intensiv hərəkətin mühüm rol oynadığını bildirib.

O, Ebola epidemiyasının indiyədək qeydə alınan ən böyük yayılmalardan biri olduğunu və əvvəlki epidemiyalarla müqayisədə daha sürətli irəlilədiyini vurğulayıb.

Qebreyesus bildirib ki, risk yalnız KDR ilə məhdudlaşmır. Onun sözlərinə görə, Uqandada ilk yoluxma hadisəsindən sonra virusun yayılması dayandırılıb, lakin ötən ay bir səyahətçi virusu Fransaya aparıb. Təşkilat KDR hökuməti, Afrika Xəstəliklərə Nəzarət və Profilaktika Mərkəzləri və digər tərəfdaşlarla birlikdə epidemiyanın qarşısının alınması istiqamətində fəaliyyətini genişləndirir. Qebreyesus Bundibuqyo virusuna qarşı hazırlanmış iki peyvəndin ilk dəfə insanlar üzərində klinik sınaqlara daxil edildiyini açıqlayıb. Bundan əlavə, başqa bir peyvəndin heyvanlar üzərində aparılan tədqiqatlarda çarpaz qoruyucu təsir göstərdiyi və onun 3-cü mərhələ klinik sınaqlarına hazırlanıldığı bildirilib. ÜST-ün dəstəklədiyi PARTNERS müalicə sınağına isə hazırda 100 xəstənin cəlb edildiyi açıqlanıb. Qebreyesus epidemiyanın qarşısının alınması üçün daha sürətli məlumat mübadiləsi, gücləndirilmiş epidemioloji nəzarət, davamlı maliyyələşmə, təhlükəsiz giriş imkanları və sərhədyanı koordinasiyanın vacib olduğunu qeyd edib.

Qeyd edək ki, Ebola virusu ağır hemorragik qızdırmaya səbəb ola bilir. Virus ilk dəfə 1976-cı ildə eyni vaxtda indiki Cənubi Sudanın Nzara şəhərində və Konqo Demokratik Respublikasının Yambuku kəndində qeydə alınıb. Virus adını Konqo Demokratik Respublikasında epidemiyanın baş verdiyi əraziyə yaxın yerləşən Ebola çayından alıb. 2013-2016-cı illərdə Qvineya, Liberiya və Syerra-Leonedə baş verən Ebola epidemiyası xəstəliyin ən ağır yayılmalarından biri olub. Həmin dövrdə 30 mindən çox insanın yoluxduğu, 11 mindən çox insanın isə öldüyü bildirilir.

Konqo Demokratik Respublikasında hazırkı epidemiyada yayılan Bundibuqyo variantı ilə bağlı isə səhiyyə orqanlarının məlumatına görə, hazırda xüsusi təsdiqlənmiş müalicə və ya peyvənd mövcud deyil.

*İqbal AĞAZADƏ*

# Xalq hansı quldura, oğruya mahnı qoşub, onu yaddaşlarda yaşadıb?



**Azərbaycanda qaçaqçılıq hərəkatı IX əsrin 60-70 ci illərində vüsət alıb.**

**Əsas səbəb isə Çar Rusiyasının əsassız vergi, müstəmləkə siyasəti, idarəetmədəki qanunsuzluqlar və onlara züy tutan yerli bəylərin kəndlilərə zülm etməsi olub ( Bunu mütəxəssislər daha geniş və əhatəli izah edə bilərlər).**

**Qaçaq Nəbi bu hərəkatın ən parlaq nümayəndələrindən biri, külli Qarabağda, Naxçıvan və Arazboyu ərazilərdə (o taylı, bu taylı) əzilən xalqın ümid yeri olub.**

**Nəbi quldur yox, xalq qəhrəmanı olub.**

**Onu sovet hökuməti və sistemi deyil, xalq yaddaşlarında yaşadıb.**

**Hələ 1912-15 ci illərdə Məşədi Məmmədin ifasında "Qaçaq Nəbi " mahnısı lentə alınıb, o cümlədən, Tiflisdə çıxan "Tatar Xalqının 40 melodiyası" valında da bu xalq mahnısı yer alıb.**

**İndi sadə sual yaranır:**

**Xalq hansı quldura, oğruya mahnı qoşub, onu yaddaşlarda yaşadıb?**

**Şəninə mahnı qoşulan, şeir yazılan, musiqi bəstələnən - həm də yüz illər yaddaşlarda yaşayan, ötəri bir bəstə olmayan - neçə qəhrəmanımız var ki?**

**Nəbini bu hərəkatda ən çox müşayət edən, onunla çiyin-çiyinə döyüşən xanımı Həcər olub.**

**Həcər də Nəbi kimi eyni dərəcədə ağız ədəbiyyatının qəhrəmanına çevrilib, bu gün də yaddaşlarda yaşayır, nümunə kimi gələcək nəsillərə göstərilir.**

**Nəbi və Həcər mifik qəhrəmanlar deyillər, onların doğum və ölüm tarixləri bəllidir. Qəbirləri Qubadlı torpağındadır. (Qaçaq Nəbi 1854-1996, Həcər 1860-1914)**

**Həcər Nəbinin ölümündən bir neçə il sonra onun qohumu Həmzəyə ərə getmiş, başqa həyat yoldaşı olmamışdır.**

**Bunları qısaca ona görə yazdım ki, bilgilərimizi yeniləyim. Yazının məqsədi isə bu deyil.**

**Son dövrlər Şah İsmayıl kimi hökmdarımız, Cavanşir, Babək, Koroğlu, Nəbi kimi mifik və real qəhrəmanlarımız mübahisə və müzakirə predmetinə çevrilib. Olsun, hər kəs mübahisələndirilə,**

**fəaliyyəti barədə fikir bildirilə, tədqiq oluna bilər.**

**Lakin birinə faşist, birinə oğru, digərinə qarınqulu kimi təhqiramiz ifadələrlə qiymət vermək kimsəyə yaraşmaz.**

**Koroğlunun yeddi qazan aş, bir cöngə yeməyindəki bənzətmə və böyüdülmənin ədəbi və mifik çalarını görməyərək, onun real olduğunu dartışmaq və ya ordan qiymət vermək hansı məntiqə sığır?**

**Və ya dindəki məzhəbçiliyə görə Şah İsmayıla "faşist" demək nəyin ölçüsüdür?**

**Nəbini oğru və quldur kimi dəyərləndirmək, Həcər haqqında hədyanlar demək isə heç bir əndazəyə sığmır. Ən azı yaxın tarix, arxiv, sənədlər, tayfa, qohum və şahidlər var.**

**Nəbi və Həcər Azərbaycan tarixində Çar Rusiyasının müstəmləkə zülmünə qarşı yerli etirazçıların ilk qaranquşları olublar. Bu gün Rusiyanın işğalçılıq siyasətindən danışanların əlifbasının ilk hərfi Nəbi və Həcərdir.**

**Qeyrəti, mübarizəsi, yolu və mücadiləsi ilə Nəbi və Həcər Azərbaycanın xalq qəhrəmanlarıdır...**

# *Müharibəni tənqid etdi, işdən çıxarıldı*

**Rusiyanın dövlət inkişaf bankı VEB-nin baş iqtisadçısı Andrey Klepaçın işdən çıxarıldığı bildirilir.**



Adalet.az xəbər verir ki, Klepaç əvvəllər çıxışında

Ukraynadakı müharibənin Rusiya iqtisadiyyatına zərər verdiyini və ölkəni texnoloji və iqtisadi rəqabətdə geridə qoyduğunu bildirmişdi. Rusiyanın dövlət inkişaf bankı VEB-də baş iqtisadçı vəzifəsində çalışmış Andrey Klepaç bundan sonra işdən çıxarılıb.

Rusiyanın dövlət xəbər agentliyi TASS-ın məlumatına görə, VEB Klepaçın artıq baş iqtisadçı vəzifəsində işləmədiyini açıqlayıb. Bank bildirib ki, onun yerinə başqa bir şəxs seçilib və tezliklə elan ediləcək.

**Vasif**

## Berlin Senatına kiberhücum



**Berlin Senatının şəbəkə hesablarına kiberhücum edilib.**

Adalet.az xəbər verir ki, bu barədə DPA məlumat yayıb.

Məlumata görə, hücum şəhərsalma, tikinti və mənzil məsələləri üzrə idarə, eləcə də mobillik, nəqliyyat, ətraf mühit və iqlimin mühafizəsi üzrə idarənin şəbəkələrinə qarşı baş verib.

Bildirilib ki, kiberhücumun digər dövlət qurumlarına yayılmasının qarşısını almaq üçün sözügedən idarələr hökumət şəbəkəsindən ayrılıb.

Hadisə ilə bağlı araşdırmaya Berlin Cinayət Polisi, Berlin Prokurorluğu və Almaniyanın İnformasiya Təhlükəsizliyi üzrə Federal İdarəsi (BSI) cəlb olunub.

Bununla yanaşı, hadisənin araşdırılması üçün böhran qərargahı yaradılıb.

Kiberhücum nəticəsində hər hansı məlumatın sızıb-sızmadığı hələlik məlum deyil.

## Süni intellekt nəzarətdən çıxır

**”Anthropic” ilə süni intellekt yarışını davam etdirən ”OpenAI” təhlükəsizlik narahatlıqları fonunda bəzi tədqiqat və model təlim proseslərini dayandıraraq sistemlərini yeniləməyə hazırlaşır.**

Adalet.az xəbər verir ki, şirkətin bu qərarına sınaq mərhələsində olan süni intellekt agentinin ötən ay "Hugging Face" platformasına kiberhücum həyata keçirməsi səbəb olub.

Hadisə ”OpenAI” tədqiqatçılarını narahat edib və şirkət təhlükəsizlik tədbirlərinin sərtləşdirilməsinə qərar verib. ”OpenAI” yeni tədbirlər çərçivəsində model sınaqlarını iki həftəlik dayandırdığını açıqlayıb. Şirkət həmçinin sınaq mərhələsində olan süni intellekt agentlərinin fəaliyyətinə nəzarət etmək üçün digər süni intellekt sistemlərinə daha çox investisiya qoyacağını bildirib. Bununla yanaşı, planlaşdırılan ən böyük model təlimlərindən bəzilərinin də təxirə salındığı qeyd olunub.

Şirkətin təhlükəsizlik qrupunun rəhbəri Mia Qleez vəziyyətin tezliklə əvvəlki rejimə qayıtmayacağını vurğulayıb: "İşlərin normal vəziyyətə qayıtmasından çox uzağıq". ”OpenAI”nin baş direktoru Sem Altman şirkətin süni intellekt modellərinin insan nəzarətinə tabe olmasını və verilən təlimatlara uyğun davranmasını təmin etmək üçün daha ciddi tədbirlər gördüyünü bildirib.

Altmanın sözlərinə görə, bundan sonra modellərin bütün təlim prosesi boyunca təhlükəsiz və uyğun davrandığını daha güclü şəkildə sübut etmək tələb olunacaq. O, getdikcə mürəkkəbləşən süni intellekt sistemlərinə nəzarətin yalnız ”OpenAI”nin deyil, bütün sənayenin qarşısında duran əsas problemlərdən biri olduğunu qeyd edib.

Şirkətin açıqlamasına görə, yaxın zamanda istifadəyə verilməsi gözlənilən ”Astra” modelinin inkişafı zamanı ”kritik kibertəhlükəsizlik həddi”nə yaxınlaşılmış ola bilər.

”OpenAI” ”Astra”nın xüsusilə avtonom kodlaşdırma və kibertəhlükəsizlik imkanlarında ciddi irəliləyiş göstərdiyini bildirir. Məhz buna görə model üzərində ən sərt təhlükəsizlik tədbirlərinin tətbiq edildiyi vurğulanır.

Yeni təhlükəsizlik standartları tam təmin olunana qədər ”Astra” və digər layihələrlə bağlı bir sıra proseslərin dayandırılacağı gözlənilir.

## İndiki 150 bal, əvvəlki “2” deməkdir

**İndi müxtəlif ali təhsil müəssisələrinə qəbul olmaq, bizim vaxtımızla müqayisədə çox asandır. Belə ki, indi Dövlət İmtahan Mərkəzinin ali məktəblərə qəbul üzrə keçirdiyi imtahanlarda 150 bal və ondan da aşağı bal toplayan abituriyentlər bir çox ali məktəblərə asanlıqla qəbul ola bilir.**

Əgər bizim vaxtımızda 90 məzundan 3-4- ü ali təhsil ocaqlarına qəbul olunurdusa, indi 90 məzundan 80-i ali məktəblərə , 10-u isə orta ixtisas və peşə təhsili məktəblərinə qəbul olur! Burada pis heç nə yoxdur. Pis odur ki, həmin tələbələrin əksəriyyəti ali məktəbləri qurtarandan sonra iş tapa bilmirlər.

Peşə məktəblərini deyə bilmərik , çünki bu gün bir çox peşələrə ölkəmizdə böyük ehtiyac



var! Rəngsaz , dülgər, bərbər, maşın ustasına, santexnikə demək olar ki,bu gün kifayət qədər iş yerləri var. Özü də yüksək maaşla ha! Bəs ,onda nə üçün gənclərimiz peşə təhsilindən çox ali məktəblərə üz tuturlar? Bax bu suala birmənalı cavab vermək mümkün deyil.Çünki əksər gənclər” prestij” xatirinə bu təhsil ocaqlarında oxumağa üstünlük verirlər.

Tay fikirləşmirlər ki, həmin məktəbi bitirəndən sonra çoxu işsiz qalacaq! Ona görə də gənclərimiz bu barədə ciddi düşünməlidir.Gənclikdə səhv etmək olar. Amma peşə, sənət seçməkdə səhv etmək sonradan insana baha başa gəlir!!!

## Bakıda bir sakitlik var...

**Bunu bir neçə gün əvvəl bir dostum dedi. Rayondan qayıdırdıq, axşamüstü idi. Dedim ki, şəhərdə çox güman ki, tıxac olar.Dostum dilləndi ki, müəllim, ağlın qabakı vaxtlara getməsin ! İndi əksər insanlar rayonlara və xaricə istirahətə yollanıb. Doğrudan da , paytaxta çatanda dostumun dediklərinin şahidi oldum.**



Gördüm ki, Bakıda əvvəlki tıxaclardan əsər-əlamət belə qalmayıb. Sözün düzü buna çox sevindim! Sevindim ki, Bakıda bir müddət sakitlik olacaq və tıxac olmayacaq! Elə belə də oldu . Çox güman ki, sentyabrın 14- ə kimi belə bir sakit şəhər görəcəyik! Sentyabr 15- dən isə biz yenə haylı- küylü və tıxaclı şəhər görəcəyik! Bir sözlə, Bakının tıxaclı günləri də olur, tıxacsız günkəri də !

## İxtisas seçimi başa çatdı

**Avqustun 13-dən abituriyentlərin imtahanların nəticələrinə görə, müxtəlif ali məktəblərə ixtisas seçimi başlayır. Bu mərhələ çox ciddi və dəqiq bir məqamdır.**

Gərək hər abituriyent son dərəcə diqqətli və məsuliyyətli olsun ki, ixtisas seçimində səhv yol verməsin ! Daha doğrusu, topladığı bala uyğun seçim etməlidir ki, istədiyi ali məktəbə qəbul ola bilsin! Təhsil üzrə ekspert Fuad Məhərrəmov deyir ki, bu, elə bir andır ki, seçim edərkən yanlışıqlığa yol vermək olmaz. Əgər abituriyentlər istəyir ki, dövlət ali məktəbin pulsuz təhsilinə düşsün. Bunun üçün ilk növbədə o gənc yüksək nəticə əldə etməlidir. Yoxsa aşa-




ğı balla pulsuz təhsili düşmək mümkün deyil. Başqa bir məsələsə, ondan ibarətdir ki, ixtisas seçərkən təcrübəli təhsil işçilərinin köməyindən istifadə olunmalıdır. Çünki peşəkar təhsil işçiləri, təhsil ekspertləri çox yaxşı bilir ki, hansı balla abituriyent hansı ali məktəbə düsə bilər. Bəzən təcrübəsiz təhsil işçinin səhv üzündən ixtisas seçimində abituriyent müsabiqədən keçə bilmir və nəticədə qəbuldan kənarda qalır! Ona görə də, bu vəziyyətin yaranmaması üçün abituriyentlər daha peşəkar təhsil işçilərinin köməyindən istifadə etməlidir. Bir faktı da qeyd edək ki, ixtisas seçimi zamanı təhsil ekspertləri 150- 200 manat pul istəyirlər. Hələ bundan da çox pul tələb edən təhsil işçiləri də var!

Bir sözlə, hər bir abituriyentə ixtisas seçimində kömək lazımdır. Amma bu da gərək 150- 200 manat civarında olmasın. Elə müəllim var ki, bu seçim zamanı 50- 100 manat arasında pul istəyir. Bax bu, daha ədalətli bir addımdır. Çünki bu məbləği ödəməy hər bir abituriyentin maddi imkanı çatır!!!

## Sayğaclar vaxtında oxunmur



**Bir il bundan qabaq Yeni Günəşli yaşayış sahəsinin 13 nömrəli binasında mütəmadi olaraq qaz, su, işıq sayğacları hər ayın əvvəlində nəzarətçilər tərəfindən yoxlanır və abonentlər borcları barədə qəbz yazılır və onların mənzillərinin qapısına qoyulurdu. Amma xeyli vaxtdır ki, bu əməliyyatlar ya keçirilmir, ya da gec keçirilir. Yeganə su xidmətdir ki, onlar hər ayın əvvəllərində , daha doğrusu, 1-3 arasında sayğacları oxuyur, borcu yazır və abonentlərə çatdırlar.**

Çox təəssüf ki , bu sözləri qaz və işıq idarələri haqqında demək mümkün deyil.Bir də görürsən ki, həmin xidmət sahəsinin əməkdaşları gəldilər və üç- dörd ayın borcun birdən yazdılar. Həmin borc da çox olduğu üçün bəzi hallarda abonentlər o pulu verə bilmir,ləngidir və çıxıs yolu axtarırlar . Çıxış yolu da tapa bilməyəndə həmin xidmət sahələri borclu abonentlərin işığını , qazını kəsirlər. Bu isə böyük narazılığa və narahatlığa səbəb olur! Bununla yanaşı, işıq, qaz idarələri onlara işlətmədikləri enerjinin pulunu yazırlar!Bu barədə aidiyyəti qurumla əlaqə yaratdıq .

Onların sözçüsü bildirdi ki, heç bir abonentə işlətmədiyi enerjinin pulu yazıla bilməz! Çünki sayğcın üzərində hansı rəqəm yazılırsa, onu da nəzarətçilərimiz oxuyur, olan borcu yazıb abonentlərə çatdırırlarlar! Amma görünən odur ki, Bakının bir çox yaşayış sahələrində işıq və qaz nəzarətçiləri , abonentlərin dediyinə görə, rəqəmlər şişirdilir və onlar işlətmədikləri enerji pulu yazılır! Hər halda , bu məsələlər aidiyyəti qurumlar tərəfindən daha ətraflı araşdırılmalı və çıxış yolu tapılmalıdır!

## Velosipedçini avtomobil vurdu...

**Son vaxtlar Bakıda və bölgələrdə velosipedçilərin vurulması ilə bağlı xəbərləri teztez eşidirik. Eşidirik ki, filan magistral yolda velosiped hər hansı nəqliyyat vasitəsilə toqquşub. Təbii ki, bu qəzalar zamanı ən çox ziyan görən tərəf velosipedçilər olur. Onlar bu hadisələr vaxtı ya həlak olur, ya da ağır dərəcəli bədən xəsarətləri alırlar.**

Bu gün Bakıda və magistral yollarda ən çox yol hərəkətini pozanlardan biri də elə məhz velosipedçilərdir. Aydındır ki, bu zaman ağır qəzalar qaçılmaz olur! Velosipedçilər bir çox halda qanunları pozur , bu aydındır. Amma aydın olmayan odur ki, avtomobil sürücüləri sanki həmin anlarda velosipedçini görmür və onun üstündən keçir! İntellektual İdarəetmə Mərkəzinin yaydığı görüntülərdə biz belə hadisələrin şahidi oluruq.

Bakıda velosiped avtomobilin qarşısına çıxır, sanki sürücü bunu görmür və velosipedçinin üstündən keçir. Heç şübhəsiz ki, həmin ha-



disə zamanı velosipedçı qəza nəticəsində ölür! Bəs , avtobil sürücüsü hadisə zamanı niyə təhlükəsizlik tədbirləri görmür. Görünür onun başı ya mobil telefona qarışır, ya da sükan arxasında yatır! Bir mənalı olaraq deyə bilərik ki, avtomobil sürücüsü bu hadisə zamanı məsuliyyət daşıyır.

Hava limanına gedən yolda piyada qanunu pozub , nəqliyyat vasitələrinin intensiv hərəkət etdiyi yerdən keçir. Bir neçə yol zolağın keçəndən sonra sonuncu zolağı keçmək istəyəndə sürətlə hərəkət edən avtomobil onu vuraraq öldürür.

Hansı ki, piyada il avtomobil arasında xeyli məsafə olur. Sadəcə olaraq sürücü ya sükan arxasında yatıb, ya da mobil telefonla danışır. Ümumiyyətlə, belə qəzalarda hər iki tərəf məsuliyyət daşıyır!

## Dənizə çimməyə getməyin...

**İnsanlar dənizə , çaya , gölə gedirlər ki, isti günlərdə sərinləsinlər və dincəlsinlər. Amma biz çox vaxt bunun əksini görürük. Nə görürük? Görürük ki, ailəsi ilə kiməsə , dənizə gedir və çimir , nəzarətsiz sahədə olduğu üçün suda boğularaq ölür. Hələ ölkəmizdə builki kimi dənizdə, çayda , göldə boğulan çox insan olamayıb.**

Fövqəladə Hallar Nazirliyi verdiyi məlumata görə, bu mövsün suda 47 nəfər çimərkən suda boğularaq ölüb. 67 nəfəri isə nazirliyin əməkdaşları xilas ediblər. Bir faktı da xatırladaq ki, dənizdə boğulanların çoxu nəzarət olunmayan



yerlərdə çimərkən ölüblər.Burdan belə bir məntiqi nəticə çıxır ki, bir çox insanlar dənizlə.zarafat edir, üzə bilmədikləri halda dərinliyə baş vururlar. Bu da bir çox halda ölümlə nəticələnir!

Təəssüf ki, əksər insanlar bunu anlamaq , başa düşmək istəmirlər. Belə insanların bəzələri dənizə istirahətə gedir, amma səhlənkarlıq edirlər .Sonda yeyib- içdikləri burunlarından tökülür. Ona görə də heç dənizə getmək lazım deyil!!!

**Emil FAİQOĞLU**



# Ölkəmizi gözəlləşdirək və gözəlliyi qoruyaq!

**Bu, bizim yeni layihəmizdir. Düşündük ki, ölkəmizdə gedən möhtəşəm böyük abadlıq, tikinti, quruculuq işlərini bu layihə adı altında dünyaya, cəmiyyətimizə çatdıraq! Qoy dünya və cəmiyyət bilsin ki, böyük müharibədən çıxmış, 20 faiz torpağını erməni işğalından azad edərək ərazi bütövlüyümüzü tamamilə bərpa etmiş ölkəmizdə hansı möhtəşəm işlər görülür...**

Zarafat deyil ey, 44 günlük İkinci Qarabağ savaşında həm yağı düşmən üzərində qalib gələsən, həm də ölkənin bütün regionlarında dünyaya səs salan belə quruculuq işləri



görəsən! Bu işlərə hələ Ulu Öndər Heydər Əliyev xalqın tələbi ilə ikinci dəfə hakimiyyətə gələndən sonra başlanılmışdı. Belə ki, Ulu Öndər rayonlara səfər edir, orda insanlarla, ictimaiyyətlə görüşür, onlarla səmimi söhbətlər edir və mövcud problemlərlə elə yerindəcə tanış olurdu. Təbii ki, regionların sosial-iqtisadi problemləri daim Ulu Öndər Heydər Əliyevin diqqət mərkəzində olurdu.

Məhz Ümummilli Liderin qayğısı və rəhbərliyi altında qısa zaman kəsiyində ölkəmizdə böyük quruculuq işlərinə start verildi. Və bütün rayonlarımızda möhtəşəm abadlıq işləri görüldü, regionlarımız tanınmaz dərəcədə dəyişdi və gözəlləşdi.

Ulu Öndərin bu xətti prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildi və bu gün də işlər daha geniş vüsət alıb. Həm işğaldan azad olunmuş rayonlarda, həm digər regionlarda, həm də Bakıda abadlıq işləri uğurla davam edir. Bu gün Bakı dünyanın ən gözəl şəhərlərindəndir. Hər dəfə xarici ölkələrdən qayıdanda bir daha mən Bakının gözəlliyinə heyran qalıram. Deyirəm, İlahi, belə gözəl şəhəri bizə bəxş etdiyin üçün min şükür! Bakıda möhtəşəm abadlıq işləri gedən rayonlardan biri də Suraxanı rayonudur.

Burda son illər bir-birindən gözəl sosial obyektlər, xəstəxanalar, məktəblər, uşaq bağçaları, idman kompleksləri, parklar, xiyabanlar salınıb. Rayonda Heydər Əliyev parkının öz gözəlliyi, öz füsunkarlığı var... "Neftçilər", eləcə də digər parklar və xiyabanlar göz oxşayır...



Adil Əliyev Suraxanı rayonunun icra hakimiyyətinin başçısı təyin ediləndən sonra burda abadlıq, tikinti, quruculuq işləri daha geniş vüsət alıb. Belə ki, rayon ərazisində Adil Əliyevin köməkliyi və rəhbərliyi ilə yeni parklar, xiyabanlar, abad məhlələr salınıb. İndi isə Yeni Günəşlidə "Ana-bala" abidəsinin yanında iki hektara yaxın sahədə möhtəşəm park inşa edilir. Allah qoysa, həmin park 2027-ci ilin iyul ayının 1-də istifadəyə veriləcək. İndi həmin yerdə sürətli inşaat işləri həyata keçirilir, maşın və texnikalar hər gün işləyir...

İcra başçısı Adil Əliyev rayonun müxtəlif qəsəbələrinin sakinləri ilə tez-tez səyyar görüşlər keçirir, prezidentə, dövlətə, xalqa sədaqətlə xidmət edir. Bir sıra saytlar və informasiya vasitələri isə onun gördüyü işə kölgə salmaq istəyir, şər-böhtan yazır. Amma xalqın gözü tərəzidir. Və Suraxanı rayonunun sakinləri çox gözəl bilirlər ki, Adil müəllim onların problemlərini həll edərək insanları sevindirir. Səyyar görüşlər zamanı qaldırılan problemlər operativ şəkildə həll edilir. Bu gün Suraxanı rayonunun Hövsan qəsəbəsində möhtəşəm bir futbol stadionu inşa edilir. Burda 15 yaşında uşaqların Futbol üzrə Dünya Çempionatı keçiriləcək.

Heç şübhəsiz ki, bu tikinti cənab prezident İlham Əliyevin xüsusi nəzarətindədir! Çünki ölkəmiz dəfələrlə idmanın müxtəlif növləri üzrə Dünya Çempionatlarına ev sahibliyi edib və bu, növbəti möhtəşəm addımdır. Bəli, şəhərimizdə, eləcə də Suraxanı rayonunda çoxlu sayda parklar, xiyabanlar, yaşıllıqlar zolağı, güllər, çiçəklər var. Onları yaratmaq nə qədər böyük zəhmət, əmək tələb edirsə, bu füsunkarlığı, gözəlliyi qorumaq da bir o qədər əmək, diqqət tələb edir. Bu barədə Suraxanı rayonu Mənzil Kommunal Təsərrüfatı Birliyinin rəisi Mais Məmmədovla çox səmimi söhbətimiz oldu. Onu da xatırladaq ki, Mais müəllim dövlətə, prezidentə, xalqa son dərəcə sədaqətlə xidmət edib və edir, uzun müddətdir ki, bu sahədə çalışır. Başqa sözlə demiş olsaq, öz işini çox gözəl bilir. Mais Məmmədov dedi ki, Adil Əliyev rayona icra başçısı təyin ediləndən sonra abadlıq, tikinti və quruculuq işlərinə daha çox diqqət yetirilir. Cənab başçının keçirdiyi görüşlərdə mən də bir vəzifəli şəxs kim iştirak edirəm. Hörmətli başçımızın da bizdən tələbi odur ki, rayonumuzun bütün ərazilərini təmiz saxlayaq, prospektlərimiz, küçələrimiz səliqəli olsun, parklarımız, xiyabanlarımız göz oxşasın. Son vaxtlar Yeni Günəşlidə bir neçə park, xiyaban salınıb, abad məhlələr inşa edilib. Əksər yerlərdə bunlar rənglənib, həyətlərdə idman qurğuları quraşdırılıb, səliqə-sahman yaradılıb. Bunlar hamısı çox gözəldir. Amma təəssüf ki, bəzi hallarda həmin parklarda, xiyabanlarda sakinlər ağacların budaqlarını qırır, gülləri, çiçəkləri əzir, yaşıl otların üstündə gəzir, əllərindəki məişət tullantılarını zibil qutusuna deyil, yaşıllıqların içinə atırlar. Hələ mən siqaret kötüklərini, tumların qabığını demirəm. Elə adamlara da irad tutanda deyirlər ki, sən kimsən? Ona görə də bu məsələdə bir ictimai qınaq da lazımdır. O gözəllikləri təkcə biz kommunal işçiləri qoruya bilmərik, bu işdə bizə bütün insanlar kömək etməlidir. Bax, siz gəlib bu işlərlə maraqlanırsınız, çox sağolun. Bizim vəzifəmiz ərazimizdə bütün sahələrə xidmət göstərmək, səliqə-sahman yaratmaq, yaşıllıqları sulamaq, məişət tullantılarını vaxtında daşımaqdır. İnsanlar maarifləndirilməlidir ki, gözəllikləri qoruya bilək. Elə adam var ki, aparılan məişət tullantılarının pulunu vermək istəmir, ancaq bizdən çox şey tələb edir. Bax ona görə də əhalinin maarifləndirilməsi işində televiziyaların, medianın üzərinə






böyük məsuliyyət düşür. Televiziyalarda bütün günü özünü reklam edən həkimləri və müğənniləri göstərirlər. Mən onların heç birinə baxmıram da! Ondansa beş dəqiqə parkların, xiyabanların, həyətlərin təmiz saxlanılması ilə bağlı bir süjet göstərilsə, bu daha yaxşı olar. Belə təbliğat olarsa, insanların dünya görüşünə müsbət təsir edər, bəzi adamlar parklarda yaşıllıqları məhv etməz və məişət tullantılarını hara gəldi atmaz! Əgər biz şəhərimizi təmiz, səliqəli, gözəl görmək istəyiriksə, hamılıqla bu işdə yaxından iştirak etməliyik!!

**FAİQ QİSMƏTOĞLU**

# Yeni sistemin yaradılması nə vəd edir?

**"Azərbaycan Prezidenti "Dövlət auditi" informasiya sisteminin yaradılması haqqında Fərman imzalayıb. Sənədə əsasən, Azərbaycanda yeni elektron sistem- "Dövlət auditi" informasiya sisteminin (DAİS) yaradılacaq. DAİS rəqəmsal texnologiyalardan istifadə yolu ilə maliyyə sənədlərinin və məlumatların elektron mübadiləsini nəzərdə tutur. Yeni sistemin yaradılmasında əsas məqsəd elektron kənar auditdən istifadə və dövlət vəsaitlərindən istifadə şəffaflığın daha da artırılmasıdır".**

Adalet.az xəbər verir ki, bunu millət vəkili Vüqar Bayramov deyib.

Onun sözlərinə görə, beynəlxalq qurumların və xüsusən də Ali Audit Orqanlarının Beynəlxalq Təşkilatının (İNTOSAİ) əsas tövsiyyələrindən biri də informasiya texnologiyası auditinin aparılmasıdır:

"Bir sıra maliyyə məlumatlarının elektronlaşmaması və inteqrasiya olunmaması Hesablama Palatası tərəfindən bu audit növündən istifadə edilməsinə imkan vermirdi. Halbuki, İNTOSAİ da peşəkar inkişafda ənənəvi hüquqi, iqtisadi və mühasibat bilikləri çərçivəsindən kənara çıxmanı və elektron məlumatların emalını birmənalı şəkildə qeyd edir".

V.Bayramov yeni sistemin yaradılması nə vəd etdiyini belə izah edib: "DAİS birmənalı şəkildə dövlət vəsaitlərindən daha səmərəli istifadəni hədəfləyir. Bu Azərbaycanda informasiya texnologiyası auditinin tətbiqinə imkan verəcək. 2025-ci ildə Hesablama Palatası tərəfindən həyata keçirilən 48 fəaliyyətin (43




audit və 5 analtik fəaliyyət) 75 faizində büdcə qanunvericiliyinin pozulması hallarına rast gəlinib. Eynilə, büdcə vəsaitlərinin idarəedilməsi üzrə nöqsanların aşkar edildiyi fəaliyyətlərin sayı 75 faizdir. Keçirilən auditlərin 74 faizindən çoxunda dövlət satınalmaları ilə bağlı hüquqi aktların tələblərinin pozulmasına rast gəlinib. Bunun əsas səbəblərindən biri də inteqrasiya edilmiş elektron maliyyə sisteminin tam formalaşmamasıdır. Yeni sistemin yaradılması kənar maliyyə nəzarətini gücləndirəcək və bu da dövlət vəsaitlərindən istifadədə şəffaflığı artıracaq.Hesablama Palatasının rəyinə görə, Azərbaycanda dövlət satınalmalarının 51 faizindən çoxunda ehtimal olunan məbləğlə qalib şirkətin təklif etdiyi qiymət arasındakı fərq 20 faizi ötüb. Bu isə dövlət vəsaitlərinin səmərəli istifadəsi və şəffaflıq baxımından mühüm məsələ kimi qiymətləndirilir. Bu dövlət satınalamlarının inteqrasiya edilmiş elektronlaşdırılmasını və süni intelektdən istifadəni daha da aktuallaşdırır.Yeni audit sisteminin formalaşması dövlət vəsaitlərinin istifadəsi səmərəliliyinin gücləndirilməsində yeni mərhələ kimi qiymətləndirilir. Bu daha şəffaf və hesabatlı dövlət maliyyə sisteminin yaradılması deməkdir".

**VASİF ƏLİHÜSEYN**



Əbülfət MƏDƏTOĞLU
madatoglua@mail.ru

# Vaxtsız yarpaq tökümünə ağı

## "OL!"-dan "ÖL!"-ə izlənilməyən marafon

Qəribədir, biz görmüşdük, eşitmişdik ki, yarpaq tökümü payızda olur. Və bu görüb eşitdiyimizə də söykənib həmişə payızı bir az nisgilli, bir az xəzəl qoxulu yaşamışıq. Elə bilmişik ki, tapdanan xəzəllərin altında ömrün müəyyən anları da, müəyyən xatirələri də, hətta elə bir parçası da əzilir, xışlanır və qarışır torpağa. Amma sən demə, təbiət hadisəsini biz fantaziyamızla, təxəyyülümüzlə, hətta biraz şairliyimizlə ömrümüzə uyğunlaşdırmışıq. Yəni insan ömrünü, təbiət ömrü ilə, daha dəqiq ifadə etsəm, onun payız fəsli ilə paralelləşdirmişik. Elə burdaca tez-tez təkrar olunan və az qala müdrik bir kəlama çevrilən "İnanma şair sözünə yalandır" misrasını yarpaq tökümü ilə bağlı dediklərimizə tam uyğun bildim. Və bir daha anladım ki, şair sözünə inanmaq, uymaq heç də könül rahatlığı gətirmir. Bir də ona görə ki, şairlər xəyalpərvər olur! -deyirlər. Nə isə...

Artıq qorabişirənin, yəni avqustun nəfəsinin daraldığı bu günlərdə yarpaq tökümü gəldi düşdü yadıma, ömrün yarpaq tökümü... Seyrələn sıramızın, azalan dostlarımızın, kasadlaşan güvəncimizin yarpaq tökümü. Bir anlıq böyük ədəbiyyatın böyük adamı Elçin müəllimi düşündüm. Yəni Elçin Əfəndiyevi düşündüm. Ədəbiyyatda sözü, izi olan Kəraməti xatırladım. Böyük poeziya adamı Məmməd İsmayılın pıçıldadığı "Döy qapımı, ağacdələn, döy görüm!" misrasını və bütövlükdə şeirini sanki ilk dəfə dinlədim. Vicdanın susmasına etiraz edən Vidadi Babanlının müsahibələrini elə bil yenidən dinlədim. Dəyərli Vüqar Tapdığın əl boyda kitablarının yenidən kitab rəfindəki yerinə diqqət yetirdim... Hə, bunlar bir ayın yarpaq tökümünün cizgiləridi. Və o cizgiləri düşünə-düşünə rəhmətlik Fərman Kərimzadənin "Qarlı aşırım" əsərindəki qəhrəmanının, yəni Kərbəlayinin sözü yadıma düşdü. T əxminən belə deyirdi:

- Biz görmüşük ki, sel gələndə əvvəl çör-çöp gətirər, amma indi qabağa kötükləri veriblər...

Bəli, müqayisə bəlkə də doğru deyil, amma avqustun yarpaq tökümü ədəbiyyatımızın dəyərlilərini, sözümüzün ağalarını silkələdi. Təəssüf ki, bu yarpaq tökümü müəyyən adamların, xüsusilə, ədəbiyyatda olan adamların heç tükünü də tərpətmədi. Sanki dünyasını dəyişənlər onlar üçün heç bir əhəmiyyət kəsb etmirdi, sanki bu "boşalmalar" onlara meydan açırdı. Amma mən bütün varlığımla inanıram ki, dünyada, o cümlədən də ədəbi müstəvidə heç kim heç kimin yerini tutmur, heç kim heç kimin yerində oturmur. Hər kəsin öz sözü, öz yeri var!

Bax bu mənada mən kiçik dairədə, yəni ailəm, kəndim dairəsində itirdiklərimi də xatırlayıb özözümə pıçıldayıram:

*Üzüm gülmək istəyəndə qəm gülür,*
*Elə bil ki, dayanıbdı güdükdə...*
*Niyə məni hamı qəmdən dəm bilir -*
*Havamı da səsləndirir düdükdə!*

*Bilə-bilə dizlərimin təpərin,*
*Tapdamadım bir kiminsə çəpərin,*
*Mən söylədim dərməmişdən bəhərin -*
*İlk sözümü son sözüm tək gədikdə!..*

*Bu talehdi - bir də gülə, gülməyə,*
*Həsrət olsun axı kimə, gül, nəyə?*
*Nişangahdı ,ürək gələn gülləyə -*
*Sən əsdirmə barmağını tətikdə!*

Bəli, həqiqətən yaşadığım bu həyatın son 40 ili demək olar ki, ağrı-acı ilə, itkilərlə və bir də içimə axan göz yaşlarımla yadımda qalıb. Onun 30 ili vətəndə vətənsiz yaşamağımla bağlıdır. Şükürlər olsun ki, Böyük Zəfər vətənsizliyimə son qoydu. Amma içimdəki o sızıltı bir tarix kimi, bir yaddaş kimi qaldı və qalacaq. Bunun da əsas səbəbi yaddaşsızlığımıza, unutqanlığımıza etiraz olaraq qalacaq. Bizi bir daha çomağı əldən yerə qoymamağa kökləyəcək. Amma qalan sonrakı onillik isə təkcə qədərin, taleyin yox, bəzən vaxtsız əcəlin də vurduğu zərbələrin budadığı ömrün ağrılarıdır, itkiləridir.

Deyə bilərsiniz ki, söylədiklərində qeyri-adi heç nə yoxdur. Hamısı hər kəsin bildiyi, hər gün qarşılaşdığı adi hallardır. Olsun! Mən də öz gördüyüm, bildiyim kimi bunu dilə gətirməklə həm duyğularımı sizinlə bölüşürəm, həm də itirdiklərimin ruhu qarşısında baş əyirəm. Dünyanın vəfasızlığını, ömrün qısalığını bir iynə ucu işıq kimi közərdirəm. Və elə o közərən işıqda da mənim xatırladığım kimi mənim də xatırlanacağıma ümid edirəm və yazıram:



*Söykəndiyim qaya qopub, daş qopub,*
*Nəriltisi yeri, göyü titrədir...*
*Kirpiyimin ucunacan yaş hopub -*
*Anlamıram, heç bu necə fitrədir?!.*

*Bu gördüyüm bəd üzüdü həyatın,*
*Kimsə boğur sanki məni tək əllə...*
*"Baxıb gedər" pıçıldayan bayatım -*
*Sən dilimdə qırıq-qırıq kəkələ...*

*Sanki gəzir ruhum indi hər yanı,*
*Xəyalımda körpülüdü dağ, aran...*
*Çəkib gecə gözlərimə al-qanı -*
*Ya bəlkə də dan yeridi ağaran!..*

*Acısın da sıxıb içdim günlərin,*
*Bir çiçəyin, bir gözəlin adına...*
*Arasında dolaşanda güllərin*
*Bir kəpənək salar məni yadına...*

Həyatın "Ol!"dan "Öl!"ə olan məsafəsi hələ ki rekord olaraq, yəni "Qırmız kitab"a inansaq 150 ilə yaxındır. Lap olsun 200 il. Bizim hər birimiz ayrı- ayrılıqda bu məsafəni qət etmək üçün təbii qaydada marafon iştirakçısıyıq....qaçırıq... gedirik... Durma...düşmə nöqtələri öncədən məlum deyil... Ona görə də hara tələsdiyimizin fərqində də deyilik!..

Doğrudur və həm də deməli, "Öl!" qaçılmazdır. Belə olan halda biz niyə bir-birimizlə bu qədər dartışırıq? Biz niyə təəssüf hissini itirə - itirə korşaldırıq? Axı yarpaq tökümü bizim üçün də var. Vaxtlı və ya vaxtsız...

***P. S.*** *Təkcə son onillikdə hamımızın itirdiyimiz AYDINLARIMIZI göz önünə gətirəndə ...əlim ürəyimi sıxır!!!! Məmməd Araz...Bəxtiyar Vahabzadə... Fikrət Qoca... Zəlimxan Yaqyb.. Musa Yaqub.. Nəbi Xəzri...Oqtay Rza... Ramiz Məmmədzadə... İlyas Tapdıq... Nahid Hacızadə... Əlibala Hacızadə... Məmməd Dəmirçioğlu... Tofiq Abdin... Ağa Laçınlı... Fikrət Sadıq... Elçin... Nüsrət Kəsəmənli...Çingiz Əlioğlu... Həsən Kür... Mövlud... Fərqanə Mehdiyeva... Kəramət......Əlisəmid Kür...Deməyin ki, həyat DAVAM edir!!!*
*Bunu HAMI kimi mən də BİLİRƏM!!!*

## Mətbuat Şurası bəyanat yaydı




**"Rusiyanın bəzi KİV-lərində Azərbaycan dövlətinə, xalqına, ölkə rəhbərliyinə və görkəmli şəxsiyyətlərimizə qarşı nalayiq, təhdid xarakterli və təhqiramiz materiallar və fikirlər paylaşılmaqdadır. Hesab edirik ki, bu, sivil jurnalistika prinsiplərinə, etik normalara və insani dəyərlərə tamamilə ziddir. Təəssüf ki, Rusiyanın informasiya məkanında belə hallar ardıcıl şəkildə müşahidə edilir".**

Adalet.az xəbər verir ki, bu barədə Mətbuat Şurasının bəyanatında deyilir.

Mətbuat Şurası bu kimi halları Azərbaycanla Rusiya arasındakı ikitərəfli münasibətlərin ruhuna, həmçinin media əlaqələrinə tamamilə zidd hesab edir.

"Ayrıca qeyd etmək istərdik ki, Azərbaycan mediası həmişə qonşu ölkələr, o cümlədən Rusiya ilə bağlı məsələlərə həssas münasibətilə seçilib, peşə prinsiplərindən kənar fikir və iddialara yer verməyib.

Buna görə də Rusiyanın informasiya müstəvisində belə xoşagəlməz halların yaşanması Azərbaycan ictimaiyyətində dərin təəssüf və əsaslı narazılıq doğurmaqdadır", - bəyanatda bildirilib.

Azərbaycan Mətbuat Şurası baş verən halları qətiyyətlə pisləyir. Şura, eyni zamanda, Rusiyanın media ictimaiyyətinə, bütövlükdə cəmiyyətinə müraciət edərək, Azərbaycan-Rusiya media əlaqələrini, ümumən xalqlar arasında dostluq münasibətlərini pozmağa yönəlmiş hallarla bağlı ciddi tədbir görülməsinə çağırır.

Mətbuat Şurası bir daha bəyan edib ki, Azərbaycan dövlətinə, xalqına və onun görkəmli nümayəndələrinə qarşı təhqiramiz fikirlər və təhdid xarakterli iddialar yolverilməzdir.

"Rusiya informasiya məkanının sərt qanunvericilik tənzimlənməsi şəraitində belə materialların sistemli şəkildə ortaya çıxması Rusiya Federasiyasının dövlət siyasəti səviyyəsində onların təsdiqinə bərabərdir.

Mətbuat Şurası belə ifadələrə yol verən şəxslərə hüquqi məsuliyyət daşıdıqlarını bir daha xatırladır", - bəyanatda deyilir.

## Sürücüsüz avtomobillər Azərbaycana gəlir?

**Azərbaycanda müasir nəqliyyat texnologiyalarının tətbiqi ilə bağlı hüquqi çərçivə genişləndirilir. Sürücünün birbaşa müdaxiləsi olmadan, süni intellekt və müxtəlif sensorlar vasitəsilə hərəkət edən avtonom nəqliyyat vasitələrinin istifadəsi üçün yeni qaydaların müəyyənləşdirilməsi nəzərdə tutulur.**

Adalet.az xəbər verir ki, yeni yanaşmaya əsasən, belə nəqliyyat vasitələrinin fəaliyyətinə dövlət nəzarətinin həyata keçirilməsi, onların operatorları üçün xüsusi tələblərin müəyyənləşdirilməsi və avtomatlaşdırılmış sistemlər tərəfindən toplanan məlumatların qeydiyyata alınması nəzərdə tutulur. Avtonom avtomobillərin istismarına nəzarəti Azərbaycan Yerüstü Nəqliyyat Agentliyi həyata keçirəcək. Bu sahədə fəaliyyət göstərən operatorlara xüsusi şəhadətnamələrin verilməsi də planlaşdırılır. Bununla yanaşı, avtonom nəqliyyat vasitələri ilə bağlı məlumatların dövlətin müxtəlif informasiya sistemləri arasında mübadiləsinin təmin edilməsi nəzərdə tutulur. Bu mexanizm nəqliyyat vasitələrinin fəaliyyətinə nəzarətin və aidiyyəti qurumlar arasında koordinasiyanın gücləndirilməsinə xidmət edəcək.

Hazırlanan hüquqi mexanizmin əsas məqsədi sürücüsüz və avtomatlaşdırılmış nəqliyyat vasitələrinin ölkədə təhlükəsiz, nəzarətli və qanunvericiliyə uyğun şəkildə istifadəsini təmin etməkdir.

Qeyd edək ki, yeni tənzimləmələr yalnız avtomobillərlə məhdudlaşmır. Avtonom və pilotsuz texnologiyalardan istifadə edən digər nəqliyyat vasitələri, o cümlədən tramvay, metro, qatar, gəmi və pilotsuz uçuş aparatları ilə bağlı da müvafiq nəzarət mexanizmlərinin formalaşdırılması nəzərdə tutulur.

## Satın aldığı qutudan sərvət çıxdı

**ABŞ-da 20 min dollara içərisində nə olduğu bilinmədən satın alınan yük konteynerindən dəyəri yüz minlərlə dollar olan əşyalar və təxminən 50 min dollarlıq lüks avtomobil çıxıb.**

Adalet.az xəbər verir ki, kaliforniyalı YouTube yayımçısı Brent Rivera və dostları Los-Anceles limanı yaxınlığında sahilə çıxmış tərk edilmiş dəniz yük konteynerini 20 min dollara alıblar. Fırtınadan sonra sahilə sürükləndiyi ehtimal edilən konteynerin alınmasından əvvəl onun sahibi ilə hüquqi məsələlər həll edilib.

Konteynerin qapıları açıldıqda isə alıcıları böyük sürpriz gözləyib. İçəridən təxminən 50 min dollar dəyərində, demək olar ki, zədəsiz Polaris Slingshot avtomobili, insansı rəqs və kunq-fu robotu, robot it və elektrikli sörf taxtası tapılıb.

Bundan başqa, su keçirməyən çoxsaylı iPhone və MacBook kompüterləri, PlayStation 5 oyun konsolları, Louis Vuitton gün eynəkləri və orijinal qablaşdırmasında Pok?mon kartları da konteynerdən çıxıb.

Lakin tapılanlar bununla bitməyib. Konteynerdə boş taxta tabut, hava fişəngləri və canlı zəhərli ilanların olduğu qutu da aşkarlanıb.

Məlumata görə, yalnız Polaris Slingshot avtomobilinin dəyəri konteynerə ödənilən məbləğin iki dəfədən çoxunu qarşılayıb. Beləliklə, 20 min dollarlıq riskli alış gözlənilmədən böyük qazanc gətirən sərmayəyə çevrilib. Oxşar maraqlı hadisə Avstriyanın Vyana şəhərində baş verib. Villanın zirzəmisində boru təmiri aparan santexnik divarın içərisinə yerləşdirilmiş metal sandıq aşkarlayıb.

Sandığın içindən İkinci Dünya müharibəsindən əvvəlki dövrə aid, üzərində Volfqanq Amadey Motsartın təsviri olan təxminən 30 kiloqramlıq qızıl sikkələr çıxıb.

# Əslində sevgi bütövləşməkdir

**Hərdən öz-özümə düşünürəm. Görəsən insanın, lap elə mənim özümün var olmağım, həyatda hansısa bir yeri tutmağım başqalarına nə verir. Onlara hansı təsir göstərir və yaxud onları sıxıb incitmir ki?**

İlk baxışda bu çox pessimist, hətta adamın içini ağrıdan, əhvalını pozan suallardı. Amma hər bir sualın mütləq mənada cavabı olmalıdı və təbii ki, var. Ona görə də heç vax sualdan qaçmıram, bilmədiyimi öyrənməyə çalışıram, bildiyimi cavablandırıram. Bax, bu qaydada dilimə, içimə gələn sualların da cavabını tapmağa çalışıram. Təbii ki, mən o sualları daşa, divara, ağaca, göyə, yerə vermirəm, ünvanlamıram. Həmin suallar gördüyüm, tanıdığım, sevdiyim, yəni yanımda və ürəyimdə olan adamlara ünvanlanır. Amma etiraf edim ki, hərdən sualı ünvanladığım adamlar da susurlar, ya da etinasızlıq göstərirlər və yaxud özlərini eşitməməzliyə vururlar elə bir vasitədir, elə bir qeyri-adi məcundur ki, cütlüyü sevgi vasitəsilə bütövləşdirir. Onların həyatı da, yaşamı da, demək olar ki, hər anları dünyanın harasında olmağından asılı olmayaraq həmişə güvəndə, həmişə bir bütövlüyün daxilində özünü təqdim edir.

Görən də, anlayan da onları bir-birindən uzaqda təsvir edə bilmir. Bir az sadə dildə desəm, sanki yarı bölünmüş alma sanki insanın özü və kölgəsi sanki güzgüyə baxan adam. Bax, bu cür qoşalaşma, bütövləşmə hakim olur sevgidə hər kəsə - Sevənə!

Mən pafoslu görünən, amma əslində içimdəki sualın (özüm üçün müəyyənləşdirdiyim sualın - Ə.M.) cavabı olan bu fikirlərin arxasında sona qədər duracağıma əminəm. Ona görə ki, (təkrara görə üzr istəyirəm - Ə.M.) sevgim haqdan gəlib və o da mənə bir əminlik gətirib. O əminlik də mənim ürək çırpıntılarımı sənə ünvanlayıb, sənin cavabını gözləyə-gözləyə mən də sözün işığında özüm-özümdən soruşmuşam ki, bu hər kəsin bildiyi, amma hər kəsin yaşamadığı sevgidən güclü hansısa doğma bir hiss varmı?

Hər kəsə məlumdur ki, yer öz oxu ətrafında fırlanır. Mən də onda şeirə, poeziyaya elə vurulmuşdum ki, hər şeyi obrazlı görürdüm. Hər şeydə bir bağlılıq axtarırdım və inadla sübut etməyə çalışırdım ki, yer göyə vurulub, onun aşiqidir. Ona görə də aşağıdan yuxarıya baxmaqla yanaşı, həm də ona can atır. Şairanə desəm, yer göyü, göy də yeri sevir. Vurulublar bir-birilərinə.

Siz, yəni oxucularım, mənim bu "şairanə fəlsəfə"mə necə qiymət verməyinizdən asılı olmayaraq, israrlı şəkildə mən öz mövqeyimdə qalıram. Ona görə ki, bu cahana sığmayan insan başqa bir cahanı ona görə rahatlıqla arayır ki, o, həmin cahanın var olduğuna əmindir. Bu, ilk anlamda "bu dünya - o dünya" deyimini, fikrini yada salsa da, mənim üçün elə bu dünya da, o dünya da Allahın var olduğu hər yerin içindədi, özündədi. Yəni yer göyün, göy yerin sevgisinin, bütövlüyünün içində yaşayır və bu da həm o israrla yaddaşlara yazılan bu dünya, o dünya deyiləni mənə görə bir-birinin içində olan göylə yerin özündə görür və bu, içiçə olmaq, bir-birində tamamlanmaq, yazımın əvvəlində dediyim kimi, iki ürəyin bir sinədə birləşməsinin obrazlı görüntüsüdü.

Siz əmin ola bilərsiniz ki, hər şeyə qadir olan sevgi aşiqlə məşuqu, sevənlə seviləni necə qovuşdura bilirsə, bir-birinə can atanları da, bir-birinin içərisində var olanları da bu cür bütövləşdirir. Və bir də istənilən bucaq altında, istənilən nöqtədən baxanda ürəyin, ağlın, nəyi görmək istəyirsə, necə görmək istəyirsə, daha çox o cür görür, o cür hiss edirsən. Yəni mən səni yer üzündə heç kimin görmədiyi, hiss etmədiyi, yalnız Allahın görüb dəyərləndirdiyi bir mələk simasında görürəm. Nəfəsini də, saç düzümünü də, hətta barmaqlarının yazı yazarkən və yaxud hansısa bir işi görərkən etdiyi "rəqsi" də mən məhz özümün görmək istədiyim kimi görürəm. Bütün bunlar ömrü birtəhər yola vermək deyil və yaxud ömrü birtəhər öz istəyimə uyğunlaşdırmaq cəhdidi. Bütün bunlar mənim üçün gerçəklikdi - sənin özün kimi! Bax, o gerçəkliyi də mən yerin, göyün, sənin və mənim xəyallarımızın, varlığımızın içində yaşayıb, həm də yaşadığımı sözə çevirməyin şirin əzabını o andan yaşamaqdayam:

*Kirpiklərim görüşmədi, əritdim,*
*Bir gecəni, bir səhərin içində.*
*Can atsam da qovuşdura bilmədim,*
*Bir həsrəti bir səhərin içində!*

*Baş qatsam da hər ölçüdə, biçidə,*
*Boş səhradı əllərimin içi də!*
*Vüsal, həsrət, bir də umud -üçü də -*
*Çabalayır, bir qəhərin içində!*

*Batan günəş, axan ulduz və bir də,*
*Güc qalmayıb dişim sıxan səbirdə.*
*Bilə-bilə yaşadığım cəbir də -*
*Bal daddırır, bal zəhərin içində!*

*Çöhrəndəki təbəssümdən çən ağır,*
*Nə dilədim tərsi ilə tən, yağır!*
*Söz önündə açıq-aşkar mən fağır*
*Gül sayıram "bir təhərin" içində!*

lar. Bir sözlə, sual elə içimdə, dilimdə sual olaraq da qalır. Mən də bir az tərs, israrlı adamam. İstəyimə çatmaq üçün inad göstərirəm. Ona görə də hərdən ağına, bozuna baxmadan və yaxud da bu sualın cavabının acı olacağını düşünmədən gedirəm o adamların üstünə, döyürəm qapılarını, zəng vururam telefonlarına. Məqsədim də sualıma cavab almaqdı. Ən çox da səni rahatsız edirəm. Səni o sualların cavablarını mənə deməyə inandırmaq, razı salmaq istəyimdən əl çəkmirəm. Sən isə

Bəli, sən də susursan. Üz cizgilərindən, baxışlarından bilirəm ki, o suallar və onun cavabları sənin mənə demək istəmədiklərindi. Amma nə olsun ki, onsuz da bir gün özün də bilmədən, özün də hiss etmədən hansısa bir məqama, hansısa bir hadisəyə, olaya, reallığa münasibət bildirəndə o cavablar da gəlib keçəcək mövzunun içindən. Bax, mən onda yerimi də, yaşam haqqımı da bir Allah bəndəsi olaraq sənin dəyərində görəcəm, sənin sözündə tapacam. İnan buna. Mən ümidsiz adam deyiləm, heç inamsız da, inancsız da deyiləm. Bax, ona görə də həmin o suallara gedən yolda, yəni bu baş sındırdığım anda içimdən gəlib keçən bir istəyi misralamışam. Və yazmışam ki:



*Hər çöhrədə nur, işıq var,*
*Görə bilsən, görə bilsən.*
*Hər işığa bir aşiq var -*
*Görə bilsən, görə bilsən.*

*Əkiz taydı daş və divar,*
*Həmnaxışdı, su və cuvar.*
*Kirpikləri bir-bir suvar -*
*Görə bilsən, görə bilsən.*

*Pərvanəsi o dərdin, mən,*
*Pöhrənəndi o, dərdim mən!*
*Bu dərdimi o dərdimdən -*
*Görə bilsən, görə bilsən.*

*Qoyma sınam, yaralanam,*
*Bil ki, sənin yar adanam!*
*Eşq dünyası yaradaram -*
*Bir az ümid verə bilsən!*

Hə, gördünmü, yaşamaq üçün, öz yerində olduğunu, dayandığını bilmək üçün mütləq ümid lazımdı. O ümid də Allahdan və səndən gəlib keçir. Yaradan O, çatdıran isə Sənsən. Burada bir asilik, burada bir dinə, Tanrıya qarşı çıxmaq yoxdu. Ona görə ki, mən sevginin Haqdan gəldiyinə, Allah payı olduğuna gün işığı kimi inanıram. Və deməli, birmənalı olaraq, bütün varlığıma hopan budur ki, duyğular, hisslər, sevgi ilə cilalananda həyat tamam başqa cür olur.

Söhbət burda təkcə intim aləmdən getmir, kiminləsə qol-qola gəzməkdən, diz-dizə oturmaqdan bəhs olunmur. Söhbət burda iki ürəyin bir sinədə, iki bəndənin bir canda özünü tapmasından, özünü tamamlamasından gedir. Bu cütlük əslində bir böyük TƏKLİKDİR!!! Onları da tək edən sevgidi. Alınan nəfəs, döyünən ürək, görən göz, düşünən ağıl... Bun-

Zatən mən düşünürəm ki, insanın iki ən böyük duyğusu, yəni gizlədə bilmədiyi ali hissi var, onun biri sevgidi, ikincisi nifrət. Sevginin pik nöqtəsi sənsizliyi yaşaya bilməməkdi. Nifrətin pik nöqtəsi intihar və yaxud qətldir

Görürsənmi, bir varlıq olaraq sevgi və nifrət bizi haralara aparır. Elə ona görə də hərdən özüm-özümlə danışıram və sonra da danışdıqlarımı sənə söyləyirəm, səndən cavab gözləyirəm. Və o cavab gələnə kimi isə dözməyib, səbirsizlik edib bu misraları kağıza köçürürəm:

*Niyə incidirsən məni bu qədər,*
*Hansı günahımın cəzasıdı bu?!*
*Namazım SEVGİDİ! - həmin o gündən*
*Bəs onda de nəyin qəzasıdı bu?!*

*Ürəyin ürəklə kəsmət kəsməsi,*
*Sayılır mənimçün ruhun vəsməsi.*
*Baxış pıçıltısı, dodaq əsməsi,*
*Sevginin ən incə əzasıdı bu?!*

*Fikirdi yoğuran, diləkdi yapan,*
*Atını dörd nala fələkdi çapan.*
*Tanrı dərgahında özünü tapan,*
*Bilir ki, məhəbbət fəzasıdı bu!*

İnsan ömrünün demək olar ki, ən böyük payını, hissəsini yerdə, torpağın üzərində keçirir, yaşayır. Müəyyən qrup var ki, onların işi, fəaliyyəti daha çox fəza ilə, hündürlük ilə, yəni yerdən yüksəklikdə reallaşır. Gah işıq dirəyinin üstündə, gah neft buruğunun qülləsində, gah təyyarədə, bir sözlə, torpaqdan hansısa bir məsafədə keçən bu ömür sonda yenə torpağa söykənməli olur. Obrazlı desəm, yer həmin adamlara bir trampilin kimi təkan verir, onların start nöqtəsi olur, ordan başlayır uçuş da, qülləyə qalxmaq da. Lap uşaqlıq illərimizdə olduğumuz kimi, hansısa bir uca yerdən üzü aşağı tullanmaq da... Bütün bunları xatırlamaqda məqsədim göy üzündən gələn Allah payı olan sevginin torpaqla bağlı hərdən orta məktəb illərində şagird dostlarımla etdiyim bir mübahisə yadıma düşür.

**Bu yazını başlayandan sonuna qədər mən bütövlükdən və sevgidən, əslində isə bütövlüyü yaradan sevgidən danışdım. Daha doğrusu, danışdıqlarımı bilgisayarın yaddaşına köçürtdüm. Amma bununla yanaşı, mən sözə çevirdiklərimi o çevrilmə anının özündə də bir gerçəklik kimi yaşayırdım və yaşadım da. Çünki səninlə üzüzə idim, səninlə danışırdım, səninlə bölüşürdüm, Sənə səndən yazırdım.**

Əbülfət MƏDƏTOĞLU

## *Bu məşq yuxuya getməyinizə kömək edəcək*



**Yaponiyada tətbiq olunan və ilk baxışdan qəribə görünən bir məşqin yuxuya daha tez getməyə kömək edə biləcəyi bildirilir. Mütəxəssislərin sözlərinə görə, tarakan metodu kimi tanınan bu üsulun arxasında elmi əsaslandırma dayanır.**

**Adalet.az bildirir ki, məşq zamanı insan arxası üstə uzanır, əllərini və ayaqlarını yuxarı qaldıraraq təxminən 30 saniyə ərzində yüngül şəkildə hərəkət etdirir.**

**Hərəkət çevrilmiş tarakanın tərpənişinə bənzədiyi üçün bu üsul qeyri-rəsmi olaraq tarakan metodu adlandırılır.**

**Mütəxəssislər izah edirlər ki, axşam saatlarında orqanizm yuxuya hazırlaşarkən bədən temperaturu təbii şəkildə aşağı düşməyə başlayır. Bu səbəbdən də yuxu otağında temperaturun 19 dərəcədən yuxarı olmaması tövsiyə edilir.**

**Yuxudan əvvəl qan dövranı xüsusilə əl və ayaqlarda güclənir. Bu nahiyələr artıq istiliyin bədəndən xaric olunmasına kömək edir.**

**Qan dövranı nə qədər yaxşı olarsa, orqanizm bir o qədər tez soyuyur və yuxu prosesini başladan bioloji mexanizmlər daha sürətlə işə düşür.**

**Araşdırmalar hələ 1990-cı illərin sonlarında göstərib ki, insanın nə qədər tez yuxuya getməsini müəyyən edən əsas göstəricilərdən biri ayaqların temperaturudur.**

**Ətrafların daha isti olması bədənin soyumasını sürətləndirir və bu da yuxuya getmə müddətini azalda bilər.**

**Məhz bu prinsipə əsaslanan yapon məşqində əllərin və ayaqların yüngül şəkildə silkələnməsi qan dövranını aktivləşdirir, istiliyin bədəndən xaric olmasını asanlaşdırır və əzələlərin rahatlamasına kömək edir. Məşqi yatmazdan dərhal əvvəl təxminən 30 saniyə ərzində etmək tövsiyə olunur.**

**Bu texnika ötən əsrin birinci yarısında yapon mühəndisi və aikido müəllimi Katsuzo Nişi tərəfindən hazırlanan "Nişi Sağlamlıq Sistemi"nin elementlərindən biridir.**

**Sistemin bütün müddəaları elmi baxımdan tam təsdiqlənməsə də, qan dövranının yaxşılaşdırılması və bədənin təbii soyumasının dəstəklənməsi prinsipi müasir somnologiya elmi ilə uyğunluq təşkil edir.**

**Mütəxəssislər qeyd edirlər ki, eyni məntiq digər axşam vərdişlərinə də aiddir. Məsələn, yatmazdan əvvəl isti corab geyinmək və ya isti vanna qəbul etmək qan damarlarının genişlənməsinə səbəb olur. Nəticədə bədən daha sonra istiliyi daha asan itirir və yuxuya getmək asanlaşır.**



Mirqiyas SEYİDSOYLU,
Polkovnik

# EDƏMƏM TƏRK, FÜZULİ...

(əvvəli ötən sayımızda)

Dəyərli qardaş və bacılar !

Biz bu gün, rayonumuzun əhalisi adından Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin Baş Katibi M.S.Qorbaçov yoldaşa müraciət ünvanlamışıq!

Müraciətin məzmununda göstərlir ki, xəyanətkar ermənilərin Azərbaycan xalqının dədə-baba torpaqlarına qarşı qaldırmış olduğu iddiaları XX əsrdə bir neçə dəfə baş vermişdi. Lakin heç bir tarixi və hüququ əsası olmayan bu iddialara sərt və kəsgin rədd cavabı verilmişdir. ( etrazçılar tərəfindən alqış sədaları səslənir.) Tahir Quliyevin tribunada çıxışı zaman tanımadığım bir neçə nəfər, şəhərdə hamının Fili kimi tanıdığı, Fridovsi adlı şəxsə nəyisə öyrədirdilər. Firdovsi isə onların qarşısında əyri-çəp dişlərini ağarda-ağarda canfəşanlıq edirdi. ( Firdovsi rayonun təmizlik idarəsinin fəhləsi idi. ) Sonra Firdovsi ona təlimat verən adamların yanından birbaşa qaçaraq tribunaya qalxdı.

O, Raykom Katibi Tahir Quliyevə yaxınlaşıb qarşısındakı mikrafonu götürüb sözünü kəsdi.

- Firdovsi : - Tahir müəllim sən, hələ dayan! Biz, sənə sonra söz verərik....( camaat arasında təəsüf doğuran kinayəli gülüş səsləri eşidildi. )

Etrazçılar arasınsa bəziləri fit verir, kimlərsə FİLİ-FİLİ-FİLİ... deyərək qışqırırdılar. Adama qəribə gəlirdi. Necə ola bilər ki, zamanında gecə ilə, insanları evindən səs-səmirsiz yoxa çıxaran Sovet dövləti, yəni bu qədər aciz olub ki, təmizlik idarəsində süpürgəçi işləyən Firdovsi rayon rəhbərinin sözünü kəsir ?!..

Rayonda daxili asaişi qoruyan milis, prokurorluq orqanları göz yumur, dövlət təhlükəsizlik xidməti susur...

Niyə ?!.

Bu mümkündürmü ?!..

Mən, bunlara inanmıram. Çünki, dünyanın ən böyük və qüdrətli ordusuna sahib olan Sovet dövlət yəni, bu qədər zəifləyib ?!

Qədim və orta əsrlərə dair tarixdən xəbəri olan biri kimi mən, bu siyasi oyunlara ilk gündən qətiyyən inanmıram...

Bəli, yüz illərdir Azərbaycanda millət, torpaq, Vətən təəsübkeşliyi ruhunda yoğrulmuş, on minlərlə yüksək siyasi mədəniyyətə yiyələnmiş, böyük talant sahibi olan, istedadlı, maarifçi ziyalılarımızı, elm və mədəniyyət xadimlərini millətçi damğası ilə repressiyalara məruz qoyublar. İndi isə görünür, imperialist qüvvələr öz ictimai-siyasi idarəçilik mexanizmini daha da, gücləndirmək məqsədilə yeni forma və metodlar axtarışındadırlar. Bəli, indi bizə bəlli oldu ki, bu yeni mexanizmin hazırlanmasında Firdovsi kimiləri onlar üçün, ucuz və səmərəli oyuncaqdır.

Raykom katibi Tahir Quliyev, süpürgəçi Firdovsinin rayon ictimaiyyətinin gözləri qarşısında etdiyi qeyri-etik və ədəbsiz hərəkətlərə olduqca səbr və təmkin göstərib onu, tribunadan endirmək istəyən milis zabitlərinə, toxunmamaq barədə göstəriş verdi. Etrazçılar arasından hələ də, FİLİ - FİLİ - FİLİ...səsləri eşidilməkdə idi...

Süpürgəçi Firdovsinin nalayiq hərəkətlərini görən rayon icraiyyə komitəsinin sədr müvini Seyid Tahir Hüseynov dərhal ona yaxınlaşıb məzəmmət edici şəkildə mikrafonu əlindən aldı:

- Sən, bu nə ədəbsizlikdir edirsən ?

Bu izdihamın qarşısında söz demək sənin başın üçün deyil. Kim sənə icazə verdi ki, bura çıxasan...

Deməyə söz tapa bilməyən Firdovsi əyri və çəpəki görünən dişlərini ağardaraq qımışdı...

Seyid Tahirin atası, rəhmətlik Seyid Səyyad əmini nəinki Füzulidə, respublikanın çox yerlərində hörmətli, inanclı, ziyalı və sınanmış seyid kim tanıyırdılar. O, həm də, elim-irfan və şeir-sənət adamı idi. Allah dünyasını dəyişmiş bütün müdrik ağsaqqallarımıza rəhmət eləsin. Amin..

Tanınmış ağsaqqal, Seyid Səyyad əminin oğlanları da özü kimi camaat arasında hörmət və nüfuz sahibləridir. Təsadüfü deyil ki, Seyid Tahir Hüseynovun bu gün, süpürgəçi Firdovsini məzəmmət etməsini hamı təbii hal kimi qarşıladı. Həmçinin paytaxt Bakıdan qonaq gəlmiş, əslən Füzuli rayonundan olan, tanınmış yazıçılar Nemət Veysəlli və Seyran Səxavət tribunada yaranmış gərginliyin sabitləşdirilməsi məqsədilə vəziyyətə müdaxilə etdilər. Mitinq iştrakçıları bu məhşurları alqışlarla salamladılar...

- Seyid Tahir :- əziz və hörmətli yoldaşlar !

Mən, fürsətdən istifadə edib çıxış üçün sözü həmyerlimiz Seyran Səxavətə verirəm.

Yazıçı Seyran Səxavət acıqlı-acıqlı Firdovsiyə baxaraq, tribunadan aşağı enməyi tələb etdi. Etrazçılar Seyran Səxavətin sərt və qətiyyətli davranışını görüb susdular. Camaat arasında tam sakitlik yaranmışdı. Hamı onun nə edəcəyini gözləyirdi.

Seyran Səxavət : - dəyərli Füzuli camaatı, əziz həmvətənlər !..

Hər birinizi xoş gördük !

Mən, bu gün, sizlərin arasında olan, həmrəyliyi, təəsübkeşliyi, Vətənə, torpağa bağlılığı, Vətən və millət sevgisini görüb çox sevindim. ( yerlərdən alqış sədaları eşidildi. ) O, əlini yuxarı qaldıraraq dedi : - bir dəqiqə ! Mən, xahiş edirəm, çıxışımı bitrənə qədər heç kim mənə mane olmasın. Mənim heç vaxt yersiz alqışlara ehtiyacım olmayıb və yoxdur. Siz məni sakitcə dinləyin, bu mənim bəsimdir.

Hamı bir nəfər kimi susurdu. Elə bil ki, sabahdan bəri küçələrdə qəzəbli, üsyankar əməllər törədən izdiham yoxa çıxmışdı.

- Hamınız çox yaxşı bilirsiniz ki, separatçı erməni daşnakları və lobbi bizim qədim dədəbaba yurd yerlərimizi, QARABAĞ torpağının Ermənistana birləşdirilməsi haqqında SSRİ rəhbərliyi qarşısında tələb qoyublar. Ancaq bu o, demək deyil ki, artıq QARABAĞI veriblər gedib.

Ümumiyyətlə bizim yaşadığımız son yüz illikdə bununla bağlı erməni lobbisi dəfələrlə məsələ qaldırmış, lakin, hər dəfə də, uğursuzluğa düçar olmuşdular. Mən, əminliklə deyirəm ki, bu yenə də belə olajaq. Əziz həmvətənlər !

Bu gün, sizin erməni seperatçı qüvvələrinə qarşı etdiyiniz etraz mitinqi təqdirə layiqdir. Ancaq, sizin nəzərinizə bir məsələni çatdırmaq istəyirəm. Məlumunuz olsun ki, QARABAĞIN Ermənistana veriləcəyi və yaxud, verilməyəcəyi barədə qərarı Tahir Quliyev yox, M.S. Qorbaçov verir. Əgər, onun da, belə bir qərarı verməyə qeyrəti çatarsa. Mən, sizi inandırıram ki, heç kim cəsarət edib belə bir qərar verə bilməyəjək. Yoldaşlar, nəzərinizə çatdırım ki, belə qərarlar bu binada yox, Kremlidə verilir. Ona görə də gəlin təmkinli və səbrli davranaq. Biri-birimizə, böyüklərimizə hörmətlə yanaşaq. Bu gün, FİLİDİR kimdir, onun hərəkətləri mənə xoş gəlmədi.. Gəlin elə edək ki, sabah üz-üzə gələndə utanmayaq. QARABAĞ bizimdir, bizimdə olajaq !.

Eşq olsun, Azərbaycanın təəsübkeş övladlarına !..

Etrazçılar arasında sürəkli alqışlar qopdu. Seyran müəllimi böyük hərarətlə alqışladılar.

İzdihamın arasında dayanan Ramiz Süleymanov çəpik vura-vura ucadan deyirdi. Görürsünüz, mənim qonşum necə çıxış elədi. Qadasın alım elə bil Lelindi !.

Sağ ol, ay qonşu, sağ ol !

Allah qorusun səni !

Bəli, əsil sənətkar odur ki, öz yaradıcılığında yaşadığı dövrə, zamana hökm etməyi bacarsın. Əgər, bunlar yoxdursa, ona yaradıcılıq demək olmaz !..

**Azərbaycan poeziyasında milli kimlik mövzusu xalqın soy-kökünü, tarixi yaddaşını, dilini, adət-ənənələrini və mədəni dəyərlərini əks etdirən çoxsaylı bədii əsərlərdə öz ifadəsini tapmışdır. Bu əsərlərin əhəmiyyətli bir qismi şifahi xalq ədəbiyyatından və aşıq yaradıcılığından bəhrələnərək formalaşmış, yaradıcı təfəkkürün poetik təcəssümü kimi milli ruhun nəsildən-nəslə ötürülməsində mühüm rol oynamışdır.**

Belə nümunələr keçmişlə bu gün arasında mənəvi körpü yaradaraq xalqın milli özünüdərkini möhkəmləndirmiş, tarixi yaddaşın qorunub saxlanılmasına xidmət edən güclü bədii ifadə vasitələrinə çevrilmişdir.

Böyük şairimiz Bəxtiyar Vahabzadənin 1959-cu ildə qələmə aldığı ilə bağlı bir dəyər kimi təqdim edir. Təkrar olunan - ”Doğudan batıya, türk oğlu türkəm!”- misrası isə əsərin əsas ideyasını ifadə edən nəqarət rolunu oynayır.

*”Kimliyimi soranlar, bilin kiməm mən!*
*Doğudan batıya, türk oğlu türkəm!*
*Dünyada üç qitə, səlnamə yazan,*
*Gəl sənə söyləyim agah ol, kiməm!*
*Doğudan batıya, türk oğlu türkəm!”*

Şair bu şeirində özünü təqdim etmə ilə başlayır. Şair ona ”sən kimsən?” sualını verənlərə cavab verir. Türk xalqının tarix boyu üç qitədə - Asiya, Avropa və Afrikada dövlətlər qurduğunu, dünya tarixində mühüm izlər buraxdığını xatırladır. Burada türk kimliyi ilə fəxr hissi ön plana çıxır.

# ŞAİRLİK TİTULDAN YOX, QƏLBDƏ YAŞAYAN SÖZ SEVGİSİNDƏN BAŞLAYIR



məşhur ”Gülüstan” poeması Azərbaycan xalqının parçalanmış taleyini, milli birlik ideyasını və istiqlal arzusunu əks etdirən ən dəyərli ədəbi nümunələrdən biridir.

Sevindirici haldır ki, bu gün də milli yaddaşımızı oyadan, tariximizə və kimliyimizə işıq tutan belə sanballı yaradıcılıq nümunələri Azərbaycan ədəbiyyatında öz layiqli yerini tutmaqdadır.

Facebookda çoxdan izlədiyim, yaradıcılığına xüsusi simpatiyam olan Yaşar Kamaloğlunun poeziyasında diqqətimi çəkən aşağıdakı üç məqam oldu. Bu üç əsas xətt onu yaradıcılığı və Facebookoda izlədiyim fəaliyyəti boyu davamlı şəkildə özünü göstərirdi.

Bunları aşağıdakı kimi sıralasaq belə alınar:

Türk kimliyi və tarixi yaddaş;

Vətənə və torpağa bağlılıq;

Mənəvi dəyərlərə və qəhrəmanlıq ənənələrinə ehtiram;

Bu da görünür ki, müəllifin dünyagörüşünün və yaradıcılıq istiqamətinin əsas xüsusiyyətlərini müəyyənləşdirir. Ona görə də Yaşar müəllimin şeirlərini oxuyub özüm üçün müəyyənləşdirərkən yalnız məzmunu deyil, həm də ideya yükünü, bədii təsvir vasitələrini, onun müəllif mövqeyini və ümumi poetik ruhu nəzərə almağı qarşıma məqsəd qoymuşdum. Onun səhifəsinə keçib, bir dost kimi münasibət bildirmək üçün seçdiyim şeirlərində yuxarıdakı düşüncəmə ehtiram olaraq ehtiyatlanırdım.

Şairin yaradıcılığından seçib gətürdüyüm - ”TÜRKOĞLU TÜRKƏM!”-şeiri bütün varlığımı silkələdi. Çünki, şeir türk kimliyi, tarixi yaddaş, milli qürur və vətənpərvərlik motivləri üzərində qurulmuşdu. Şair öz mənsubiyyətini sadəcə etnik kimlik kimi deyil, minilliklərin tarixi, mədəniyyəti və qəhrəmanlıq ənənələri

*”Məni mən eləyən, şirin dilimdi,*
*Mənim türklüyümdü, mənsubiyyətimdi,*
*Halal zəhmətimdi, alın tərimdi,*
*Gəl sənə söyləyim agah ol, kiməm!*
*Doğudan batıya, türk oğlu türkəm!”*

Bu bənddə şair kimliyinin əsas sütunlarından olan Ana dilini, Türk mənsubiyyətini, halal əmək və alın tərini sadalayır.

Bununla da şair demək istəyir ki, insanı şəxsiyyət edən yalnız soy-kök deyil, həm də zəhmətsevərlik və mənəvi dəyərlərdir.

*”Dədəm Səlcuqludu, babam Alparslan,*
*Dur, bir ayaq saxla, yerində dayan,*
*Deyirəm dünyaya qoy olsun bəyan,*
*Gəl sənə söyləyim agah ol, kiməm!*
*Doğudan batıya, türk oğlu türkəm!”*

Burada türk tarixinin böyük səhifələrinə müraciət olunur. Şair özünü mənəvi olaraq Səlcuqluların və böyük sərkərdə Alp Arslan irsinin davamçısı hesab edir. Burada şairin məqsədi tarixi köklərin böyüklüyünü vurğulamaqdır.

*”Dağlarda dumanam, çəməndə şehəm,*
*Mən islam əhliyəm, əməl salehəm,*
*Kafir dizi qıran, Sultan Fatehəm,*
*Gəl sənə söyləyim agah ol, kiməm!*
*Doğudan batıya,türk oğlu türkəm!”*

Bu bənddə iki xətt birləşir ki, bunlardan biri təbiət obrazları (duman, şeh), dini və tarixi kimlikdir.

Şair özünü həm təbiətin bir parçası, həm də islam mədəniyyətinin daşıyıcısı kimi təqdim edir. ”Sultan Fateh” - ifadəsi ilə Mehmed II obrazına işarə edilir və türk-islam tarixinin zəfər ənənəsi yada salınır.

*”Yenilməz bir bəyəm, Qara Osmanam,*
*Yağıya qəm-qüssə, kədərəm, aham,*
*Vətəni böyüdən İsmail şaham,*
*Gəl sənə söyləyim agah ol, kiməm!*
*Doğudan batıya, türk oğlu türkəm!”*

Şair bu bənddə tarixi şəxsiyyətlər vasitəsilə dövlətçilik ideyasını qabardır. ”Qara Osman”-ifadəsi ilə çox güman ki, Qara Osman nəzərdə tutulur. ”İsmail şah” isə Şah İsmayıl Xətai obrazıdır.

Şair onların dövlət quruculuğu və mübarizə ruhunu öz mənəvi dünyasının bir hissəsi kimi təqdim edir.

*”Qəhrəman Mübariz, Polad, İlqaram,*
*Namərddən-nadandan hesab soraram.*

**Halil KAN**

**Etiraf etmək lazımdır ki, Türk dünyasının taleyi ilə bağlı minlərlə məqalə, kitab yazılsa da, hələ bu aktual problem bu qədər dəqiqliyi ilə çözələnməyib, araşdırılmayıb. Cavanşir Feyziyev Türk Dövlətləri Birliyinin yaradılması zərurətini adını çəkdiyimiz möhtəşəm əsərində (II nəşrində) qoyub. Məgər buna gəlib çatmaq asan idimi? Qətiyyən yox. Çünki bir var bizə məlum olan mənbə və məxəzlər, bir də vat naməlum. Fransız və ingilis dillərini mükəmməl bilən müəllifin Avropa kitabxanalarına yol açması, müxtəlif əcnəbi tarixçi alimlərlə elmi söhbətləri adını çəkdiyimiz ideyanın alt qatlarının öyrənilməsini detallarla şərtləndirmiş, müasir Türk Dövlətləri Birliyinin (TDB) yaranma vacibliyini doğurmuşdur.**

# TÜRKOLOJİ DÜŞÜNCƏNİN KİTABI

## Fəlsəfə üzrə fəlsəfə doktoru Cavanşir Feyziyevin ”Türk Dövlətləri Birliyi: Qlobal İnteqrasiyanın Türk Modeli” və əslində eyni mövzunun davamı sayıla biləcək beş cildliyi barədə qeydlər

Altı mühüm fəsildən ibarət kitab çağdaş türkoloji düşüncənin manifestidir. Fəsillərin hamısı yarımbaşlıqlar altında konsepsiya şəklində qoyulmuşdur. Akademik Yaqub Mahmudovun ön sözündən sonra: ”Tarixdən doğulan gələcək” gəlir. Türk dövlətçiliyinin genezisi: tarixi-siyasi münasibətlərin dinamikası, imperiyalar səltənətində səpələnmişlərin bütövləşməsi, Türk birliyi ideyasının təkamülü söylədiyimiz yarımsərlövhələrdir. Bütün gələcək inkişafların təməli keçmişdən boylanır. Əgər həmin özülləri görməsən, onlara söykənməsən, onların sükutunu öyrənməsən, sükutunu oxumasan, ideyan havadan asılı qalar. Cavanşir müəllimin bu göstərdiyimiz istiqamətdə fədakarlığı, ağlasığmaz mənbələr və faktlar axtarıb tapıb, onlara istinadı heyrətamizdir.

Biz istəsək də, istəməsək də, desək də, deməsək də, bütün nəhəng güclərin, sivilizasiyaların taleyini tarix götür- qoy edir, yaşadır və ya iflasa uğradır. Türk dövlətlərinin birliyi kimi qlobal səviyyəli ideyanın gerçəkləşməsi prosesinin əsası SSRİ-nin (demək olar, rus imperiyasının) dağılmasından sonra mümkün həllini tapdı. Sovet İttifaqı 1917-ci ildən axsaya- axsaya, XX əsrin sonlarınacan irəlilədi, öldü-dirildi, yaşadı. Lakin tərəqqini, inkişafı qəbul eləməyən heç bir ”bağlı qapı” əbədi açarlanıb qala bilməzdi. Bu böyük darvazadan içəridə iri xalqlar vardı və onlara vədlər verilmişdi: guya kommunizmin ən yüksək pilləsində ölkədə hər şey pulsuz olacaqdı, cənnətdə olduğu kimi əhali xoşbəxtlik tapacaqdı. Tənəzzüldə ikən SSRİ yoxsulluqda çabalayırdı. Titaniki dəryada batırdı. Nəhayət, ”qüdrətli dövlət”in başlülənləri xilas yolu görmədilər, rus imperiyası dağıldı, parçalandı. Azərbaycan, Özbəkistan, Qırğızıstan, Qazaxıstan, Türkmənistan caynağından qurtuldular, özlərinin milli suveren respublikalarını qurdular. Bu tarixi çaşqın məqamda liderləri döşlərini irəli verdilər. (Məsələn, Azərbaycanda Heydər Əliyev, Qazaxıstanda Nursultan Nazarbayev və s.). Beləliklə, labud münbit zəmin sözünü dedi. Və nə yaxşı ki, ulu Atatürkdən bu yana, ilk dəfə indi Türkiyə Cümhuriyyəti intibah dövrünü yaşayır, dünyada sağlam söz sahibidir. Türkiyə habelə Rusiyadan qopan beş müstəqil ölkənin, eləcə də Şimali Kipr Türk Respublikasının sarsılmaz dostu, sanbalına görə qabaqda gedənidir, güvənli mövqeyi ilə seçilənidir. Bir də axı XXI yüzilliyin hələ az hissəsini yaşamışıq, böyük bir dövrü qarşıdadır. Türk ruhunun əzəmətinə inanan hər kəs Cavanşir Feyziyevin də bu müddəasını aksiomsayağı qəbul edir: XXI əsr Təklərin deyil, Müttəfiqlərin əsri olacaq!

Türk dövlətçiliyi genezisinin tarixi köklərini araşdıran müəllifin ciddi və əsaslı qənaətinə görə, tarix türklər üçün təkcə mövcud olduqları, yaşadıqları zaman deyil, həm də onların mənəvi bütövlüyü, qan yaddaşıdır. Sözsüz, ”ata yurdu” indiki Sibirdən - Yenisey çayı boyunca uzanan ərazidən keçir. Qədim türklər ilk xaqanlıqlarını, yəni imperiyalarını Altay çöllərində qurmuş, əski Hun və Sak kimi nəhəng dövlətlərinin əsasını qoymuşlar. Məkan Şərqdən Qərbə doğru uzanmış, eyni zamanda enlənmiş və genişlənmişdir. Təbii ki, qərinələr, eralar ötdükcə, bir məşhur imperiya səltənətini digərinə verir, türk qövmündən yeni törəmə etnoslar yaranır, xalqın sayartımı formalaşırdı. Ancaq manealər, müdaxilələr, amansız, rəhmsiz müharibələrə gətirib çıxarır, qulağının dibində güclənən düşmən (Çin) qarışqa sayı qədər qoşun-ləşkərini cinahlar boyu meydana çıxarır, türklərin say azlığından istifadə edir (kəskin say azlığı), torpaqlarına soxulurdu. Buna baxmayaraq, qəhrəman türklər yağılara müqavimət göstərir, onları pərən-pərən salır, evlərinəcən qovurdular. Salnamədə əhali nisbəti bu şəkildə verilir: çinlilərin sayı 20 milyon nəfər, türklərinki 200-250 min nəfər. Heç bu boyda say fərqi belə ”əsgər-millət” adlanan türkün gözünü qorxutmur.



Zamanında gerçəkləşən Türk birliyi ideyası böyük gələcək vəd edir. C. Feyziyev kitabının 68-ci səhifəsində xarakterizə etdiyi ideyanın məğzini bu şəkildə dəyərə mindirir: ”Əslində, Türkçülük türklüyümüzün təsdiqidir. Türklüyümüz isə bizim milli özünüdərkimizin nümayişidir. Türklüyümüz Milli İdrakın elə bir universal miqyasına çıxmaqdır ki, buradan Türk dünyasının coğrafi və mənəvi sərvətləri, siyasi çevrəsi, bu günündən bütün taleyinə açılan qapıları, tarixindən doğulan gələcəyi tam aydın şəkildə görünür”. Şərhə ehtiyacı olmayan çağdaş türk ziyalısının işıqlı mülahizələridir.

Bəzən qədim əcdadlarımızı çalıb-çapan, vəhşi, talançı qismində göstərən, düzəltmə məxəzlər qoy həqiqətin gözün içinə düz baxsın; türklər haranı istila ediblərsə, o yerin heç bir mədəniyyət abidəsinə toxunmayıblar əksinə, onu qoruyublar. İkincisi, türklər qədim sivilizasiyanın mədəniyyət daşıyıcıları olublar. Harda məskunlaşıblar, özlərinin milli-etnik mədəniyyət nümunələrini qoruyublar və yaradıblar. Cəngavər xalq heç talançı funksiyasını yerinə yetirə bilməz; bizim babalarımız türklər də eləcə...

Məhz bu yöndən məsələnişərh edən müəllif. ”Ümumtürk mədəniyyətini fərqli sivilizasiya nümunəsi kimi, kitabının ikinci fəsil”də dörd istiqamət ətrafında mülahizə irəli sürür ”Dünya mədəniyyətinin inkişafı tarixində türklər” başlıqlı oçerkə diqqət yetirək. İlk səhifədəcə qeyd olunur ki, dünya tarixini türk tarixi olmadan təsəvvürə gətirə bilmədiyimiz kimi, dünya mədəniyyətini də türk mədəniyyətsiz təsəvvürə gətirmək mümkünsüzdür. Antik dövrdə də bu izlər dərhal nəzər cəlb etmiş, müasir dövrdə də həmişə diqqət çəkməkdədir: sosial-siyasi mədəniyyət, iqtisadi mədəniyyət, mənəvi mədəniyyət, bədii mədəniyyət, bilgəlik (humanitar) mədəniyyəti və s. Bu qatlar və qollar tarixin bütün zamanlarında mövcudiyyət tapmış, nəsildən- nəslə adlamışlar. Həm Korifey türkşünas Bahaəddin Ögəlin, həm də çağdaş türk alimi Mətin Aydoğanın külliyyatlarında (xüsusən Mətinin ”Türk sivilizasiyası” kitabında) ümumtürk mədəniyyətinin özünəməxsus tarixi xüsusiyyətləri qələmə alınmışdır. B. Ögəlin ”Türk mədəniyyət tarixinə giriş” adlı 9 cildlik fundamental əsəri bu baxımdan ciddi mənbədir və əhəmiyyət daşıyır. Alim fəxrlə türk imperiyalarının çiçəkləndiyi dövrlərdə mədəniyyət mərkəzləri rolu oynamış məşhur iri şəhərlərin adlarını çəkir: Səmərqənd, Buxara, Təbriz, Gəncə, İsfahan, İstanbul, Aqra, Bağdad. Təəssüf ki, bu sırada Bəlxin (indiki Əfqanıstan ərazisindədir) və Konyanın adları yoxdur. Axı, qədimliyinə görə bunlar da məşhur türk şəhərləri və mədəniyyət mərkəzləridir.

Orxon abidələri: realizm və uzaqgörənlik örnəyi. Avropanın ən hegemon dövləti olmuş Göytürk imperiyasının doğmaca əlifbasında yazılmış (türk runi yazıları) bu tapıntılar ölkənin ”qızıl” dövrünün məhsulu (552-745) sayılır. Onu ”tarixi sənədlər külliyyatı” da adlandırmaq olar. C. Feyziyevin müddəası: ”OrxonYenisey abidələri bütün müasir türk dillərinin əcdadı sayılan ulu türkcədə - göytürkcədədir”. Deməli, tapıntı birbaşa türk dövlətinin etnogenezinə, sivilizasiyasının, siyasi mədəniyyətinin tarixi təkamülünə aydınlıq gətirən qaynaqdır. Bu birlik və dirilik rəmzi müasir dövrün türksoylu xalqlarına çox lazım idi. Çünki hamımız o məğrur əski ulusun törəməsi və yadigarıyıq. Bunu heç zaman unutmamalıyıq.

Məlumdur ki, Böyük İpək Yolu mədəniyyəti yaranandan onun ilk qoruyucuları türklər olub. Çindən İspaniyayadək uzanan (təxminən 12 800 km-lik məsafədə) bu qədim karvan marşrutu türk torpaqlarından keçib. Bəşər sivilizasiyasına gözəl töhfə olan bu xətt nəhəng yarğan və aşırımları, dağ və səhraları, dəniz və çayları arxada qoya-qoya gah ayrılır, gah qovuşur. Heç təsadüfi deyil bu ticarət, eyni zamanda sonralar hərb yolunun ayrıca bədii obrazı da heyrətamiz surətdə yaradılmışdır: Azərbaycan bəstəkarlıq məktəbinin layiqli davamçısı Soltan Hacıbəyovun ”Karvan” simfonik muğamında. Musiqi əsərində qədim türk ruhunun yaşantıları, yüksək lirizm və professionallıq harmonik surətdə birləşmişdir. Budur, mədəniyyət hadisəsi barədə daha bir türk oğlunun yaratdığı sənət nümunəsi. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevdən çəkdiyi misal yolun ölkəmiz üçün bütün strateji maraqlarını ortaya qoyur: ”Ümidvaram ki, bu yolda bizim strateji partnyorluğumuz xalqlarımızı firavanlığa və tərəqqiyə aparacaqdır”.

Türk sivilizasiyası Mərkəzi Asiyanın özək sivilizasiyası funksiyasını yerinə yetirmişdir. İstər Uzaq Şərq istiqamətində Yapon və Çin sivilizasiyaları, istər Cənub-Şərq tərəfdə Hind sivilizasiyası və Yaxın Şərqdə İslam sivilizasiyası, Qərb tərəfdən Avropa və Slavyan sivilizasiyaları ilə harmonik münasibətlərin davamlı formalaşdırılması türkün nə qədər ətrafına diqqət kəsildiyinin şahidləriyik. Millət vəkilinin bu ideal fikri professor Mətin Aydoğanın şah əsəri ”Türk sivilizasiyası”- nda necə də əks-sədasını tapır: ”Tarixdə heç bir toplum türklər qədər dünyaya açılıb geniş məkanlara yayılmadı. Heç bir toplum özünü və münasibət qurduğu cəmiyyətləri türklər qədər dəyişmədi. Heç bir toplum tarixin irəliləyişi üzərində türklər qədər təsiredici olmadı, öz zamanına və gələcəyə yön vermədi...”




Multikultural dəyərləri qorumaq, onlara sədaqət türk epos və dastanlarının da başlıca mövzusuna çevrilmişdir. Bu zaman dastan qəhrəmanının milli kimliyi əsas götürülməyib. ”Dədə Qorqud”, ”Koroğlu”, ”Manas” kimi eposlarda kifayət qədər başqa xalqların nümayəndələrinin adları sadalanır. Məsələn, ”Koroğlu”da Gürcüoğlu Məmməd, Tanrıtanımaz, Kürdoğlu və başqa obrazlar söylədiklərimizə haqq qazandırır. Milli-bəşəri dəyərlərin nə qədər önəm daşıdığını təsdiqləyir.

İndi suveren ölkə Azərbaycan nəinki Türk Dövlətləri Birliyində, eyni zamanda bütün dünya gündəmində multikültürallığı ilə ad qazanıb: etnik və dini azlıqların bu bərabərhüquqlu məkanı xoşbəxt diyardır. Heç bir dinin nümayəndəsi özünü başqasından üstün saymır. Bu birliyi, bərabərliyi Azərbaycan dövləti yaradıb. Birgəyaşayış normaları, mənəvi özünüdərk, hamıya eyni gözlə baxmaq millətimizin canındaqanındadır. Necə deyərlər, Azərbaycan türkünün ruhundadır...

Avrasiyanın bütövlüyünün təminatçısı ucsuz-bucaqsız Asiya və Avropa əraziləridir. Sözsüz, ta qədimdən türk qılıncı Domokl qılıncı kimi həmişə istilaçı dövlət rəhbərlərinin (kralların, şahənşahların, xaqanların, sultanların) başı üstündən əskilməmiş və onların cızığından çıxmaması naminə bu qədim silah parlaqlığını itirməmişdir. Kitabın ”Avrasiyanın İnkişaf Perspektivləri və Türk Dövlətləri” fəslində (III bölüml) dediyimiz məsələlər əhatəli şərh olunur, kifayət qədər fakt və rəqəm, olay və baş vermiş mücadilə, münaqişə münasibətlərə yer qoymur. ” Avrasiyaya sahibsənsə, demək, bütün dünyanı idarə edirsən” məntiqinin reallığını tam ciddiyyəti ilə qəbul etmək üçün müəllifin bu tarixi fikrinə dönə-dönə haqq qazandırmaq gərəkdir: ”Avrasiya müharibə və sivilizasiyaların, qan və idrakın, qılınc və qələmin bir-birinə göz açmağa imkan verməmiş bir meydan”. C. Feyziyevin bu mövzuda daha bir istinad elədiyi nöqtə İngilis coğrafiyaçısı və geopoliti, akademik Halford Makkinderin nəzəriyyəsi məğzi bundan ibarətdir ki, tarix boyu beynəlxalq siyasətin hegemonları ”dünyanı idarə etmək üçün” yəqin ”Avrasiyanı idarə etmək” planı üzərində düşünür və addımlar atırlar.

**Bütövlükdə Qafqaz və müasir Azərbaycan daim münaqişələr mərkəzinə çevrilmişdir. Məşhur Qumilyov öz elmi məqalə və etnogenez haqda fəlsəfi traktlatlarında belə Türk tayfalarının qədim dünyada rolunu şişirtmədən qiymətləndirmişdir. O, hətta Asiya ilə Avropanı birləşdirən geopolitik məkanın açılması və bütövləşməsi naminə ”Qafqaz səddi”nin açılmasına görə VII əsrdə bu regionda bir çox dövlətlərin və xalqların iştirak etdiyi, lakin sonda məhz türklərin qələbə çaldığı ”dünya müharibəsinin” baş verdiyini yazır. Hun-türklər, xəzərlər, qıpçaqlardan sonra türklər Qafqaz uğrunda müharibəyə başlayırlar. Yeri gəlmişkən, onlar tutduqları Kür-Araz boyu torpaqların əhalisinə vergi sistemi tətbiq edir, Xəzərətrafı regionda möhkəmlənməyə üstünlük verirlər. Beləliklə, turançılığın əsası qoyulur. Şübhəsiz, qismət bəxtəvərliyidir ki, sabiq qırmızı imperiyadan qopan türkdilli respublikaların bir çoxları həmsərhəd ölkələrdir. Azərbaycanın Xəzər dənizi vasitəsilə Türkmənistanla və Qazaxıstanla su sərhədləri mövcuddur. Həmçinin Orta Asiya ölkələri iç-içə bərqərardırlar, əsasən qurudan bir-birini tamamlayırlar. Səhra və yarımsəhra iqlimləri Türkmənistana (Qaraqum, Ağcaqum), Qazaxıstana məxsusdur, ərazisindən üç çay axan (Sır-Dərya, Amu-Dərya və Zərəfşan) Özbəkistan məhsuldar, münbit torpaq ehtiyatına malikdir. Belə yaxın qonşuluq elə düşmür, bu Allahın türk qövmünə, ulusumuza lütfüdür. Çünki dinc yaşamağı üstün hədəf edən türksoylu xalqları adətən hərbi-siyasi münasibətlər deyil, sağlam adət-ənənələr, kökdən gələn doğmalıq, çağdaş mədəni-kütləvi əlaqələr, iqtisadi-ticarət bağlılıqları birləşdirir. Bizim dinimiz də birdi, dilimiz də. Türk türkə güllə atmır, türk türkün hər eldə, mahalda qeyrətini çəkər. Ona görə əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan sarsılmaz dostluğumuzu Prezident İlham Əliyev canla-başla inkişaf etdirir, əlaqə tellərini bərkidir, möhkəmləndirir.**

(ardı var)

**Ağacəfər HƏSƏNLİ**



*Düzgün ATALI*

# CƏNNƏT VƏDİNDƏN RUHUN AZADLIĞINA

## *Cənnət vədi və insanın bu dünyadakı məsuliyyəti*

**1-ci esse**

**İnsan tarix boyu öz taleyinin mənasını axtarıb. O, ölümün sirrini anlamağa, varlığının məqsədini müəyyənləşdirməyə və gələcək haqqında təsəvvür yaratmağa çalışıb. Bu axtarışlardan dinlər, fəlsəfələr və müxtəlif dünyagörüşləri doğulub.**

İnam insanın ən dərin mənəvi ehtiyaclarından biridir. İnsan yalnız maddi varlıq deyil; o, mənaya, ümidə və mənəvi dayağa ehtiyac duyur. Lakin insanın mənəvi ehtiyacının özü ilə bu ehtiyacın istismarı arasında böyük fərq vardır.

İnam insanı yüksəldə bilər.

Amma inamın istismarı insanı əsarətə də sala bilər.

Tarix boyu bəzi dini təmsilçilər insanın ölüm qorxusundan, naməlum gələcəyə olan narahatlığından və cənnət arzusundan istifadə edərək onun şüuruna təsir göstəriblər. İnsanlara bu dünyadakı həyatın müvəqqəti, əsl səadətin isə başqa bir aləmdə olduğu təlqin edilib.

Beləliklə, insanın nəzərləri yaşadığı dünyadan çevrilib görünməyən dünyaya yönəldilib.

Bu düşüncənin ən təhlükəli tərəfi odur ki, insan tədricən bu dünyadakı məsuliyyətini unuda bilər.

Əgər insanın əsas məqsədi yalnız ölümdən sonrakı səadətə çatmaqdırsa, onda yaşadığı cəmiyyətin taleyi, Vətəninin gələcəyi, millətinin azadlığı və insanlığın problemləri onun üçün ikinci plana keçə bilər.

İnsan öz dünyasını dəyişdirmək əvəzinə, başqa bir dünyanın vəd edilən səadətini gözləməyə başlayar.

Beləliklə, həyatın özü bir məqsəd olmaqdan çıxıb, guya başqa bir həyata keçid vasitəsinə çevrilər.

Bəs insan niyə bu dünyanı dəyişdirməsin?

Niyə öz Vətənində ədalət yaratmasın?

Niyə millətinin gələcəyini qurmasın?

Niyə insanlığın ağrılarını azaltmağa çalışmasın?

Niyə yer üzünü daha gözəl, daha azad və daha mənəvi bir məkana çevirməsin?

İnsanın mənəvi böyüklüyü onun xəyali cənnətə nə qədər yaxınlaşması ilə deyil, gerçək dünyada nə qədər insaniləşməsi ilə ölçülməlidir.

Əsl mənəviyyat insanı həyatdan uzaqlaşdırmamalıdır. Əksinə, onu həyata daha böyük məsuliyyətlə bağlamalıdır.

Əgər inam insanı Vətəninə, millətinə, insanlığa və həyata qarşı daha məsuliyyətli edirsə, o inam insanı yüksəldir.

Amma əgər inam insanı düşünməkdən, sorğulamaqdan, azad seçimdən və real həyatın məsuliyyətindən uzaqlaşdırırsa, onda artıq burada başqa bir məsələ yaranır: inamın istismarı.

İnamın istismarı isə ən təhlükəli hakimiyyət formalarından biridir. Çünki burada insanın bədəni deyil, şüuru idarə olunur.

İnsan qorxudulur.

İnsan ümidləndirilir.

İnsan mükafatlandırılacağına inandırılır.

Və nəticədə onun iradəsi başqasının əlində alətə çevrilə bilər.

Bu zaman dini təmsil edən şəxs mənəvi rəhbər olmaqdan çıxıb, insanın inamı üzərində hakimiyyət quran bir vasitəçiyə çevrilir.

İnam müqəddəs ola bilər, amma inamı satan insan müqəddəs deyil.

İnsanların ən saf duyğularını - ölüm qorxusunu, əbədi yaşamaq arzusunu, cənnət ümidini - şəxsi nüfuz və maddi qazanc vasitəsinə çevirmək mənəviyyat deyil.

Bu, mənəviyyatın kommersiyalaşdırılmasıdır.

İnsanlara cənnət vədi verib, bu dünyadakı həyatlarını əhəmiyyətsiz göstərmək də mənəvi yüksəliş deyil.

Çünki insanın ilk vəzifəsi yaşadığı dünyadan qaçmaq deyil.

İnsanın ilk vəzifəsi yaşadığı dünyaya sahib çıxmaqdır.

Vətən bu dünyadadır.

Millət bu dünyadadır.

İnsanlıq bu dünyadadır.

İnsanın sevinc və kədəri də bu dünyadadır.

Deməli, insanın mənəvi borcu da ilk növbədə bu dünyada həyata keçməlidir.

Əgər insan öz Vətənində haqsızlıq görürsə, ona qarşı çıxmalıdır.

Əgər milləti təhlükə qarşısındadırsa, onu müdafiə etməlidir.

Əgər cəmiyyətində mənəvi gerilik varsa, onu aradan qaldırmaq üçün çalışmalıdır.

Əgər insanlıq əzab çəkirsə, ona biganə qalmamalıdır.

Bütün bunları etmədən, yalnız başqa dünyadakı mükafatı gözləmək insanın mənəvi potensialının tam reallaşması sayıla bilməz.

İnsanın əsl cənnəti bəlkə də onun öz əlləri ilə yaratdığı mənalı həyatdır.

Ədalətli cəmiyyət.

Azad insan.

Ləyaqətli millət.

Mənəvi Vətən.

Bunlar insanın bu dünyada yaratmalı olduğu dəyərlərdir.

Cənnəti göylərdə axtarmaq əvəzinə, insan yer üzünü cənnətə çevirməyə çalışmalıdır.

Çünki insanın böyüklüyü ölümündən sonra nə qazanacağında deyil, ölümündən əvvəl nə yaratdığındadır.

İnsan gedəcək.

Nəsillər dəyişəcək.

Amma yaratdığı mənəvi dəyərlər yaşaya bilər.

Bu mənada insanın əbədiliyi onun öz bədənində deyil, yaratdığı insanlıqda davam edir.

İnsan keçicidir, İnsanlıq əbədidir.

Bəlkə də insanın əsl mənəvi borcu məhz budur: öz keçiciliyini dərk edərək, əbədi olan İnsanlığa xidmət etmək.

Ona görə də biz insanı xəyali cənnətin mükafatçısı kimi deyil, bu dünyanın qurucusu kimi görməliyik.

İnsan öz taleyinin tamaşaçısı deyil.

İnsan öz taleyinin yaradıcısıdır.

Və əgər insan azad düşünə, öz mənəvi iradəsinə sahib çıxa və yaşadığı dünyaya məsuliyyətlə yanaşa bilirsə, onda heç bir xəyali vəd onun ruhunu əsarətə ala bilməz.

**Ruhun azadlığı - insanın ən böyük cənnətidir.**



*Təranə MƏMMƏD*

# Sevda gülü

**20 ildir ki, xaricdə yaşayıram. Bakıdan gedəndə 40 yaşım var idi, ailəli deyildim. Bir qadınla yaxın əlaqəm var idi. İndi ”onu sevirdim” deyə bilərəm, ancaq, o zaman ondan asanlıqla ayrılıb tərk etdim Bakını. Biz bir yerdə yaşamırdıq, ancaq tez-tez görüşürdük. Onunla keçirdiyim ilk gün də yadımdadır. O qadın o qədər incə, sakit, gözəl idi ki, sonralar heç beləsinə rast gəlmədim.**

Söhbətlərimiz çox uzun çəkərdi həmişə. Sonda mən onu evlərinə yola salıb qayıdardım. Bəlkə də biz çox yaxşı dost idik və yaxın əlaqəmiz dostluğumuza, dostluğumuzsa sevgililiyimizə mane olmurdu.Bu qənaətə illər sonra gəlmişəm.

Onunla bir yerdə olanda heç bir məsuliyyət hiss etmirdim. Çünki məndən onunla evlənməyi tələb etmirdi.Biz bir yerdə olanda çox xoşbəxt olurduq.

Adətən qadına görüşəndə gül verirlər. Mən, əksinə, onu evlərinə yola salanda bir qızılgül bağışlayırdım həmişə o qadına.

Özü də ağ gül. Ağ gızılğülü çox sevirdi o.

Bu artıq bir ənənəyə çevrilmişdi. Heç unutmurdum ona gül bağışlamağı. Hər dəfə bu ağ gülə o qədər sevinirdi ki, sanki dünyanı bağışlayırdım ona.

Bakıdan gedəndə o məni təyyarə limanından ötürdü. Heç bir vida səhnəsi olmadı. Bir- birimizlə görüşüb ayrıldıq. O gün mən ona gül bağışlamadım. Bilmirəm nədən, amma o gün o evinə gülsüz qayıtdı.

Bilmirəm niyə bunları xatırladım 20 ildən sonra? Xatirələr belədir. Unudursan, sonra yenə xatırlayırsan. Təbii ki, həmin qadın məni çoxdan unudub. Heç bir əlaqəmiz qalmadı axı. Mən xaricdə başqa bir qadınla evləndim. İndi oğlumun 18 yaşı var.

Bakıya dünən gəlmişəm.

20 ildə şəhər o qədər dəyişib ki, bəzi yerləri heç tanımadım. Çox gözəlləşib Bakı. Bu gün İçəri şəhərə gəldim. Buralarda çox gəzərdim cavanlıqda.

Həmin o qadınla da bura gələrdik çay içməyə.

Budur, yenə həmin daş pillələnlər, daş örtüklü küçələr. Burda da çox şey dəyişib , ancaq ümumi kolorit dəyişməyib.Yeni restoranlar, kafelər ətrafda çoxalsa da buranın özünüməxsusluğunu pozmayıb.

Bayaqdan gəzirəm buralarda. İndi kafelərdən birində oturub çay içəcəm.

Budur, bax , nə qəribə adı var bu kafenin?! ”Sevda gülü”. Lap o ötən günləri xatırlatdı mənə bu ad. O qadın da ağ gülü sevdiyinə görə mənim bağışladığım ağ gızılgülə ”sevda gülü” deyərdi. Gör bir 20 ildən sonra həmin söz nələri xatırlatdı mənə?! O görüşləri, o söhbətləri və hər dəfə ayrılanda o qadına bağışladığım ağ sevda gülünü.

Görəsən o indi hardadır? Evlərinin yerini tapmaram artıq. O vaxt Sovetski deyirdilər o yaşadığı küçəyə. İndi oralardan əsər əlamət qalmayıb.Yəqin indi onun da ailəsi, uşaqları var. Nə isə... ötən günlər geri dönmür heyif ki.

Çox rahat kafedir. Adı da mənə doğmadır. ”Sevda gülü”. Elə burdaca çay içim.

Bəh, bəh! Samovar çayıdır ki bu, kəklik otuyla, darçınla, limon və Bakı mürəbbələriylə. Dünyanın heç yerində çayın belə ətri yoxdur. Lənkəran çayıdır yəqin. İçməklə doymursan bu çayı. Artıq 3 cü stəkandır içirəm. Armudu stəkanda çayın başqa ləzzəti olur!



Canım Vətənim , nə yaxşı ki, burdayam! Oğlumu da bura gətirəcəm mütləq.

İndi isə durum, işim çoxdur,getməliyəm.

Hesabı vermək üçün ofisantı çağırdım. O yaxınlaşıb bir ağ qızılgül uzatdı mənə.

Mən Avropada belə sürprizlərə çox rast gəlmişəm,amma bu ağ gül mənə qəribə gəldi nədənsə.

-Bu mənimdir?- deyə soruşdum.

- Bəli. Biz müştərimiz kafeni tərk edəndə ona bir ağ gül bağışlayırıq. İlk gündən belədir.

- Gözəl adətdir! Niyə məhz ağ gül?

- Bilmirəm. Müdirimiz belə deyib. Gün ərzində bir neçə iri qutuda gül gətiririk və hamısını müştərilərə paylayırıq.

- Müdiriniz qadındır?

- Bəli

- Mən onu görə bilərəmmi?

- Bəli. İndi çağıraram.

Mən yıxılmamaq üçün stuldan tutub dayanmışdım. Müdirin 20 il bundan əvvəl Bakıda qoyub getdiyim qadın olmasına əmin idim.

O asta addımlarla mənə yaxınlaşırdı. Əlbəttə, ötən 20 il öz izini onun üzündə, əllərində, sinəsində qoymamış deyildi, ancaq gözləri həmin gözlər idi.

- Eşidirəm sizi. Nədən narazısınız?- deyə o dilləndi.

Mən yaxınlaşıb onun əlindən tutdum və əlimdəki ağ gülü ona uzadıb:

- Məni tanımadınmı?- dedim.

O susur, mənə baxırdı. Onun baxışlarında o qədər ağır həsrət, inciklik var idi ki. Mənim illərcə anlamadığım, duymadığım bir sevgi də var idi bu baxışlarda.

- Sən gəlmisən?!-deyə nəhayət o dilləndi.

- Hə. Ailəmlə Bakıdayam.

- Nə yaxşı. Çox yaxşı ki, gəlmisən.

- Sən necəsən? Ailən, uşağın varmı?

- Var, bir oğlum var.

- Nə gözəl! Çox sevindim. Oğlunun atasını sevirsənmi?

- Çox! Ondan başqa heç kimi sevmədim.

- Nə gözəl! Mən isə sevmədən evləndim, ancaq çox yaxşı qadındır oğlumun anası. Mənim də bir oğlum var.

- Çox gözəl. Çox sevindim.

- Bu kafenin adı, müştərilərə gül bağışlama ənənəsi mənə o günləri xatırlatdı.

- Hə. Mən isə heç unutmadım o günləri. Çox çalışdım ki, unudum. Unuda bilmədim.

- Ərin də sənə dəstək olub yəqin bu kafeni açmaqda.

- Mən ərə getmədim ki.

- Bəs...?

- Gəl səni oğlumla tanış edim.

O arxaya çönüb mənim adımı çağıranda anladım ki,oğluna mənim adımı qoyub.

Otaqdan hündür, yaraşıqlı bir gənc çıxıb bizə yaxınlaşdı.

Mən stula oturdum, çünki ayaq üstə dursaydım halım pis olacaqdı. Mənə yaxınlaşan oğlan mənim cavanlığımın təkrarı idi.

Bu necə ola bilər axı?

Mən o qadınla dəfələrlə birlikdə olurdum. O mənə heç vaxt hamilə olduğunu deməmişdi. Mən ondan ayrılıb onu unutdum. O isə...

- Tanış ol, bu mənim oğlumdur,- deyə o oğlunu mənə təqdim etdi.

Mən əlimi cavan oğlana uzadanda bədənimdən sanki isti bir cərəyan keçdi. Artıq heç şübhəm qalmadı. Bu cavan oğlan mənim oğlum idi...



**Vaqif YUSİFLİ**
**Filologiya elmləri doktoru**

# YAŞAYAN ŞAİR

## (Nəriman Həsənzadənin xatirəsinə)

**Böyük şairimiz Nəriman Həsənzadə dünyasını dəyişdi.. sözü eşitmək nə qədər ağır-dı.Hamı kimi mən də sarsıldım. Qırx ildən çox idi, onqu tanıyırdım. Ona sənət aləmində müəllimim və böyük qardaşım kimi yanaşır-dım. Mənə deyirdi ki, bilirsən Nizami Cəfərovu və Səni niyə belə çox istəyirəm, çünki siz mənim şeirlərimi və məni ürəyinizin başında-şah damarında yaşadırsınız.**

Nəriman Həsənzadə onun həyatı və poeziyası haqqında ədəbiyyatşünas Salatın Əhmədli ilə birgə "Şeirmizin Nərimanı" adlı kitab da yazmışıq. Məqalələrim də var. Nəriman müəllim günlərin bir günü hansı şairinsə tədbirində mənə "Belinski" dedi. O, bunu söyləyərkən çox ciddi idi, amma bunu böyük şairin zarafatı kimi düşündüm. Mənə "Belinski" deyəndə yəqin ki, həm vücudca Vissarion Qriqoryeviçə oxşadığımı, həm də mətbuatda icmal yazılar və məqalələrlə çıxış etdiyimi düşünübmüş. Böyük şairimizdən eşitdiyim bu tərif aramızda əsl səmimiyyət körpüsü yaratdı. "Belinski" Vaqif Yusifli 2001-ci ildə Nəriman Həsənzadənin dəstəsinə qoşulub onun doğulduğu Poylu kəndinə-Ağstafaya getdi, şairin 70 illik yubiley tədbirlərində iştirak etdi, ürək sözlərini söydylədi. Bu səyahət zamanı o, Nəriman Həsənzadəni bir şəxsiyyət kimi kəşf etdi.

Nəriman müəllim öz şeirlərinə, şeirləri də ona oxşayır. Çox səmimi insan idi. Təbii ki, onun da bu dünyada xoşlamadığı insanlar, xasiyyətlər, hadisələr vardı. Amma mənim müşahidəmə dostlarının sayı-hesabı yox idi. Özü də sənət adamları ilə yanaşı, kəndlərdə, şəhərlərdə adi adamlar, müxtəlif peşə sahibləri ilə tanışlığı, dostluğu vardı. Nəriman Həsənzadəni bu insanlara cəlb edən onun heç bir vaxt üzündən əksilməyən səmimiyyəti və əlbəttə, şeirləri idi.

Nəriman həsənzadə bir əsrə yaxın ömür sürdü. Atasını erkən itirdi, cavan yaşlarında anası vəfat etdi. Gəncədən Bakıya yol aldı, ədəbi-mədəni mühitə qoşuldu. Onu ömrü boyu duyan, sevən insanların əhatəsində oldu. Belə insanlardan biri böyük ədibimiz Mir Cəlal müəllim idi. Onu bir şair kimi kəşf edən də elə Mir Cəlal müəllim oldu. Mir Cəlal müəllim onun "Könlüm şeir istəyir" kitabına yazdığı ön sözdə öz ürək sözlərini çox dəqiqliklə belə ifadə etmişdi: "Nəriman olduqca həssas bir şairdir. O, bir qartalın uçuşunda, bir lalənin duruşunda, bir körpənin baxışında bütün kainatı, ictimai aləmi və mənə dolu həyatımızı görmək istəyir. Nərimanın şeirləri danışıq dilinə yaxın, sadə, səlim üslubu ilə seçilir. Adama elə gəlir ki, bunlar yazılmır, söylənir. Kitabdan, rəsmiyyətdən uzaq, ürəkdən gələn şirin, maraqlı bir söhbətdir. Əlbət ki, bu yalnız şeirlərin şəkli xüsusiyyəti ilə yox, həm də məzmunu ilə bağlıdır Nəriman oxucusunu çoxjanın dostu, tanışı və ürək sirdaşı kimi dindirir".

Gəlin, bir anlığa təsəvvür edək ki, bizim yetmiş illik poeziya və dramaturgiyamızda Nəriman Həsənzadə adlı sevə=sevə oxuduğumuz bir sənətkar olmayıb. Onda bvu yetmiiş illik ədəbi prosesimizdə bir boşluq, bir çat yaranmış olardı. Lirikamızda Nəriman Həsənzadə zərifliyi, incəliyi, epik poeziyamızda Nəriman Həsənzadə dəst-xətti görünməzdi.Şeirimizdə elə nümunələr var ki, onları məhz Nəriman Həsənzadə yaradıb. Mən Nəriman müəllimin poetik yaradıcılığını xarakterizə etsəm, bircə sözün üzərində dayanaram: SEVGİ. Bu sevginin mənbəyi Anadan başlanır, sonra həyatı yarıda qırılmış bir gözəl qadına məhəbbətlə davam edir, get-gedə bu sevginin sərhədləri böyüyür, bir ürəyə sığmır, böyük Azərbaycan sevgisinə dönür, ANA, SEVG/İLİ, VƏTƏN məhəbbəti Dünyaya., Kainata sevgiylə qovuşur.NƏ/RİMAN HƏSƏNZADƏ BU DÜNYAYA SEVGİ PAYLAMAQ, İNSANLARA SEVGİ DÜNYASI BƏXŞ ETMƏK ÜÇÜN GƏLMİŞDİ.Həm də içindəki sevgini insanlarla bölüşməyə gəlmişdi.

***Ağ çiçəklər səpilmişli ü stə çəmənin,***
***elə bildim buludlardan torpaq süd əmmiş.***
***Gülüşünə qərq olubmuş bu dünya sənin,***
***mən bvu səsdən bu dünyada xəbərsizəmmiş.***

***Ürəyimin ən müqəddəs hissləri sənsən,***
***Necə əziz gülüşlərin, doğma səsin var.***
***Məncə, hansı rəssamınsa əsəri sənsən,***
***Sən yeganə şəkilsən kiöz nəfəsin var.***

***Budaqları başım üstə yellər əyirdi,***
***Yerlər, göylər sevincimə göz qoyurdular.***
***Günəş sənin xatirinə gülümsəyirdi,***
***Quşlar sənin xatirinə oxuyurdular.***

***Dünya bir az nağıl idi, bir az həqiqət,***
***Məhəbbətə səsləyirdi bu mənə məni.***
***Belə gözəl, belə qəşəng, belə qiyamət***
***Nə dünyanı mən görmüşdüm, nə dünya məni.***

Səksəninci illərin sonlarında Nəriman müəllimin həyat yoldaşı Sara xanım dünyasını dəyişdi. N.Həsənzadə bütün sevgi şeirlərini Sara xanıma həsr etmişdi. İnsan ən əziz adamını itirəndə ya başına hava gəlir, ya da filosofa çevrilir.



***Dünyada ən böyük itki qadındı,***
***gördüm anamda da, qadınımda da.***
***Evdən, ailədən başlanır Vətən,***
***Qadından başlayır.***
***Qadınsız çətindi həyatı sevmək,***
***Sevgisiz həyat da bir həyat deyil.***

Əlbəttə, bu yazıda mən Nəriman Həsənzadənin dillər əzbəri olan neçə şeirindən, poemalarından söz aça bilərdim. Onun bütün pərəstişkarları, sevimli oxucuları-Mir Cəlaldan, Mirzə İbrahimovdan başlamış ən gənc tədqiqatçılara qədər Nəriman həqiqətlərini elmi şəkildə şərh ediblər . Amma onun yaradıcılığı o qədər zəngin və çoxşaxəlidir ki, yeni tədqiqatlara ehtiyac duyulur.

**1.** Nəriman Həsənzadə lirik şairdir, amma onun lirikasının özəllikləri haqqında çox şey deyilməyib. Onun lirikasında Şair obrazı birinci planda durur. Onun bütün şeirlərində özü görünür. Çünki lirik şeirdə şairin şəxsiyyəti birinci planda durur, biz ancaq onun vasitəsilə hər şeyi qəbul edib anlayırıq .

**2.** Nəriman Həsənzadə tarixi mövzuda poemaların və dram əsərlərinin müəllifiydi. O, dünya və Şərq tarixini və təbii ki, öz xalqının tarixini yaxşı mənimsəmişdi. Ümumiyyətlə, Tarix onun yaradıcıülığından qırmızı bir xətt kimi keçir. Bir xəttin bir ucu XX əsr Azərbaycan həqiqətləri, bir ucu Cənub həsrəti, bir ucu da dünyanın indisindən antik dövrünə qədər keçdiyi yoldur. Bu haqda ayrıca bir tədqiqat əsəri yazılmalıdır.

**3.** Və nəhayət, Nəriman Həsənzadə şeir və poemalarının bədii sənətkarlıq xüsusiyyətləri haqda demək olar ki,çox az söz deyilib. Fərdi üslubu, bu baxımdan bir şair kimi özünəməxsusluğu barədə demək olar ki, çox az məlumatımız var.

**Nəriman Həsənzadə vəfat etdi, Getdi demirəm. Gəldi deyirəm. Çünki onun poeziyası hər dəfə, ədəbiyyatımızın bundan sonrakı bütün dövrlərində-hər yeni nəslin yaddaşında yaşayacaq.**

**Bəlkə yüz ilim var hələ qabaqda.**



**Sevil AZADQIZI**
Ədəbi təhlil-tənqidçi

# İKİ ŞEİRƏ BİR NƏZƏR

### "AĞRININ ŞEİRİ"

***Gecənin ağırlığı***
***Çiyinlərimdən basır,***
***Allah məni bu gecə***
***Ayaqlarımdan asır-***
***BULUDDAN...***

***Ulduz axır, gözümün***
***Pərdəsinə toxunur,***
***Pıçıltılarım zilin***
***Pərdəsində oxunur -***
***UMUDDAN...***

***Açıq qalan əllərim***
***Gecəni səssiz didir,***
***Göyərən ümidlərim***
***Deyir, tay gecə bitir -***
***UMUDLAN!!!***

Şerin bədii təhlili:

Əbülfət Mədətoğlunun bu şeirii insan ruhunun qaranlıq, tənhalıq və ümid arasındakı çarpışmasını simvollarla ifadə edən dərin fəlsəfi-lirik nümunədir. Müəllif fiziki reallıqla metafizik dərəcədə böyüyən daxili iztirabları ustadcasına birləşdirir.



Əsərin əsas ideyası insanın ən dözülməz mənəvi ağrılardan keçərək işığa və sabaha inanmasıdır. Gecə simvolu: Şeirdə "gecə" sadəcə sutkanın bir vaxtı deyil, insanın ruhunu sıxan bədbinlik, tənhalıq və suallar dünyasıdır. Şair insanın acılar vasitəsilə təmizləndiyini və göylərə yaxınlaşdığını göstərir. "Gecənin ağırlığı çiyinlərimdən basır...":

Müəllif ilk misradaca mücərrəd bir məfhumu (gecəni, kədəri) konkretləşdirir, ona fiziki ağırlıq verir. "Allah məni bu gecə Ayaqlarımdan asır BULUDDAN!..":

Bu şeirin ən güclü və orijinal təsviridir. Ayaqdan asılmaq cəza və işgəncə elementidir, lakin bu asılma yerə deyil, buluda doğrudur. Şair çəkdiyi əzabla sanki göylərə ucalır, yerin cazibəsindən və maddi sıxıntılardan qopur.

"Ulduz axır gözümün Pərdəsinə toxunur...": Kosmik bədii təsvirdir. Kainatdakı hərəkətlə insanın daxili hissləri birləşir. Ulduzun axması ümidin qığılcımı kimi insanın birbaşa gözünə, ruhuna toxunur. "Gecəni səssiz didir...":

Dua və ya imdad üçün açılan əllər, qaranlığı parçalayan, səssizliyi yaran bir silaha çevrilir. Şair sözlərin səslənməsi və yazılışı

Şeirin sonunda söz həm böyük hərflərlə yazılır, həm də nida işarələri ilə bir əmrə, çağırışa və səs-küyə çevrilir. Göyərən ümidlər artıq pıçıltı deyil, gecənin bitdiyini müjdələyən güclü bir nəriltidir. Şeir qısa misralarla yazılıb və bu, oxucuda sürətli ürək döyüntüsü, təlaş və gərginlik hissi yaradır.

Müəllif qaranlıq (gecə) ilə işıq (ulduz, göyərən ümidlər, tay gecə bitir) arasında kəskin kontrast quraraq təsir gücünü artırır.

Beləliklə, bu şeir insanın qaranlıq sınaqlardan keçərək öz daxili işığını - Ümidini tapmasının poetik manifestidir. Müəllif bədbin sətirlərlə başladığı şeiri oxucunun ruhuna işıq salan böyük bir nikbinliklə tamamlayır.

### ƏHVALIMIN ŞEİRİ"

***Gözlərimlə çiçəkləri dərmişəm***
***Gözümə bax, gözlərinə köçürüm...***
***Gözlərimi kipriyinə bənd elə -***
***Gözümdəkin gözlərindən keçirim!!***

***Dolaşıram yer üzünün sətini***
***Yol tapmaqdı dünyada ən çətini...***
***Bulaqların, çeşmələrin mətini -***
***Gözlərimdən gözlərinə içirim!***

***Hay -harayım bulud sığıb - şeh səpir***
***Bu tıncığan ürəyimə meh təpir!***
***Gecə, gündüz deyə-deyə "Ya səbir!"-***
***Mən də sənin yar boyuna biçilim!***

***Çətin deyil hal soruşub, hal tutmaq***
***Keçib getdi , o köhnə dəb - şal tutmaq!***
***Qismət deyil Əbülfətə bal tutmaq -***
***Qoyma ki , ta barmaq -barmaq kiçilim!***

Şeirin bədii təhlili:

Əbülfət Mədətoğlunun "Əhvalımın şeiri" misraları lirik qəhrəmanın daxili dünyasını, səmimi sevgisini və həyat fəlsəfəsini əks etdirən təsirli bir nümunədir. Şeirin əsas mövzusu məhəbbət, ruhsal yaxınlıq və insanın dünya ilə olan daxili ziddiyyətləridir.

Müəllif fiziki təmasdan daha çox, ruhların və baxışların qovuşmasını, yəni "Gözümdəkin gözlərindən keçirim!" ön plana çəkir.

Eyni zamanda, həyatın çətinlikləri qarşısında dözüm və səmimiyyət axtarışı şeirin ana xəttini təşkil edir.

Şair hisslərini oxucuya daha dərindən ötürmək üçün zəngin bədii vasitələrdən istifadə edib: "Gözlərimlə çiçəkləri dərmişəm", "Bulaqların, çeşmələrin mətini... içirim" ifadələri poetik obrazlılığı artırır. Baxışların çiçək kimi dərilməsi sevgilinin gözəlliyinə heyranlığın bədii ifadəsidir.

"Gecə, gündüz" qarşılaşdırması zamanın sonsuz axarını və bu axarda yaşanan daxili narahatlığı göstərir. "Gözümə bax, gözlərinə köçürüm..." misrasındakı müraciət şeirə canlı dialoq ab-havası verir.

**Son bənddəki "Qoyma ki, ta barmaq-barmaq kiçilim!" harayı isə lirik qəhrəmanın mənəvi kiçilməkdən, tükənməkdən qorxduğunu emosional şəkildə ifadə edir. Şeir klassik aşiqanə üslubla müasir lirik təfəkkürün sintezidir. Müəllif "şal tutmaq", "bal tutmaq", "ya səbir" kimi xalq inanclarından və idiomlarından məharətlə istifadə edərək əsərə milli ruh və təbiilik qazandırıb. Dili axıcı, sadə və eyni zamanda dərindir. Əsər heca vəznində, 8-lik heca ölçüsündə yazılıb. Qafiyə quruluşu və daxili ritm lirik qəhrəmanın həyəcanını, ürək döyüntülərini uğurlu şəkildə əks etdirir.**



# BAYAT



№ 93 (953)

# BİR SÖZDƏNƏM



BARAT VÜSAL

## ƏBƏDİ NƏĞMƏ

Bülbül köçdü, gül soldu,
Yer yenə gül qoxudu.
Qonub çəpərin üstə
Qaratoyuq oxudu.

Oxudu ana torpaq,
Şaxtasıyla, qarıyla.
Bahar arzularıyla,
Nəğmə arzularıyla.

Oxudu çəpər belə,
Daş da həvəsə düşdü.
Haradasa bülbülün
Qulağı səsə düşdü.

Eşidirəm torpağın
Ürəyinin səsini,
Burda qoyub gedibmiş,
Yurda qoyub gedibmiş,
Bülbül öz nəğməsini!

## BİR SÖZDƏNƏM

Burda -doğma qazaxdanam,
Orda-Muğan düzündənəm.
Bir vaxt Xızır gəlib içən
Bir çeşmənin gözündənəm.

Şahdağımda qara baxın,
Göyçayımda nara baxın.
Kəlbəcərin, Qarabağın,
Odundanam,közündənəm.

Şəki,Şirvan,Balakənim,
Lənkəran,başına dönüm!
Ay laləli Gəncəm mənim,
Bir az da nərgizindənəm!

Ya Zəngəzur obasından,
Ya da ki,"Qız qalası"ndan,
"Qubanın ağ alması"ndan,
Naxçıvanın duzundanam!

Daşkəsən qaya beşiyim,
Gədəbəy, qoyma üşüyüm!
Göy gölüm küsməsin,deyim-
Nurundan- güzgüsündənəm!

Vurulmuşam təbiətə-
Doqquz iqlimli nemətə.
Bax,yüz çüngə,yüz lüğətə,
Azərbaycan sözündənəm!

## FƏRQ

(Yurdu düzdə qoyanlara)

Axşamdan
sabahacan,
sabahdan axşamacan
mənim qəlbim inləyir,
ancaq bircə söz deyir:
-Vətən!
Vətən!
Vətən!
Vətən!..
Ey nadan oğlu, nadan,
Səninsə qəlbin hər an
Elə vurur vurmadan,
Elə deyir durmadan:
-Bə mən!
Bə mən!
Bə mən...
Bə mən?!..

## OX ÜZLÜ DƏMİR

"Əsir kəndlərimiz" silsiləsindən

Qazaxda, köhnə bir yol ayrıcında
Üstə "Əskipara" sözü yazılmış
Ox üzlü bir dəmir parçasına bax,
Deyir, kim kişisə arxamca gəlsin,
Hələ əsl döyüş indi olacaq!

Qorxursan sözünə əməl etməyə,
Ya bəlkə baxmağa sən o dəmirə.
İnsafsız, sən məhəl qoymursan niyə
O dediyi sözə, verdiyi əmrə?!

Görmək istəmirsən bəlkə sən onu,
Yoxdumu insafın, dönüb baxsan bir!
Bir az oxşanası, öpüləsidir,
Bir az əyilməyi nəyi göstərir,
Bir az paslanmağı nəyi göstərir?!

Üstə "Əskipara" sözü yazılmış
O dəmir parçası söyləyir nələr:
"Qorxursan, səni də o bizim olmuş
"Şöytəli bağı" nda güllələyərlər?!"

Görmürsən sən onu, görmə, a naşı,
Sanma ki, adicə ox şəklidir o.
Bir xalqın qəlbində düşmənə qarşı
Tuşlanmış silahın "yox!" şəklidir o!

Köhnə yurd yerinə səmtlənib, odur,
Bir xalqın nifrəti bir ox olub, ox!
Olsun ki, nəyləsə sən barışarsan,
O dəmir parçası "yox!" söyləyir, yox!"

Köhnə, iti uclu qələmimizdi,
Hazıram söyləyir ölümə, hazır!
Əyirlər, döyürlər, deyirlər ki, sən
Öz ölüm hökmünü ərz etməlisən,
Osa "Əskipara" sözünü yazır!

Qazaxda burulub dağlara doğru,
Yüyürüb dırmanır "Odun dağı"na.
Oradan hamıya papaq eyləyir,
Hamını çağırır öz ocağına.

Dayanıb səslənir "Odun dağı"ndan:
-Bir görün, nə qədər papaq yığmışam,
Bir görün əlimdə harmada qalmış,
Neçə papaq var!
Hamı arxayınsa öz papağından,
Bu papaq kimindi, ay papaqlılar,
Bu papaq kimindi, ay papaqlılar!

Əyilib, döyülüb, xışdanıb, qalıb,
Oz üzlü bir dəmir göz dağıdımı?!
Düşmənin gözünə tuşlanıb qalıb,
Vətənin yaralı barmağıdımı?!

Hələ də dönməyib öz inadından,
Çıxmayıb olanlar yadından onun.
Hərdən istəyirəm yüyürüb öpəm,
Qaçqın olanların adından onu,
Köçkün olanların adından onu!

...Keçir saymazyana kişilər, nəsə,
Tanımır anamı, görmür bacımı.
Baxıb güləcəklər, qorxuram, öpsəm
O dəmir anamı, dəmir bacımı!

İnsan susa bildi, kiriyə bildi,
Yurdunu itirən dinəydi gərək.
Dəmir bir yazını qoruya bildi,
Dəmirlərin böyük sərkərdəsi tək.
(Sadəcə dayanıb durmur yol üstə,
Dəmir üzümüzə tüpürür demək!)

Çıxıb yolumuzdan, yolağımızdan,
Uyuyub yatırıq,
uyuyub yatır...
Oz üzlü bir dəmir qulağımızdan
Yapışıb dartır ki, yol bu yandadır!

Dərdə əyilirmiş eh, insan, gördüm,
Qaçırmış itirib doğma yurdunu,
Qaçırmış itirib yar-yoldaşını.
Ox üzlü dəmiri qəhrəman gördüm,
Ox üzlü dəmirə əydim başımı!

Ox üzlü dəmirin başına dönüm,
Ox üzlü dəmirin gözünə dönüm!
Allahım, aman ver, imkan ver mənə,
Ox üzlü dəmirin özünə dönüm!

...Qalxıram yuxudan birdən-birə mən,
Bir ömür aldığım bir əmrə dönür!
Baxıram ox üzlü bir dəmirə mən,
Dərdimin azını göstərir mənə,
Dərdimin çoxunu göstərir mənə,
Düşməni-yağını göstərir mənə,
Gözümdə göz yaşım dəmirə dönür!

## HƏNDƏVƏR

Həndəvər söyləmə hər həndəvərə,
Nə vardı yatmayıb, it hürsə idi.
At var-həndəvəri ərlər, ərənlər,
İt var -həndəvəri it kürsəyidi.

Minib öz atını çap, o ki, var, çap,
Rast gəlmə nə uçrum, nə döngələrə
Özünə sən başqa bir həndəvər tap,
Hərrənmə sən başın, bu həndəvərə!

Həndəvər olarıq mində birimiz,
Yerdə qalanımız bəndə felləri.
Dağlardı, daşlardı həndəvərimiz,
Bəs nədi dağ-daşın həndəvərləri?!

Ey vətən,deyirəm haqqı qalıbmı
Hər bəndə deyənə bəndə deyəm mən?
Nə başlar qopmadı çiyinlər üstən,
Nə yellər əsmədi həndəvərindən?!

Elə istəyirəm, bəndə deyilik,
Torpağıq, deyim mən, daşıq, deyim mən.
Ruhumla bu yurdun həndəvərində
Gecə də, gündüz də keşikdəyəm mən!

Gəl demə, biz indi güvənək kimə,
Sən dayan, dur görüm, a həndəvər,bir...
Şəhid qəbirləri bəs nədi, bəs nə?
Sən deyən, mən deyən həndəvər deyil?!

Dünyada nə qədər həndəvərlər var,
Çaqqal həndəvəri, qurd həndəvəri...
Adamlar belinə kəmər taxırlar,
Yoxsa olmaq üçün yurd həndəvəri?!

Əsibdi, coşubdu bir qarı yenə,
Baxmır nəvəsinə kim vurulubdu.
Deyir, bir də qızın həndəvərinə
Hərrənsən, ölmüsən ay köpəyoğlu!

Necə saraldıblar gör aşiqləri,
Demirlər, sevənlər mində birdilər.
O qədər qına ki, sarmaşıqları,
Bunlar da bu təhər həndəvərdilər!

Canda canımız yox, qəmdə yerimiz.
Bəlkə biclik edək,
fəndə əl qoyaq?!
Boşalıb... boş qalıb həndəvərimiz,
Bəlkə adımızı həndəvər qoyaq?

...Bəndəlik eyləsin bəndələrə, de,
Sıra nəfərləri hər nəfər olmur.
Gəl, az həndəvərəm, həndəvərəm, de,
Həndəvər sözündən həndəvər olmur!

## MEHMAN DAYIYA MƏKTUB

(Qərbi Azərbaycan torpaqlarını düşünərkən)

*"Qarşu yatan qarlı dağı sorar olsan, atam Begrəgin yaylasıydı".*

*"Kitabi-Dədə Qorqud" dastanından*

Sordunmu kefini bizim dağların,
Olmaya quruca adı qalıbdı?
Üstünə endiyin "Qıt bulağı"nın
Çoxmu damağında dadı qalıbdı.

"Əlyetməz", "Naltökən" bizim dağlardı,
Tək qalıb döyükən bizim dağlardı.
Gözləri yol çəkən bizim dağlardı,
Ocağı sönsə də odu qalıbdı.

Neyləyir "Çayqoşan", "Ağbuğa çayı",
"Turşbulaq", "Daşbulaq"- o ekiz tayı?
Hayıf, o dağlardan, a Mehman dayı,
Köçüb çox doğması, yadı qalıbdı.

"Haçatəpə" dənmi saldın yolunu?
Tökdümü "Dəlidağ" yenə dolunu?
Gəzdimi babamı, Seyidoğlunu?
Yorulub yollarda atı qalıbdı.

Kövrəlib dedinmi "ay anam-atam",
Keçəndə "Sarıyal", "Qızılqaya"dan?
Bir yol "Ceyli yurdun" qoynunda yatam,
Duya, ürəyimdə dərdi qalıbdı.

Tale yazdığını bir daha yazmaz,
Bizi o yaylaqlar bağrına basmaz.
Sən görən gözəllər yelləncək asmaz,
Budaqda qırılmış çatı qalıbdı.

Köhnə kişilərin azdı duranı,
Yoxdu köç gedəni, dəyə quranı.
Allah viran qoysun belə dünyanı,
Gör bir nəyi-xatiratı qalıbdı.

O dağlar başında dinən kimdi, kim?
O dağlar başından enən kimdi, kim?
Kimdi o dağlardan dönən, kimdi, kim?
Ürəklərdə elin andı qalıbdı.

Xəyalım dolaşır el yaylağında,
"Alpaşa talası", "Daşdaş dağı"nda,
Köhnə kişilərin od-ocağında,
Nə yaxşı ki, öz Baratı qalıbdı!

* * *

Qoymadım yolundan çıxa,
Yola çağırdım adımı.
Düşmənimə bəlayamsa,
Bala çağırın adımı!

Kənardan baxmayır daha,
Yurd üçün çağlayır daha,
İçimə sığmayır daha,
Çölə çağırın adımı!

Lazım olmasa bircə an,
O saat çıxarın yaddan,
Yaşadıqca Azərbaycan,
Hələ çağırın adımı!

**Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə 44 günlük "Vətən Müharibəsi"ndə qazanılmış tarixi qələbə, Ermənistan tərəfindən törədilmiş sülh və insanlıq əleyhinə cinayətlər, habelə müharibə cinayətləri ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması**

№ 31 (2503) 21 avqust 2026-cı il

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

# HƏR QAYADA BİR ŞƏHİD QANI



**Bu yaxınlarda yolum Qarabağa düşmüşdü, Füzuliyə düşmüşdü, Şuşaya düşmüşdü, Xankəndinə düşmüşdü, Laçına düşmüşdü, Zəngilana düşmüşdü, Qubadlıya düşmüşdü, Cəbrayıla düşmüşdü. Və tək deyildim. Yanımda 40 illik dostum Arif qardaşım və bir də oğlum idi. Oğluma demişdim ki, nə vaxt vaxtım və imkanım olanda səni Qarabağa aparacam. Hərçənd ki mənim özüm də qarabağlıyam və tez-tez Bəhmənliyə gedirəm. Amma Füzuli şəhərinə rayon işğaldan azad olunandan sonra getməmişdim. Ən azından ona görə ki, kimlərsə məni ora gedəndə dəvət etmir, özüm də bir qədər tənbəllik edirdim. Axır ki şeytanın qılçını sındırdım və əzizlərimlə bir yerdə işğaldan azad olunmuş yurd-yuvamıza, elimizə-obamıza üz tutduq.**



Oğlum Füzulini görəndə həm təəccübləndi, həm də sevindi. Dedi ki, ata, bu yanmış evlər hansı kəndlərdir? Onu da xatırladım ki, biz yeni salınmış Bəhmənli-Füzuli-Şuşa yolu ilə gedirdik. Üstəlik də bu yol ən müasir standartlara uyğun inşa edilib və hər cür infrastruktur mövcuddur. Ödənişli yol olduğu üçün bu yolda o qədər də nəqliyyat vasitəsi yox idi. Oğlumun sualına cavab verdim ki, o yanmış kəndlər Aşağı Seyidəhmədli və Yuxarı Seyidəhmədlidir. Avtomobilin pəncərəsindən çox həsrətlə oğlum o kəndlərə sarı boylandı. Amma uçuq, yanmış evlərdən, xarabalıqdan başqa heç nə görmədi. Gördüm ki, uşaq çox kövrəlib və hətta ağlamaq istəyirdi. Ona təsəlli olaraq dedim ki, düzdür, ermənilər yurd-yuvamızı tar-mar ediblər, apardıqlarını aparıblar, aparmadıqlarını bax, beləcə xarabalıqlara çeviriblər. Görürsən, o yerləri ot, kol-kos basıb.

Oğlum ikinci sualı verdi:

- Ata, yəqin orda minalar var, ona görə də insanları ora buraxmırlar. Biz ora gedə bilərik?

- Dedim ki, yox. Birincisi, biz magistral yolla hərəkət edirik, ikincisi də, həmin yerlər təhlükəli zona olduğu üçün heç kimi ora buraxmırlar. Amma darıxma, beş-on dəqiqədən sonra Füzuli şəhərinə çatacağıq.

Beş-on dəqiqə keçdi, artıq biz Füzuliyə çatdıq. Yeni tikilmiş binaları, sosial obyektləri və digər yaşayış evlərini görəndə oğlumun çöhrəsinə sevinc hopdu. Dedi ki, ata, Füzuli şəhərini nə gözəl tikiblər. Bir-birindən yaraşıqlı evlərə, asfalt yollara və digər tikililərə baxanda adamın ürəyi dağa dönür.

Bir xeyli Füzulidə dayanırıq, bulaqdan su içirik. Bumbuz sudu, belə su ancaq Qarabağda olar. Təzədən yolumuza davam edirik. Bir-birindən möhtəşəm doqquz tunel tikilib. Şuşaya qədər bu tunelin hamısından keçirik. Tunellərdə rəngarəng işıqlar göz oxşayır, üstəlik də ən müasir havalandırma sistemi mövcuddur. Orda bir sərinlik var ki, sanki dağ havasıdı. Gəlib o tunelləri keçəndən sonra Şuşaya çatırıq. Oğlum birinci deyir ki, mən Cıdır düzünə getmək istəyirəm. Çünki o Cıdır düzünü ömrüm boyu görməmişəm. Ancaq televizorda görmüşəm və bir də sənin söhbətlərindən eşitmişəm.

Bu da möhtəşəm Cıdır düzü. Yay olmasına baxmayaraq, yaşıl otlar adamın topuğuna qədərdi. Bura cənnətə bənzəyir. Hər tərəf yaşıllıqlar içindədir. Oğlum iki daşın arasında Arifə deyir ki, atamla mənim şəklimi çək. Arif şəklimizi çəkir. Sol tərəfdə bir səhnə qurublar, burda da çoxlu sayda gənclər, tələbələr var, ansambl da var. Bir müğənni "Qarabağ şikəstəsi" oxuyur. Elə bil ki Xanın səsi Cıdır düzünə yayılıb. Səpsərin, çox gözəl bir hava var. Bu havadan doyunca ciyərlərimizə çəkirik. Oğlum diqqətlə Cıdır düzündən qayalara baxır. Qayaların qoynundakı meşələrə diqqət yetirir. Bax, bu qayalarda, bu torpaqlarda, bu meşələrdə hər yanda bir şəhid qanı var. Hər yanda şəhidlərimizin 44 günlük İkinci Qarabağ savaşında qəhrəmancasına döyüşən əsgərlərimizin, qazilərimizin, qalibləimizin ayaq izləri var.

Bir anlıq onların döyüş səhnələri gözüm önündə canlanır. Bu qayanı necə dırmaşıb Cıdır düzünə qalxmaları film kimi gözümün önündə canlanır. Hansısa bir Azərbaycan əsgəri əlini yelləyərək arxadan gələn igidlərimizi irəliyə səsləyir və onlar da bir-birinə söykənərək aslan kimi, pələng kimi yağı düşmənin üstünə yeriyir. Nə o yağı düşməndən qorxur, nə də ölümdən.

Ölümün üstünə hər əsgər gedə bilməz, ancaq Azərbaycan əsgəri gedə bilər. Və 44 günlük böyük Qarabağ savaşında Azərbaycan əsgəri düşmənin üstünə getdi, onları it kimi gəbərtdi.

Arif dostum Laçınla Şuşanın arasında yeni inşa edilən yolu göstərərək deyir ki, bizim əsgərlər bax, bu yolda ermənləri mühasirəyə salmışdılar, iki yüzdən çox əsgərlərini, zabitlərini məhv etmişdilər. Bununla yanaşı, bu yolda onların çoxlu sayda tankları, ağır texnikaları Azərbaycan ordusu tərəfindən sıradan çıxarılmışdı.

İkinci Qarabağ savaşında Azərbaycan ordusu torpaqlarımızın azad olunması uğrunda 3 min şəhid verdi. Bu şəhid adi şəhidlər deyildi, 3 min aslan idi onlar. Onlar Şuşanı fəth etdilər, Hadrutu fəth etdilər, Füzulini fəth etdilər, Cəbrayılı, Zəngilanı, Qubadlını fəth etdilər. Sonra da bu igid oğulların qorxusundan ermənilər söz verdikləri vaxtda Laçını və Kəlbəcəri tərk etdilər. Bütün bunlar hamısı qüdrətli və güclü Azərbaycan ordusunun hesabına qazanıldı. O ordu ki, hamısı Ali Baş Komandan, prezident İlham Əliyevin ətrafında bir yumruq kimi birləşdi və həmin Dəmir Yumruq erməni ordusunun başına necə endirildisə, onlar özlərini itirdilər, məhv oldular. Qaçan qaçdı, qaçmayan da öldürüldü.

**Yenə o qayalara, o sıldırım yüksəkliklərə, qartalların qıy vurduğu zirvələrə baxıram. O zirvələrdə bu gün də qartallar gəzir. O qartallar 44 günlük İkinci Qarabağ savaşında böyük qələbə qazanmış şəhid oğullarımızın ruhlarıdır, qartala dönüb Qarabağımızda yüksəkliklərdə dolaşırlar. O dağlarda, o çiçəklərdə və o otlarda, o güllərdə şəhidlərimizin qanının ətri, qoxusu gəlir. Çünki onlar çiçək kimi, gül kimi, palıd, çinar kimi yenidən torpaqdan boylanırlar.**

**Emil FAİQOĞLU**

AZƏRBAYCAN RESPUBLİKASININ

MEDİANIN İNKİŞAFI AGENTLİYİNİN MALİYYƏ YARDIMI İLƏ

# Türkiyədə yayın dadı yalnız dənizdə deyil, süfrədə də yaşanır

**Türkiyədə yay istirahəti təkcə çimərlikdən ibarət deyil. Bu mövsümün əsl ruhu dəniz kənarında qurulan süfrələrdə, yerli mətbəxin zəngin dadlarında və ailə ənənələrini yaşadan yeməklərdə hiss olunur.**

Müasir səyahətçilər artıq yalnız "Hara gedim?" sualını vermirlər. Onları eyni zamanda "Getdiyim yerdə nə dadmalıyam?" sualı da maraqlandırır. Bu yay dünyada sürətlə yayılan "nonna-stalgia" trendi - ev ab-havasında hazırlanan, səmimi və ənənəvi ailə yeməklərinə artan maraq - Türkiyənin ev mətbəxini yay istirahətinin ən cəlbedici hissələrindən birinə çevirib. İstanbulun balıq bazarlarından Bodrum və Antalyanın sahil meyxanalarına, Anadolunun nənələrin reseptlərini yaşadan mətbəxlərinə qədər ölkənin zəngin kulinariya irsi günəş, dəniz və tarixi bir araya gətirən istirahətə fərqli rəng qatır.

Son araşdırmalar da bu tendensiyanı təsdiqləyir. Nəticələrə əsasən, bu yay insanların ən çox üstünlük verdiyi asudə vaxt fəaliyyəti səyahət və turizmdir (79%). Qida və kulinariya ilə bağlı təcrübələr (70%) ikinci, açıq havada keçirilən fəaliyyətlər isə (69%) üçüncü yerdə qərarlaşıb.

Bu gözləntiləri Türkiyə qədər uğurla qarşılayan ölkələr azdır. Dünyanın ən zəngin kulinariya ənənələrindən birinə sahib olan ölkə yay mövsümündə qastronomiyasının daha yüngül və təravətli tərəfini nümayiş etdirir. Təzə mövsümi məhsullar, zeytun yağı, ətirli göyərtilər və təzə dəniz məhsulları yay süfrələrinin əsasını təşkil edir. Soyuq şorbalar, zeytun yağında bişirilən tərəvəzlər, rəngarəng salatlar və ev üsulu hazırlanan içkilər isti günlərdə həm sərinlik, həm də fərqli dad təcrübəsi təqdim edir.

İstər Türkiyənin Egey sahillərində və Türk Rivyerasında dəniz kənarında dincələn, istər qədim Anadolunun zəngin mədəni irsini kəşf edin, istərsə də Qara dəniz bölgəsinin sərin dağ havasına üz tutun - Türk yay mətbəxi hər səyahətə xüsusi ləzzət qatır. Bu dadlar dəniz kənarında keçirilən günün alternativi deyil, onu tamamlayan ən gözəl təcrübələrdən biridir. Yay mövsümündə süfrələrin bəzəyinə çevrilən saysız-hesabsız yeməklər arasında ayran aşı Türkiyənin ən təravətləndirici kulinariya ənənələrindən biri kimi seçilir. Bu soyuq şorba sadə ərzaqlarla hazırlansa da, isti havalarda ən çox üstünlük verilən yay yeməklərindən hesab olunur. Şərqi Anadoludan gələn bu ənənəvi təam qatıq, noxud və buğda ilə hazırlanır. Bölgəyə səyahət edənlər üçün mütləq dadılması tövsiyə olunan ayran aşı artıq təkcə doğulduğu bölgədə deyil, İstanbul kimi böyük şəhərlərdə fəaliyyət göstərən ənənəvi restoranların menyusunda da yer alır.

Yay naharı üçün yüngül və doyumlu seçim axtaranlar üçün zeytun yağlı yeməklər ideal alternativlərdən sayılır. Adətən zəif odda bişirilən və soyuq şəkildə təqdim olunan bu yeməklər mövsümi tərəvəzlərin təbii dadını ön plana çıxarır. Anadolunun müxtəlif bölgələrində yetişdirilən yaşıl lobya, balqabaq və ənginar kimi tərəvəzlər yerli istehsal olunan zeytun yağı ilə hazırlanaraq süfrələrə təqdim edilir.



Türk mətbəxinin ən sevilən zeytun yağlı yeməklərindən biri də dolmadır. Balqabaq, şirin bibər və badımcan kimi tərəvəzlər ətirli düyü içliyi ilə doldurularaq hazırlanır. Eyni içliklə üzüm yarpağına bükülən sarma isə ölkə mətbəxinin klassik və ən çox sevilən təamlarından biri hesab olunur.

Zeytun yağı yalnız tərəvəz yeməklərində deyil, Türkiyənin müxtəlif bölgələrinə xas yabanı otların hazırlanmasında da mühüm yer tutur. Xüsusilə Egey bölgəsində şevketibostan və dəniz börülcesi kimi yerli göyərtilər zeytun yağı ilə hazırlanaraq mövsümün özünəməxsus dadını əks etdirir.

Bu yeməklər xırtıldayan təzə salatlar və ev üsulu hazırlanan sərinləşdirici içkilərlə birlikdə yay süfrələrinin ayrılmaz hissəsinə çevrilir. Təzə meyvələrin yüngül şirinləşdirilmiş suda bişirilməsi ilə hazırlanan komposto, ənənəvi şərbətlər və limonad isti günlərdə xüsusi təravət bəxş edir. Pomidor, xiyar, bibər və soğanın limon suyu və zeytun yağı ilə hazırlanan klassik çoban salatı isə zeytun yağlı yaşıl lobya ilə mükəmməl uyğunlaşır. Bundan əlavə, kısır, mücver, piyaz və mərcimək köftəsi kimi ənənəvi təamlar da Türk yay süfrələrinin vazkeçilməz ləzzətləri sırasında yer alır.

Türkiyənin ənənəvi ev yeməklərini dadmaq istəyənlər üçün əsnaf lokantaları ən doğru seçimlərdən biridir. Vaxtilə nahar fasiləsində yerli işçilərə xidmət göstərmək üçün fəaliyyətə başlayan bu səmimi məkanlar bu gün də rahat atmosferi, münasib qiymətləri və hər gün təzə hazırlanan onlarla ev yeməyi ilə seçilir. Son dövrlərdə dünyada populyarlıq qazanan "grandma-core" və ya "nonna-stalgia" adlanan, sadə və ailə reseptlərinə əsaslanan yeməklərə maraq Türkiyənin əsnaf lokantalarında əslində illərdir yaşadılan ənənədir. Burada qonaqlar isti yeməklərin nümayiş olunduğu vitrindən istədiklərini seçir, hər boşqab üçün sabit qiymət ödəyir və əksər hallarda təzə çörək süfrəyə əlavə ödənişsiz təqdim olunur.

Yay axşamlarında Türkiyənin sahilboyu fəaliyyət göstərən meyxanaları xüsusi ab-hava yaradır. Uzun süfrələr ətrafında keçirilən bu görüşlər mövsümi mezələr, təzə dəniz məhsulları və dəniz mənzərəsi ilə unudulmaz təcrübəyə çevrilir. Yemək adətən haydari kimi qatıq əsaslı soyuq məzələr, zeytun yağlı təamlar və mövsümi göyərtilərlə başlayır. Daha sonra isə manqalda bişirilmiş balıq və digər təzə dəniz məhsulları təqdim olunur. Yerli ağ şərab və ya rakı ilə tamamlanan bu süfrələr sadəcə yemək deyil, paylaşımın, uzun söhbətlərin və birlikdə vaxt keçirməyin ayrılmaz hissəsi hesab olunur.

Türkiyədə yay mövsümünün ən məşhur desertlərindən biri də Maraş dondurmasıdır. Kahramanmaraş bölgəsində yetişdirilən yabanı orkide yumruları və keçi südü ilə hazırlanan bu dondurma özünəməxsus sıx quruluşu və gec əriməsi ilə tanınır. TasteAtlas kimi beynəlxalq platformalarda dünyanın ən məşhur desertləri sırasında göstərilən Maraş dondurması məhz bu xüsusiyyətlərinə görə dilimlənərək bıçaq və çəngəllə təqdim olunur.

**Türkiyənin çimərlikləri, qədim şəhərləri və sərin dağ mənzərələri artıq milyonlarla səyahətçini özünə cəlb edir. Yay mətbəxinin zəngin dadları isə bu səfərə əlavə dəyər qataraq qonaqlara həm ölkəyə gəlmək, həm də süfrə arxasında bir qədər uzun qalmaq üçün daha bir səbəb təqdim edir.**

# Seda Sayan brendlərin saxtasını aldığını söyləyib

**Türkiyəli müğənni Seda Sayan dəbli geyinməyi sevsə də, bahalı brendlərə pul xərcləmədiyini söyləyib.**



Adalet.az xəbər verir ki, o, saat istisna olmaqla bütün geyim və aksesuarların saxtasını istifadə etdiyini etiraf edib:

"Mənim rahatlığım və sakitliyim əsla bahalı geyimlərdə deyil. Bir markanın saxtası həmin markadan seçilmirsə, niyə bahalı markaya pul ödəyim? O pullar asanlıqla qazanılmır axı.

O pulu qazanınca canım çıxır. Bir çantanın əslinə 5min avro verib almıram. Həmin brendin saxtasını alıram. Bunu təkcə mən etmirəm, hətta Bülnet Ersoy da bunu edir. Burda nə var ki? O bunu rahatlıqla edirsə, mən niyə belə şeylərdən sıxılım ki?

Əsla geyim eqom yoxdur.Saat istisna olmaqla bütün geyim və aksesuarların saxtasını rahatlıqla istifadə edirəm. Saata düşkünlüyüm var.

Yeni saxtasını almaqdansa, heç alıb istifadə etmərəm. Səbəbini bilmirəm, amma bu mənim düşüncələrimdir".

**Əntiqə**

## *Xalq artisti: "Uzun müddət əziyyət çəkdim"*



**Xalq artisti Gülyanaq Məmmədova illər əvvəl səhhətində yaşadığı problemlərdən danışıb.**

Adalet.az xəbər verir ki, sənətkar pandemiya dönəmində stress keçirdiyi üçün depressiyaya qarşı dərmanlar qəbul etdiyini etiraf edib:

"Pandemiya dövründə panik-atak xəstəliyi hədsiz çox idi. İnsanlar hər şeydən qorxurdular. Tez təlatümə düşürdülər. Mən bunu efirdə danışanda məni qınadılar ki, bunu niyə deyirsən. Məni qınayanlara dedim ki, mən mədəniyyət işçisiyəm və cəmiyyətə müsbət ünmunə olmalıyam. Kimsə mənim sözlərimlə sağalacaqsa, dərman qəbul edib, normal həyatına davam edəcəksə, nə xoş mənim halıma.

Bəzi insanlar panik-atakın necə baş verdiyini, hansı problemlərin hyaratdığını bilmirdilər. Mən doğru yol göstərməliyəm. Burda pis nə var ki?

Demək olar ki, uzun müddət əziyyət çəkdim. Mənim üçün 6 ay böyük zamana çevrildi.

İlkin mərhələdə elə bilirdim ki, koronaya yoluxandan sonra problemlərim artıb. Ancaq sonradan məlum olub ki, mən panik-atakam. O xsətəliklərin də bir- birlərinə bənzərliyi çoxdur. Ona görə insan daha çox təşvişə düşürdü".

## *Niyam Salami: "... evimizə şeytan girdi"*



**Niyam Salami sosial şəbəkələrdən və smartfon telefonlardan narazılıq edib. Adalet.az bildirir ki, o, bütün bunların cəmiyyətə mənfi təsir etdiyini söyləyib:**

"Çox heyf o illərdən.Sadə telefonlar var idi, hamı yalnız vacib söz üçün bir- birinə zəng edirdi. O vaxt həmin mobil telefonlarla mənasız heç bir iş görülmürdü. İnkişafın mənfi tərəfləri daha çox oldu. Bu müasir telefonlar bizi hər şeydən uzaq saldı, hamıdan ayırdı. Kameralı telefonlar çıxan kimi ele bil, evlərimizə şeytan girdi".

## *Elşad Xosenin son durumu açıqlanıb*

**Bir müddət əvvəl səhhətində problem yaranan reper Elşad Xose müalicə məqsədi ilə xəstəxanaya yerləşdirilmişdi.**



Adalet.az bildirir ki, sənətçinin səhhətində irləliləyiş müşahidə olunduğu deyilir.

Belə ki, E.Xosenin müalicəsi müsbət nəticə verib. Onun vəziyyətinin stabil olduğu deyilir. Sosial şəbəkədə yayılan məlumatlara əsasən, reperin yaxın günlərdə evə buraxılacağı deyilir.

**Əntiqə**

Əbülfət Mədətoğlu və Babək Əliyev **İmran və Rza Cümşüdov qardaşlarına** anaları

**Bulqeyis Rəhimqızının**

vəfatından kədərləndiklərini bildirir və mərhumun doğmalarına dərin hüznlə başsağlığı verirlər.

Aslan Mehdiyev

**Əbdül Sultanovun**

vəfatından kədərləndiyini bildirir və mərhumun doğmalarına dərin hüznlə başsağlığı verir.

Əbülfət Mədətoğlu

**Əbdül Sultanovun**

vəfatından kədərləndiyini bildirir və mərhumun doğmalarına dərin hüznlə başsağlığı verir.

"İnsan və cəmiyyət" qəzetinin baş redaktoru Vaqif Alıyev və Hüsniyyə Əlizadə **Ülkər İnşallah qızına, Hatəm, Vəli, Əyyar Rəhmətovlara, Oktay Abdullayevə** əzizləri

**Şavqurova Gülsurə Əcəm qızının**

vəfatından kədərləndiklərini bildirir və mərhumun doğmalarına dərin hüznlə başsağlığı verirlər.


**Təsisçi və baş məsləhətçi:**
**Aqil ABBAS**

**Baş redaktor:**
**İradə TUNCAY**

Qəzet "Ədalət" qəzetinin bilgisayar mərkəzində yığılıb səhifələnmiş və "Son dakika" MMC Nəşriyyatında ofset üsulu ilə çap edilmişdir.

Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.

**KAPİTAL Bankın 1 saylı Nəsimi rayon filialı.**
kod: 200112 h\h
Müxbir hesab: 0137010001994
S.W.I.F.T. Bik: AIIBAZ 2xhesab N: 38070019411100451111 VÖEN: 1300456161
**İndeks:0107 Qeydiyyat nömrəsi 100**

Ünvan: Bakı şəhəri, Neftçilər 67, mənzil 21 A
**Telefon: (012) 491-23-53**
**adaletqezeti@rambler.ru**
**adaletqezeti@mail.ru, adaletqezeti@box.az**

**Tiraj: 1500**
**Sifariş: 291**
Çapa imzalanmışdır: 20.08.2026